
ZƏLİMXAN YAQUB

ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ



"Şərq-Qərb"
Bakı – 2012



Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, VI cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 428 səh.

Xalq şairi Zəlimxan Yaqubun on üç cildlik əsərləri külliyyatının VI cildində müxtəlif mövzularda şeirləri toplanmışdır.

ISBN 978-9952-34-793-7

© Zəlimxan Yaqub, 2012
© "Şərq-Qərb" Nəşriyyat evi, 2012
www.eastwest.az

YOL

Yaradanım yaxşı bilir,
Yolum kimlərin yoludu.
Dünənin söhbəti deyil,
Lap qədimlərin yoludu.

Məni qış-yaz anan yollar,
Tanrıya uzanan yollar,
Halallıq qazanan yollar,
Xoş qədəmlərin yoludu.

Qulaq Haqdan gələn səsdə,
Könül gündə yüz həvəsdə.
Mənim yolum pərdə üstə
Yanan simlərin yoludu.

Ruhum yollara bələddi,
Yol çaşanlar xəcalətdi.
Nuh, İbrahim, Məhəmməddi,
Yol Adəmlərin yoludu.

2005, 6 iyul

ÖZÜNƏ QAYIDIR XALQA QAYIDAN

Yığır ürəyinə sərvəti, zəri,
Gözünə köçürür gözəllikləri.
Üz-gözü öyrəşir çöl havasına,
Nəfəsi qarışır el havasına.
Verir ürəyini, verir qəlbini
Sazın, muğamatın bal havasına.
Sazda telə dönür, tarda sim olur,
Sağlam özül olur, dərin him olur.
İnsanlar arıdı, xalq arıya şan,
Özünə qayıdır xalqa qayıdan.

Çıxır zirvələrə, qalxır diklərə,
Gül olub döşənir çəmənliklərə.
Daşda çiçək olur, qayada mamır,
Şeh kimi süzülür, bal kimi damır.
Unluqda urvadı, dənlikdə dəndi,
Zəmidi, tarladı, çöldü, çəməndi.
Quran ayəsitək müqəddəs olan,
Avaza qayıdır, səsə qayıdır.
Geyir ayağına dəmir çarığı,
Götürür əlinə əsa, qayıdır.
Meyə-meyxanəyə, toya-nişana,
Kədərə, matəmə, yasa qayıdır.
Can içində ruhdu, ruh içində can,
Özünə qayıdır xalqa qayıdan.

Doğan günəş kimi nurnan, işıqnan,
Dolan bulud kimi yağışnan gəlir.

Ruhu silkələnir, qalxır, oynayır,
Dünyaya təzə bir baxışnan gəlir.
Öpür ulduzların ağ yanağından,
Torpağın ətrini canına çəkir,
İlahi fikirlər, uca duyğular
Ruhumu Tanrının yanına çəkir.
Əli çənəsində, gözü üfüqdə,
Ömrüylə-günüylə haqq-hesab çəkir.
Harda sağ yeridi, harda büdrədi,
Gah rahatlıq tapır, gah əzab çəkir.
Qayıdır qəlbinin həqiqətinə,
Düzünə qayıdır xalqa qayıdan.
Duru çeşmələrin, saf bulaqların,
Gözünə qayıdır xalqa qayıdan,
Özünə qayıdır xalqa qayıdan.

Bilir, bu tayfa nə, bu bəşər nədir,
Bilir, Allah nədir, peyğəmbər nədir,
Bilir, cənnət nədir, cəhənnəm nədir,
Bilir, cəhənnəmdə olan qəm nədir.
Bilir, ruhda nə var, bədəndə nə var,
Bilir, kəfən adlı Vətəndə nə var.
Avandını görür, tərsini görür,
Dünyanın hər cürə dərsini görür.
Keçdiyi yollara bir də boylanır,
İzinə qayıdır xalqa qayıdan.
Tapır Tanrısını xalqın içində,
Özünə qayıdır xalqa qayıdan.
Oduna, külünə, qığılcımına,
Közünə qayıdır xalqa qayıdan,
Özünə qayıdır xalqa qayıdan.

2005, 13 iyun

YAZILMAZ O MƏKTUB

Bir zaman anama məktub yazardım,
Bir zaman atama məktub yazardım.
Şirin xatirələr yada düşərdi,
O dada, o tama məktub yazardım,
Yazılmaz o məktub, yazılmaz daha.

Qəlbin paralanmış şüşəsindədi,
Qəlbimin ən dərin guşəsindədi,
Çılğın saatların, kövrək anların,
Məktublu günlərin nəşəsindədi,
Yazılmaz o məktub, yazılmaz daha.

Hər xalı, hər gülü bir əsər idi,
Nöqtəsi, vergülü bir əsər idi.
Arzu çırpıntılı, ümid qanadlı,
Məhəbbət sərgili bir əsər idi,
Yazılmaz o məktub, yazılmaz daha.

Anamın səbrinə məktub yetişməz,
Atamın qəbrinə məktub yetişməz.
Çürüyər mürəkkəb, quruyar qələm,
O pirə, o dinə məktub yetişməz,
Yazılmaz o məktub, yazılmaz daha.

Gəncliyin gücündən alıb eşqimi,
Allah, məktublarda nələr yazardım?..
Şeiri naxışlarla bəzəməyimdən,
Məcnuna, Kərəmə bənzəməyimdən,
Bir qız baxışında durulmağımdan,
Qəfil bir gözələ vurulmağımdan,

Çətin imtahandan aldığım "beş"dən,
Bəxtimə söz adlı doğan günəşdən,
Qəlbimin dünyanı gəzən səsindən,
Təzə kitabımın ilk nüsxəsindən,
Həftədə bir şirin xəbər yazardım.
Məktub yox, elə bil, əsər yazardım,
Yazılmaz o məktub, yazılmaz daha.

Bəlkə məktubun da insanlar kimi,
Doğulan çağı var, ölən çağı var?
Buz kimi əriyib suya dönməyi,
Od kimi dünyaya gələn çağı var?
Bəlkə məktubun da insanlar kimi,
Kəsilən nəfəsi, çıxan canı var?
Hər insan qəlbində, bir Allah bilir,
Nə qədər məktubun qəbristanı var.
Soyuq sətirləri yaza bilərmi,
Odlu məktubları yazan Zəlimxan?!
Ölən məktublara dil deyir indi,
Saz üstə ağlayır ozan Zəlimxan.
Yetişməz bəndəyə, çatmaz Allaha,
Yazılmaz o məktub, yazılmaz daha.

2005, 27 iyun

VARAĞA KÖÇMƏMİŞ MİN YAZI QALDI

Dünyanın yolları çaşbaş, dolaşıq,
Kim narazı qaldı, kim razı qaldı.
Hərə bir arzunun dalınca getdi,
Hərə bir istəyə tamarzı qaldı.

Uçurumlar amansız, yarğanlar dərin,
Küləklər şaxtalı, havalar sərin.
Gözləri yol çəkən neçə şairin,
Neçə keçilməmiş Arazı qaldı.

Dumanlı yollarda dolaşdıq, azdıq,
Fikir dağlarını qazdıqca qazdıq.
Hər varaq üstündə bir yazı yazdıq,
Varağa köçməmiş min yazı qaldı.

2005, 9 iyul

GETMƏ

Ora cəhənnəmdi, qaynar cəhənnəm,
Basma ayağını ah-zar yerinə.
Gedərsən, sağalmaz ağrı taparsan,
Getmə dərd yerinə, azar yerinə.

Mən dolu bir ürək, sən gözəl pəri,
Gözəllik burdadı, bəri bax, bəri.
Fırıldaq dünyanın alverçiləri,
Qoy səni çəkməsin bazar yerinə.

Ver mənə, qoy qalsın ah-nalə məndə,
Axsın göz yaşından şəlalə məndə.
Nə qədər dərdin var, dəfn eylə məndə,
Qazsınlar sinəmi məzar yerinə.

2004, 28 oktyabr

DƏRMAN DA ÇOXALIR DƏRD ÇOXALANDA

Dərman da çoxalır
dərd çoxalanda,
Çatdırır əlliyə,
yüzə dərmanı.
Tükənir işığı,
azalır nuru,
Yüz də məlhəm eylə
gözə dərmanı.

Yükü daşımaqdan
yorulur ürək,
Yetişmir dadına
nə duz, nə çörək.
Xəstə yatağında
yatmaya gərək,
Düşə qapı-qapı
gəzə dərmanı.

Biz dərman içirik,
dərd işə düşür,
İşimiz o çərxi
gərdişə düşür.
Hər gün içə-içə
vərdişə düşür,
Çoxu vurmasa da
üzə dərmanı.

Gözlərin yaşını
təsəlli silmir,
İllərin ağrısı
candan çəkilmir.
Köhnə yaraları
sağalda bilmir,
Çox da tərifləmə
təzə dərmanı.

Quruyan çöl nədir,
yanan iç nədir,
Bu qədər vədəsiz,
vaxtsız köç nədir?
Həkim kağızının
hökmü heç nədir,
Yaradan yazmasa
bizə dərmanı.

Kislovodsk,
2005, 15 iyul

ÜÇ ŞƏRT

Ata babam Şamil kişi deyərdi ki, üç şərtə görə nəvələrimin içində hamıdan çox Zəlimxanı sevirəm: o yeyəndə doymur, işləyəndə yorulmur, danışanda mızıldamır. Bu sözlər babamın dilindən çıxanda onun yaşı doxsanı keçmişdi, mənimki isə iyirmi beşi.

Belə bir marağım, belə bir eşqim,
Belə bir həvəsim var idi mənim:
Yeddi aşırıma, yeddi bələnə
Doy gələn nəfəsim var idi mənim.
Seldən güc almışdı, sudan bərəkət,
Kəsilməz gur səsim var idi mənim.
Yeriyə-yeriyə əldən salırdı,
Ayağım dərəni, düzü yeyirdi.
Qartal cəsarətim, pələng iştahım,
Erkək parçalayır, quzu yeyirdi.
Şimşək oynayırdı baxışlarımda,
Gözüm gözəllərdə gözü yeyirdi.
Yeri gözlərimə yığırdım onda,
Göyü gözlərimə yığırdım onda,
Dağların nə qədər dəyanəti var,
Çəkib dizlərimə yığırdım onda, –
Doymurdum,
doymurdum,
doymurdum ancaq.

Bütün ağılların ağlı mən idim,
Elə bil Allahın oğlu mən idim.
Yerə də, göyə də naz eyləyərdim.
Evdə nə vardırsa – balta, süpürgə,
Yarmaça qırığı, taxta parçası,
Basardım sinəmə, saz eyləyərdim.

Nura çevrilərdim, işıq olardım,
Dastan danışardım, aşıq olardım,
Qədim nağılların qəhrəmanıtək
Zarafat edərdim əjdahalarla,
Ovcumun içində köz götürərdim.
Ərzurum dağında Lələyə dönüb,
Kərəmin nazını götürən idim,
Hələbdən Tiflisə Aşıq Qəribi
Şahsənəm toyuna yetirən idim.
Beynim yazılmamış ağ varaq idi,
Deyilən nə varsa, tez götürərdim.
Qarıdan, dəlləkdən, aşıqdan, eldən,
Hərədən bir cürə söz götürərdim.
Ağbirçək öyüdü, ağsaqqal nuru
Çiçəkdən ətirli, çeşmədən duru,
O nurdan, işıqdan, bakirəlikdən,
İçdikcə içirdim, doymurdum onda.
Zirvələr dolaşır, dağlar aşırdım,
Dərələr keçirdim, doymurdum onda.

Dişi qırılırdı, teli sınırdı,
Saçlarım gündə bir daraq yeyirdi.
Qələmim söz üçün açıb ağzını,
Gündə neçə-neçə varaq yeyirdi.
Dişim daş çeynəyir, içim dağ udur,
Əkinçi əllərim torpaq yeyirdi.
Şeirimin iştahı çox idi məndən,
Şamı əridirdi, mumu yeyirdi.
Almazdan itiydi xışımın ağzı,
Daş-daş, kəsək-kəsək şumu yeyirdi.
Arıçı yanında baldan doymurdum,
Bal kimi söhbətdən doymurdum onda.
Qarışqa gücünə, arı hökmünə,
Tükənməz heyrətdən doymurdum onda.
"Səni bütün yesəm doymaram" deyib,

Bütün varlılardan varlı görünən,
Kasıbın qızından doymurdum onda.
Cazibə yeriydi el məclisləri,
Aşığın sazından doymurdum onda.
Mənə vermişdilər eşqi, həyatı,
Mənə vermişdilər bu Kainatı.
Yenə də gözüm ac, könlüm ac idi,
Doymaq mənim üçün ölümdən betər,
Doymamaq əbədi ehtiyac idi, –
Doymurdum,
doymurdum,
doymurdum onda.

Həftə nə, fəsil nə, gün nə, ay nədir,
O zaman mənimçün zaman yox idi.
Ulduztək yanırdı fikrim, xəyalım,
Ruhumun göyündə duman yox idi.
Onda mənim üçün üzr, bəhanə,
Onda yorulmağa güman yox idi.
Səyyah dirsəyini dizinə qoyub,
"Bir azca dincimi alım", – deyirdi.
Dağlara çıxanda enmək istəmir,
"Qalım, bu yerlərdə, qalım", – deyirdi.
Qaçan da, qovan da nəfəs dərirdi,
Ovçu dincəlirdi, ov yorulurdu.
Tükənir işığı, azalır odu,
Alışıb-yanmaqdan qov yorulurdu.
Hamı dincəlirdi, rahatlanırdı,
Dincini almayan bir mən olardım.
Alovu gur yanan gecə tonqalı,
Suları gur axan yer mən olardım.
Buludlar bağrından od kimi qopan
Şimşəklər yoruldu, mən yorulmadım.
Bu dağdan o dağa atını çapan
Küləklər yoruldu, mən yorulmadım.

"Vallah, işləməkdən öldü bu uşaq", –
Atamın, anamın bu sözlərindən
Güc-qüvvə alardım, ölməzdim onda.
Maraqla baxsam da yorulanlara,
Yorulmaq nə idi, bilməzdim onda.

Şux yeriş, şux duruş, aydın danışıq,
Hər sözdə Tanrıdan süzülər işıq.
Dil aydın, ruh təmiz, fikirlər duru,
Hər sözün canında torpaq sevgisi,
Oğul cəsarəti, kişi qüruru.
Mənim danışığım, mənim söhbətim
Atamın, anamın öz dilindədi.
Füzuli danışan Bayat dilində,
Qorqudun çaldığı saz dilindədi.
Dızıltı, mızıltı, vızıltı deyil,
Dolaşıq fikirlər yaddı bu dilə.
Ələsgər sığalı, Vurğun ləngəri
Şəkərdi, şərbətdi, baldı bu dilə.
Mənim Şamil babam, ruhun şad olsun,
Mən səndən öyrəndim körpəliyimdən
Mərd ilə mərd olub, mərd danışmağı,
Yumşaqla yumşalıb, ipəyə dönüb,
Sərt ilə sərt olub, sərt danışmağı.
Gərək çatdırasan adam dilində,
Sevinc danışmağı, dərd danışmağı.
Belə yaranmışam yaranışımdan,
Çiçəklə danışar, mızıldamazdım.
Tanrıya, Allaha tutub yönümü,
Fələklə danışar, mızıldamazdım.
Unuda bilmirəm həyatım boyu,
Qulaqda sırğadı sənin sözlərin.
Sərin dağ mehidi, əsən küləkdi,
Dəli qasırğadı sənin sözlərin.
Doymuram, ay baba, narahat olma,

Gözümə yığdığım göydən doymuram.
Sazın meydanıdı sinəmin üstü,
İçimi yandıran neydən doymuram.
Allah sevgisidi məndəki sevgi,
Beşikdən, yuvadan, yurddan doymuram.
Füzuli övladı "bəlayi-eşqəm",
Dərdim çox olsa da, dərddən doymuram.
Qabaqdan yüz gəlir, narahat olma,
Dünyanı qucsam da, yorulmamışam.
Ölkədən ölkəyə, kənddən şəhərə
Quş kimi uçsam da, yorulmamışam.
İllərin sınağı ağır olsa da,
Əllini aşmışam, yorulmamışam.
Dərvişə, ozana, səyyaha dönüb,
Yurdu dolaşmışam, yorulmamışam.
Kişini kişitək bütövləşdirən
Süd ilə sümükdü, qan ilə ilik.
Babamın sözündə bır ucalıq var,
Babamın sözündə mərdlik, kişilik.
Onun sözlərinə kölgə salmağım
Zülümdən ağırdı, ölümdən betər.
Bir nəsli salamat böyütmək üçün
Babamın üç kəlmə söhbəti yetər.
Çöksə sinəm üstə qəfil ağrılar,
Kədər qat-qat olsa qaşımın üstə,
İblis at oynatsa başımın üstə,
Ölüm işə keçib, əcəl tələssə,
Əzrayıl qılıncı dilimi kəssə,
Ay baba, ay baba, narahat olma,
Göz-göz açılsa da sinəmdə yaram,
Heç yerdə, heç zaman zarımamışam!
Heç yerdə, heç zaman mızıldamaram!!!

2005, 17 iyul
Kislovodsk

HEÇ KƏS DEMƏDİ Kİ...

Allahın bir bədbəxt
bəndəsi vardı,
Ömrü başdan-başa
qeybətə getdi.
Sevgini neməttək
dada bilmədi,
Qazancı, mayası
nifrətə getdi.

Çaldı, ilan oğlu
ilan danışdı,
Saldı ürəklərə
talan, danışdı.
Ev yıxdı, şər dedi,
yalan danışdı,
İşığa göz yumdu,
zülmətə getdi.

Dilinin əzbəri
hər gün "çor" oldu,
Yaxşını görməyə
gözü kor oldu.
Öləndə dedilər
"gorbagor oldu",
Heç kəs demədi ki,
rəhmətə getdi.

2005, 19 iyul

MƏNƏ BİRCƏ NƏFƏR ADAM GÖSTƏRİN

Salam, ağ kəfənim, qara tabutum,
Qara ağsız olmaz, ağ da qarasız.
Hər köçüb gedənlə sönər bir işıq,
Yer tutqun görünər, göy ayparasız.

"Zikr eylə" dedilər, zikrdən öldük,
"Şükr eylə" dedilər, şükrdən öldük.
Fikir çəkə-çəkə fikirdən öldük,
Əcəlin əlində qaldıq çarasız.

İşığı sönməz bir şam göstərin,
Ya saray göstərin, ya dam göstərin.
Mənə bircə nəfər adam göstərin, –
Ağrısız, acısız, yassız, yarasız.

2005, 23 iyul

SABAHIN DİLİNDƏ DANIŞ

Dilsiz bu dünyanın heç nəyi yoxdu,
Ümid ol, sabahın dilində danış.
Xəstəni görəndə xilaskara dön,
Mahir bir cərrahın dilində danış.

Yel olub, sel olub əsəndə düşmən,
Nə məndə güc qoyar, nə səndə düşmən.
Başının üstünü kəsəndə düşmən,
Səngərin, silahın dilində danış.

Suyun öz dili var, üzmək istəsən,
Dərdin öz dili var, dözmək istəsən.
Çölləri, düzləri gəzmək istəsən,
Ovçunun, səyyahın dilində danış.

Düşüncə insanın sərvəti, zəri,
Şöhrət əl qabarı, ad alın təri.
Alimsən, kitabın içində əri,
Şairsən, Allahın dilində danış.

2005, 23 iyul

YAZMAQ OLMUR, ƏZİZİM

Dəniz dəli, çay havalı, su qanlı,
Üzmək olmur, üzmək olmur, əzizim.
Ürəklərin gör nə qədər dərdi var,
İpə-sapa düzmək olmur, əzizim.

Dağdan yağır, daşdan yağır suallar,
Yağış kimi başdan yağır suallar.
Gözdən axan yaşdan yağır suallar,
Nəfəs alıb gəzmək olmur, əzizim.

Kimi dağdan, kimi damdan yıxılır,
Başımızın üstündədi qorxular.
Baş-ayaqdı, qat-qarışdı yuxular,
Yozmaq olmur, yozmaq olmur, əzizim.

Nə dərd olsa, bizə salır mehrini,
Biz çəkirik yerin-göyün qəhrini.
Yazan yazıb, elə basıb möhrünü,
Bir sətrini pozmaq olmur, əzizim.

Sünbül nədi, dəndən yaxşı bilirəm,
Dağ nə çəkir, səndən yaxşı bilirəm,
Sən biləni səndən yaxşı bilirəm,
Yazmaq olmur, yazmaq olmur, əzizim.

2005, 23 iyul

DƏDƏ BARIŞDIRAR, GƏDƏ KÜSDÜRƏR

Haqq üçün
başını verər cəllada,
Nə qorxu,
nə də ki, hədə küsdürər.
Şairi beş güllə
susdura bilməz,
Bir sözdən aldığı
zədə küsdürər.

Tökər dolusunu,
tökər qarını,
Qatar-qarışdırar
saf sularını.
Şair ürəyinin
arzularını,
Zaman bulandırar,
vədə küsdürər.

Bal ilə doldurar
arı şanları,
Haqq sevər Haqq üçün
yarışanları.
Bütün küsənləri,
barışanları,
Dədə barışdırar,
gədə küsdürər.

2005, 23 iyul

ÇƏKİL ÖZ İÇİNƏ

Bayırdan, bacadan yığıl, yığşırıl,
Çəkil öz içinə, çəkilə bilsən.
Havalı ovçular zirvədən enib,
Dağın ətəyinə çəkilən kimi,
Güllərin ətrindən tutub yükünü,
Arı pətəyinə çəkilən kimi,
Çəkil öz içinə, çəkilə bilsən.

Palıdın gücünü, mətinliyini,
Çinarın boyunu özündə axtar.
Böyük insanlığın, ulu köklərin
Əslini, soyunu özündə axtar.
İsgəndər atlanan tərəfdə deyil,
Dirilik suyunu özündə axtar,
Çəkil öz içinə, çəkilə bilsən.

Eşqin arxasınca düşmə çöllərə,
Qüdrətin içində, eşqin içində.
Dəli dalğalara həsəd aparma,
Qasırğa içində, daşqın içində.
Böyük mübarizən, böyük savaşın,
Döyüşün içində, məşqin içində.
Nizami içində, Puşkin içində,
Çəkil öz içinə, çəkilə bilsən.
Ordadı zəmi də, tarla da, çöl də,
Əkinə, biçinə çəkilə bilsən.
Əkinçi, səpinçi, biçinçi qardaş,
Çəkil öz içinə, çəkilə bilsən.

Ceyranı vururlar, tökülür qanı,
Tökülən qan görür, təbiət küsür.
Haqqı tapdalanan, gözü qırılan,
Susan insan görür, təbiət küsür.

Baltalar vurulur eşqə, sevgiyə,
Sevgi boyun bükür, məhəbbət küsür.
Nə inci, nə incit, nə küs, nə küsdür,
Nə öldür, nə utan, nə sus, nə susdur,
Nə varsa, hər şeyi özündə axtar,
Çəkil öz içinə, çəkilə bilsən.

İbrahim səndədi, İsa səndədi,
Məhəmməd səndədi, Musa səndədi.
Bir anda əsaya çevrilən ilan,
İlana çevrilən əsa səndədi.
Ovsun da, tilsim də, sirr də, sehr də,
Yazı da, fərman da, söz də, möhür də,
Çətin sualların "niyə"ləri də,
"İncil"in, "Quran"ın ayələri də
Səndədi, səndədi, nəsə səndədi,
Çəkil öz içinə, çəkilə bilsən.

Sonsuz ağrıların, böyük dərdlərin,
Bəlkə, əlacını sən tapacaqsan?
Haramın əlindən alıb dünyanı,
Halal bir varlığa çevirmək üçün,
Bəlkə də təzə bir buğda kəşf edib,
Bəlkə də təzə bir dən tapacaqsan?
Buğda söhbətindən Adəm inciməz,
Habilsiz, Qabilsiz, qansız-qadasız,
Bəlkə də təzə bir yön tapacaqsan?
Dilləri, dinləri barışdırmağa,
Bütün qəzəbləri, çaxnaşmaları,
Barışmaz kinləri barışdırmağa
Adəmdən yuxarı, Həvvadan uca,
Bəlkə də təzə bir din tapacaqsan? –
Çəkil öz içinə, çəkilə bilsən,
Çəkil öz içinə, çəkilə bilsən.

2005, 24 iyul

GƏTİRƏR

Şair üçün masa – səngər,
qələm – silah,
Qeyrət ona bükülməyən
diz gətirər.
Fikir-xəyal, söz dalınca
qaçan ovçu,
Göydən yerə söz endirər,
söz gətirər.
Gedər çıxar Yaradanın
dərgahına,
Vergi adlı bir ocaqdan
köz gətirər.
Halal ilham çirk götürməz
halal süddür,
Harda olsa qaymaq tutar,
üz gətirər.

2005, 25 iyul

ÖMÜRDƏN BİR MƏNZƏRƏ

İki qardaş əyləşib –
biri gözlü, biri kor,
Biri kitab oxudur,
biri kitab oxuyur.
Zülmətlə nur yan-yana,
davam edir yaşamaq.
İki qəmli ürəkdə
bir iztirab oxuyur.
Bəlkə, Allah insanı
qara günə yaradıb,
Elə həyatı boyu
ağrı-əzab oxuyur?

2005, 25 iyul

SUALLAR... SUALLAR

Niyə büdrədi, yıxıldı,
Niyə çox yandı-yaxıldı,
Filankəs niyə paxıldı? –
Allah bilən məsləhətdi.

Üstündəki o yun nədi,
Quzu nədi, qoyun nədi,
Bu qurulan oyun nədi? –
Allah bilən məsləhətdi.

Kim öz içinə qısıldı,
Kim asdırdı, kim asıldı,
Pəhləvan niyə basıldı? –
Allah bilən məsləhətdi.

Kim hürəndi, kim ulayan,
Kimdi bu quyruq bulayan,
Kimlərdi meydan sulayan? –
Allah bilən məsləhətdi.

Niyə çürüyür kökümüz,
Niyə tərpənmir tükümüz,
Niyə ağırdı yükümüz? –
Allah bilən məsləhətdi.

Niyə gözdən axır yaşlar,
Niyə göydən yağır daşlar,
Niyə kəsmir bu savaşlar? –
Allah bilən məsləhətdi.

Səhralıqdı, çəmənlikdi,
Kim unluqdu, kim dənlikdi,
Nə sənlikdi, nə mənlikdi, –
Allah bilən məsləhətdi.

Çoxunu vurub dişinə,
Çoxunu qatıb döşünə,
Qarışma onun işinə, –
Allah bilən məsləhətdi.

Sevinc bilməz ah biləni,
Nökər duymaz şah biləni,
Kim bilər Allah biləni? –
Allah bilən məsləhətdi.

2005, 27 iyul

BİR KİTABA SIĞARMI?

Əldə qələm, dildə söz,
gözdə atəş, canda od,
Min illərdi yazılır
milyonlarca kitablar.
Hər kitabın içində
neçə insan ağrısı,
Zülümlər, işgəncələr,
əzablar, iztirablar.

Varaq-varaq eylədi
hər kəs öz aləmini,
Tapammadı yenə də
xoşbəxtliyin çəmini.
Azaltmadı zərrəcə
ürəklərin qəmini
Nə içilən badələr,
nə süzülən şərablar.

Kəsilmədi dünyanın
nə qırğını, nə vayı,
Uçan vaxtın əlində
ömür getdi havayı.
Nə verdi insanlığa
göz yaşından savayı,
Qasırğalar, tufanlar,
savaşlar, inqilablar?

Nə dinər, nə tərpənər,
sərt qayalar sal durur,
Canında min sirr yatır,
açan yoxdur, lal durur.

Hər sualın dalında
yeni bir sual durur,
Nə suallar tükəndi,
nə tam oldu cavablar.

Bir sualın önündə
min cür cavab yazıram,
Yazdığım hər nə varsa,
ağrı-əzab yazıram.
Şair də öyünür ki,
təzə kitab yazıram,
Bir kitaba sığarmı
bu qədər haqq-hesablar?

2005, 30 avqust

DOĞULAN GEDİRSƏ

Bir yoldu, gedirəm daşlı-kəsəkli,
Gedirəm içimdən çölümə doğru.
Yol var, aydınlığa aparır məni,
Yol var məşəqqətə, zülümə doğru.

Bir günüm sevincdi, bir günüm ahdı,
Kədər başım üstə şah oğlu şahdı.
Yanmaq bu gündürsə, sönmək sabahdı,
Baxıram odumdan külümə doğru.

Könül bəs eyləmir, göz doymur qəti,
Yaşamaq insanın ulu niyyəti.
Yalandı taleyin əbədiyyəti,
Doğulan gedirsə ölümə doğru.

2005, 23 dekabr

MƏZAR DAŞLARI

Ağrıya heykəldi, dərdə abidə,
Bu ağrı daşları, azar daşları.

Yazda yağış döyər, qışda qar basar,
Pozar naxışları, pozar daşları.

Hər gələn oxuyar adı, soyadı,
Hərə bir tərəfə yozar daşları.

Zaman itirsə də tozanağında,
Ustalar vurhavur yazar daşları.

Daşyonan qiyməti bahalaşdırıb,
Həmişə dəbdədi bazar daşları.

Ömrün son ünvanı, son nişangahı,
Baxar bir-birinə məzar daşları.

2005, 26 dekabr

MƏNƏ BU DƏRDLƏRİ SƏN ÇƏKDİRMİSƏN

İlan ili bəlli, İt ili bəlli,
Dovşan ili bəlli, At ili bəlli,
Habili, Qabili, qatili bəlli,
Mənə bu dərdləri sən çəkdirmisən.

Ver mənə cəzanı, cəzan mübarək,
Yazdıran mübarək, yazan mübarək,
Qazilər demişkən, qəzan mübarək,
Mənə bu dərdləri sən çəkdirmisən.

Qurdun məhkum kimi hər divanımı,
Yıxdın mərtəbəmi, nərdivanımı.
Əlinlə bağladın dərd-divanımı,
Mənə bu dərdləri sən çəkdirmisən.

Səhv edib çürüyü qatmışam safa,
Dərdlərim tən gələr Ağrıynan Qafa.
İmansız, allahsız gəlməz insafa,
Mənə bu dərdləri sən çəkdirmisən.

Heç peyvənd olarmı gül ilə alaq,
Yaxşını yamana kim vurdu calaq?
Qazancım çarmıxdı, payım daşqalaq,
Mənə bu dərdləri sən çəkdirmisən.

Çəkiləndə hesab nə deyəcəksən?
Sorulanda cavab nə deyəcəksən?
Veriləndə əzab nə deyəcəksən? –
Mənə bu dərdləri sən çəkdirmisən.

2005, 30 dekabr

ÇIXIB TƏBİƏTİN ƏLİNDƏN XATA

Onun görkəminə sən niyə güldün,
Yetim taleyinə gülməzlər, bala.
Tanrıdan bir azca sevinci varsa,
Onu da süpürüb-silməzlər, bala.

Çıxıb təbiətin əlindən xata,
Qanadsız quş kimi gəlib həyata.
Sağında ana yox, solunda ata,
Gedənlər geriyə gəlməzlər, bala.

Dərddən biz-biz olar başının tükü,
Həsrətdən budağı, kədərdən kökü.
Atasız olanın çəkdiyi yükü,
Atalı olanlar bilməzlər, bala.

2005, 31 dekabr

HƏLƏ BU DÜNYANIN AXIRI DEYİL

Yaxşının əvəzi yoxdu dünyada,
Yaxşının gözləri toxdu dünyada.
Yaxşı ki, yaxşılar çoxdu dünyada,
Hələ bu dünyanın axırı deyil.

Baxma, intiqamı, qisası da var,
Xilaskar Nuhu da, İsası da var.
Məhəmmədi də var, Musası da var,
Hələ bu dünyanın axırı deyil.

Duru duyğular var duru bulaqda,
Şirin nəğmələr var odlu dodaqda.
İlahi səslər var hələ qulaqda,
Hələ bu dünyanın axırı deyil.

Quyu qazan varsa, yol çəkən də var,
Ev yıxan olsa da, ev tikən də var.
Baxma, qanqal da var, boz tikan da var,
Hələ bu dünyanın axırı deyil.

Qılıncdan, nizədən, oxdan olardı,
Varı talanardı, yoxdan olardı.
Dağılan olsaydı, çoxdan olardı,
Hələ bu dünyanın axırı deyil.

Göylə süz, quşla uç, atlıyla atlan,
Dünya əzabına səbr ilə qatlan.
Havalan, dalğalan, qayna, qanadlan,
Hələ bu dünyanın axırı deyil.

Yerə güvəndiyi gümrahlıq verib,
Göyə Günəş adlı bir şahlıq verib,
Allah bu dünyaya Allahlıq verib,
Hələ bu dünyanın axırı deyil.

2005, 31 dekabr

ALDI VAXTIMIZI DOST MƏCLİSLƏRİ

Aldı vaxtımızı dost məclisləri,
Kimlər mey içində məst olmadılar?
Badə qaldırdılar dost sağlığına,
Heyif ki, çoxları dost olmadılar.

Bizə özgələrin yetməzdi gücü,
Döydü öz dolumuz öz dənimizi.
Biz orda eşitdik badalaqları,
Biz orda qazandıq düşmənimizi.

Qatilə, xainə döndü bir nəfər,
"Dostun" fitvasıyla dost dara düşdü.
Biz onu vaxtında tanıyammadıq,
Onun da günahı dostlara düşdü.

Aldı vaxtımızı dost məclisləri,
Aqillər, müdriklər qazandıq orda.
Şərab əvəzinə dost qanı içən,
Kafirlər, müşriklər qazandıq orda.

Sən giley adamı deyilsən axı,
Çox da xırdalanıb getmə dərinə.
Zəlimxan, gur səsin, qaynar nəfəsin,
Ən böyük zərbədi düşmənlərinə.

2006, 2 yanvar

BÜTÖVLÜK

Görəsən Allah
Ayımı çox sevir, Günəşimi?
Buzumu çox sevir,
atəşimi?
Dağımı çox sevir,
təpənimi?
Dalğanımı çox sevir,
Dalğanın körpə balası
ləpənimi?
İnsanımı çox sevir,
heyvanımı?
Qocanımı çox sevir,
cavanımı?
Quşumu çox sevir,
daşımı?
Ürəyimi çox sevir,
yaddaşımı?
Nəyə lazım
mətləbi uzatmaq,
Nəyə lazım
sualların kölgəsində yatmaq.
Allah öz sevincini
Hamıya, hər şeyə
bütöv verər,
Qum dənəsi kimi
xırdalamaz,
Dilənçi payı kimi
bölməz.
Allah elə bu
bütövlüyünə görə
Ölməzdi!
Ölməzdi!
Ölməzdi!
Ölməz!!!

2006, 3 yanvar

DÜNYA DURUŞ GƏTİRİR

Göylər dolur-boşalır,
Axan dolu buludlar,
Dumanlar hesabına.

Gecə-gündüz qaynaşır,
Dənizlər xoşbəxt olur,
Limanlar hesabına.

Yaxşılardı dünyanı,
Yaraşığa mindirən.
Dağılardı bu dünya,
Yamanlar hesabına.

Yaxşı ki, uca Tanrı,
Qoruyur bu dünyanı.
Dünya duruş gətirir,
Dürüst, saf əqidələr,
İmanlar hesabına.

2006, 4 yanvar

AXIR ZAMAN EVİMİZ

Fikrin məngənəsində
sıxanda həyat bizi,
Dözümdən dayaq tapıb,
səbrimizə sığındıq.
Bir nadan, bir sərsəri
keçəndə təhqirlərə,
İsmətdən pərdə çəkib,
abrımıza sığındıq.

Axır zaman evimiz
torpaqda möhrümüzdü,
Yaxşı ki, qəbrimiz var,
qəbrimizə sığındıq.

2006, 7 yanvar

ALLAHIN VERDİYİ BİR CANINIZ VAR

Ölüm axır deyil, ölüm son deyil,
Ağlayan çöhrələr, güləcəksiniz.
Quru yaylıqları gözlərə çəkib,
Nəmli kirpikləri siləcəksiniz.

Əsib səhralarda yel qanadında,
Axıb dərələrdə sel qanadında,
Çiçək yarpağında, gül qanadında
Yenidən dünyaya gələcəksiniz.

Dərdiniz, yükünüz, hicranınız var,
Köçhaköç vaxtınız, hicr anınız var.
Allahın verdiyi bir canınız var,
Onu da torpaqla böləcəksiniz.

2006, 10 yanvar

ƏGƏR İNAMIN ÖLÜBSƏ

"Yarəb, bu uğursuz gecənin yoxmu sabahı?"
M.A.Ərsoy

Əgər inamın öldüsə,
bu həyatdan əlini çək,
İnam öldü, iman öldü,
demək, həqiqətin öldü.

Çəkməyə bir nəfəs yoxsa,
uçmağa bir həvəs yoxsa,
Yerə, göyə, sonsuzluğa
marağın, heyrətin öldü.

Qaynamasa damarda qan,
hər ağrıya yanmasa,
Demək, dosta məhəbbətin,
düşmənə nifrətin öldü.

Arzu, ümid, fikir, xəyal,
uçan qollar, qanadlar,
Qolun yoxsa, yolun yoxdu,
gücün, cəsarətin öldü.

Diri-diri ölənlərçün
nə görüş var, nə ayrılıq,
Yad-doğma yox səndən ötrü,
Vətənin, qürbətin öldü.

Molla çağır, Quran oxut,
versin sənin "Fatihə"ni,
Ölü gəldin, ölü getdin,
hünərin, qeyrətin öldü.

Ey inamı ölən kimsə,
könüllü get qəbristana,
Çünki səndən çox-çox əvvəl
ruhun, qətiyyətin öldü.

2006, 13 yanvar

BAŞDAŞINDA YAZI

Gözləməyin yollarımı,
Tapılmışdım, itdim daha.
Dünya üçün tükənmişəm,
Həyat üçün bitdim daha.

Bax bu lallığa, karlığa,
Yol genişlikdən darlığa.
Sirdaş oldum məzarlığa,
Son mənzilə yetdim daha.

Başa çatdı vaxt, ərəfə,
Çatdım sonuncu şərəfə.
Çağırdılar Haqq tərəfə,
Getməliydim, getdim daha.

2006, 15 yanvar

SEVGİMİ DƏFN EYLƏDİM

Həyat yoldaşını çox erkən itirmiş bir kişinin dilindən

Könlü zərif bir çiçək,
qəlbi xallı kəpənək,
Göydən gülüş yağardı
o deyib-gülən günü.
Onun doğum günündə
yenidən doğulardıq,
Qoşa bayram edərdik
dünyaya gələn günü.

Şirin nə var dünyada
anamız həyat qədər,
Yüz il yaşasaq belə,
qısadır saat qədər.
Sinəm genişlənərdi
sonsuz Kainat qədər,
Sevgilim sevincini
mənimlə bölən günü.

Rəngin ağappaq kəfən,
qapqara bulud mənəm,
Daş dinər, lal dillənər,
səssizlik, sükut mənəm.
Torpaqda yatan odur,
çürüyən tabut mənəm,
Sevgimi dəfn eylədim
sevgilim ölən günü.

2006, 12 fevral

YARLA YARIN ARASINDA

Sürücüm Təyyar Mehdiliyə

Yol uzanır dilənçidən şaha doğru,
Dava gedir yoxla varın arasında.
Nəfs-tamah gecə-gündüz döyüşdədi,
Dava gedir başla qarın arasında.

Ocaq yanır, od nə bilsin sac nə çəkir,
Başsız başda Allah bilir tac nə çəkir.
Tox nə bilsin yoxsul kimdi, ac nə çəkir,
Ülfət olmaz acla harın arasında.

Ürəklərin son qatına enmək yoxdu,
Bülbüllərin cəh-cəhinə dönmək yoxdu.
Eşitmək yox, danışmaq yox, dinmək yoxdu,
Cəhənnəm var lalla karın arasında.

Yeri şumla, yurdu dinlə, torpağı ək,
Çiçəyi dər, gülü qoxla, şırımı çək.
Başın üstə çadır qursun çərxi-fələk,
Gör nələr var yarla yarın arasında.

Qəlbimizin harayları, ünləri var,
Sevgimizin tanrıları, dinləri var.
Ömrümüzün isti-soyuq günləri var,
Tər çiçəklə təzə qarın arasında.

Canımızda ağrı qalır, azar durur,
Ortalıqda can alveri, bazar durur.
Bu, taledi: beşik ilə məzar durur,
İlk baharla son baharın arasında!

DEDİM – DEDİ

Dedim: – Gur saçların nə tez ağardı,
– Payızın saldığı qırovdur, – dedi.

Dedim: – Ömür nədir səndən ötəri,
– Əcəlin əlində bir ovdur, – dedi.

Dedim: – Bəxtin sənə heç yar oldumu,
– Gözləri kor olub, qarovdur, – dedi.

Dedim: – Hansı diyar yetirib səni,
– Yurdum yad əllərdə girovdur, – dedi.

SƏNƏ QALMAYACAQ SƏNİN OLANLAR

Sənə qalmayacaq sənin olanlar,
Tulla min sevinci, bir qəmi saxla.
Göz yaşın dönəndə Nuh tufanına,
Salamat çıxmağa bir gəmi saxla.

Çağırsan eşitməz – qulağı kardı,
Onsuz sevincin meydanı dardı,
Zəmisi çörəkdi, bağçası bardı,
Özünə bir bağça, bir zəmi saxla.

Daş üzlər hasardı daş saraylara,
Qoymaz sevgi dola boş saraylara.
Könül, bel bağlama baş saraylara,
Dar günə bir yerdə zirzəmi saxla.

NİFRƏT – SEVGİ

Bu çərxi-fələyin öz işləri var,
Hərənin başına bir iş gətirər.
Zəlzələ, qasırğa tozanağında,
Nə məğrur qalası, nə uca dağı,
Nə köklü qayası duruş gətirər.
Nəmli düşüncələr, qəmli fikirlər,
Tutqun alınlara qırış gətirər.
Nifrətlə dünyanı çalxalandırar,
Sevgiylə dünyaya barış gətirər.

ALIN YAZISI

Meşə palıdların, göy buludların,
Dəniz dalğaların, ləpələrindi.
Kərəmli gədiklər, yastı yamaclar,
Uca dağlarındı, təpələrindi.
Dünyanın kədəri qocalanların,
Dünyanın sevinci körpələrindi.

ŞAİR QƏLƏMİYLƏ İŞİN OLMASIN

Bir nadanın atdığı daşa cavab

Mənə o qələmi nə sənin dədən,
Nə vəzir, nə vəkil, nə də şah verib.
Ona söz atmasın hər gəlib-gedən,
Onu Zəlimxana bir Allah verib.

Yaz deyib sevinci, yaz deyib qəmi,
Fitnəyə verməyib, fəndə verməyib.
Allahdan almışam mən o qələmi,
Mənə o qələmi bəndə verməyib.

Qələm sındırmağa yaranmamışam,
Hünərin çatırsa, gəl sındır onu.
Əgər bacarırsan, tək bircə axşam,
Yazmaq həvəsindən daşındır onu.

Qələmin dünyası ocaqdı, pirdi,
Qələm sındıranlar şümürdü, bala.
Bu nifrət qəlbinə nə zaman girdi,
İçini nə zaman gəmirdi, bala?

Baxdım bostanıma atılan daşa,
Əl sənin əlindi, daş sənin deyil.
Gülməli səhnədi, qəmli tamaşa,
Ağıl özgənindi, baş sənin deyil.

Sən daş at, mən sənə pambıq ataram,
Yaralı canımı daş ağrıtsa da.
Boş dedi-qodular gəldi-gedərdi,
Könüllər sındırıb, baş ağrıtsa da.

Səni kim bu yola çəkib aparıb,
At getsin, fırlansın daş ona dəysin.
Sonradan başıma qaxınc etdiyin
Əvvəlki sevgin də başına dəysin.

Haqqın qəzəbinə gələrsən, bala,
Bu qələm "Saz" yazıb, "Ələsgər" yazıb.
Ərənlər sözüylə çatıb vüsala,
Hər ulu kişiyə bir əsər yazıb.

Hər sevgi, hər barış bir yeni dastan,
Nifrət qəzəblərə, nifrət kinlərə.
Bu qələm dərs alıb Dərviş Yunusdan,
Bu qələm yas tutub "Didərginlər"ə.

Ey qələm sındırmaq istəyən naşı,
Allahın danışan dilidir qələm.
Şairin əlində od parçasıdı,
Cahilin əlində ölüdür qələm.

Fərhad külüngüdü Şirin yolunda,
Hasardı, qaladı şərin yolunda,
Can verib ocağın, pirin yolunda,
Ulu ustadların yoludur qələm.

Göydə bir mələkdi, yerdə pəridi,
Yanan üfüqlərin parlaq zəridi,
Coşanda Koroğlu dəliləridi,
Sevəndə Məcnuntək dəlidir qələm.

Dərvişdi, ozandı, eldi, aşıqdı,
Yaradan əllərə bir yaraşıqdı,
Harda qaranlıq var, orda işıqdı,
İnsanın xilaskar əlidir qələm.

ÜRƏK

Duyğusuz, düşüncəsiz
sinəyə yükdü ürək,
Sevəndə, seviləndə
dağdan böyükdü ürək.

YARDIMA ÇAĞIRDIM

O, qələm yiyəsi,
o, söz sahibi,
O, qoşma Tanrısı,
qəzəl Allahı,
Gördüm tək olanda
tükənir gücüm,
Yardıma çağırdım
gözəl Allahı.

GÖZÜMÜ QORXUTMA

Qorxutma gözümü, gözə çöp düşər,
Çöp düşən gözlərdə yollar çəp düşər.
Qarşına Tanrının mələyi çıxmaz,
Qismətə ya ilan, ya əqrəb düşər.

HƏMİŞƏ HƏYATDAYAM

Ey əsli olmayan kəs,
duya bilməzsən məni,
Soyda, kökdə, özüldə,
əsildəyəm, zatdayam.

Məndə məni görməyə
səndə bir mənlik gərək,
Oğulsan çıx yanıma,
gör mən hansı qatdayam.

Keçmişdə köküm yaşar,
gələcəkdə budağım,
Hər ötən saniyədə,
hər gələn saatdayam.

Məni insan yaradan
Allahıma min şükür,
"Quran"a, "İncil"ə bax,
"Zəbur"da, "Tövrat"dayam.

Sürünənlə uçanın
yer, göy qədər fərqi var,
Məni ayaqda gəzmə,
mən qolda-qanaddayam.

Adəmdən, Nuhdan bəri
yolçusuyam yolların,
Şər özünü yormasın,
Haqqa çataçatdayam.

Səhraların qumuyam,
dəryaların damlası,
Yerdə mənəm, göydə mən,
sonsuz Kainatdayam.

Gün kimi doğulanlar
qarışır şəfəqlərə,
Rəngimi solğun görüb
sanma batabatdayam.

Canım qara torpağın,
nəfəsim göylərindi,
Qəbirdə yatsam belə,
həmişə həyatdayam.

2003, 2 yanvar

QARA DAŞI GÖYƏRDƏRƏM

Qoca bağban, çağır məni,
Kotan eylə şum yerinə.
Ələ, keçir ələyindən,
Daş yerinə, qum yerinə.

Ərişinə arğac olum,
Yaylağına yamac olum,
Bar gətirən ağac olum,
Səpələnim tum yerinə.

Yağış – Əsli, torpaq – Kərəm,
Çiçəklənsin dağım-dərəm.
Qara daşı göyərdərəm,
Səp məni toxum yerinə.

2003, 19 yanvar

GƏNC ŞAİRİN GƏLİŞİ

Bu gəlişdə gəncliyimi görürdüm,
Nura dönüb, ziyalanıb gəlirdi.
Su içmişdi palıdların kökündən,
Seldən-sudan mayalanıb gəlirdi.

Xatırladım əvvəlimi, ilimi,
Dili mənim danışdığım dil kimi.
Arzuları açılırdı gül kimi,
Çiçək kimi həyalanıb gəlirdi.

Qara saçı küləklərdən daraqlı,
Qaynar qəlbi həqiqətdən çıraqlı.
Kökü yerdə, səsi göydən soraqlı,
Zirvələnib, qayalanıb gəlirdi.

Sinə gərib qar-borana, dumana,
Güvənirdi köksündəki imana.
Damla idi, çevrilmişdi ümmana,
Zərrə idi, dünyalanıb gəlirdi.

Yandırdığı Səməndərin tüküydü,
Götürdüyü ozanların yüküydü.
Ruhu Dədə, kökü Qorqud köküydü,
Qədəmləri ziyalanıb gəlirdi.

2003, 7 fevral

TƏBİƏTİN MUĞAMATI

Dağlara qovuşub daşlar oxuyur,
Daşlara qoşulub quşlar oxuyur.
Arıyla qol-boyun çiçək oxuyur,
Buludla baş-başa şimşək oxuyur.
Gövdələr oxuyur budaq dilində,
Dalğalar zəngulə, təpələr nənni,
Çeşmələr xanəndə, çaylar müğənni,
Bulaqlar oxuyur "Segah" dilində,
Təbiət oxuyur Allah dilində.
Düz-dünya dil açıb, yer-göy oxuyur,
Mənim ürəyimdə coşan, çağlayan,
Görünən yerlərin rəngi, cilvəsi,
Görünməz göylərin yeddi qatıdı.
Bu da təbiətin səs xəzinəsi,
Bu da təbiətin muğamatıdı.

2003, 13 mart

SÖZ

Bütün gecə axtarmışam,
Axşam itirdiyim sözü.
İlham adlı bir ağacdan,
Bar kimi dərdiyim sözü.

Mənzilə çatmaq istədim,
Bəxti oyatmaq istədim,
Ox kimi atmaq istədim,
Yay kimi gəzdiyim sözü.

Dərd yükümü ağırladı,
Dəftər-qələm fağırladı,
Qəlbimdən kim oğurladı,
Qəlbinə girdiyim sözü?

2003, 1 aprel

ƏRKÖYÜN ÖVLADLAR

Dünya dövr eyləyir
zaman içində,
Yer göyə bağlıdır,
göy yerə bağlı.
Dünyada nə varsa
bir can içində,
Hamısı eşq adlı
mehvərə bağlı.

Göylərin rəngi var
güldə, çiçəkdə,
Biri ağ, biri göy,
biri sarıdı.
Yağış da, dolu da,
qar da, külək də
Buludun ərköyün
övladlarıdı.

2003, 15 may

YAŞILLANIM YARPAQ-YARPAQ

Yaradanım, yardım eylə,
Yaratdığın yarım olsun.
Çiçəyinə üzüm dəysin,
Budağında barım olsun.

Yarlı günə varlıq deyim,
Yarsız günə darlıq deyim.
Darlığa məzarlıq deyim,
Dönsün qışım, qarım olsun.

Tanrım, mənə sağ gözlə bax,
Yaşıllanım yarpaq-yarpaq.
Qədəmlərim dəyən torpaq,
Öləndə məzarım olsun.

2003, 16 noyabr

DAĞ DURUŞU

Duruşu, təmkini öz yerindədir,
Dağlar min illərdi ləngər saxlayır.
Qartalı zirvədə keşikçi qoyub,
Dərin dərələrdə səngər saxlayır.

Qalxan qasırğalar, qopan tufanlar,
Daşından qamqalaq qopara bilmir.
Yüz dərənin suyu bir yerə gəlsə,
Bircə qayasını apara bilmir.

Dağdan dağ olmağı öyrənmək gərək,
Sağlam yaddaşı ver, sağlam huşu ver.
İlahi, mənə də dağ qətiyyəti,
İlahi, mənə də dağ duruşu ver.

2003, 16 noyabr

SEYRƏ ÇIXIB XAN QIZI

Bağça cənnət bağçası,
Gülə bax, gülnən gəzir.
Seyrə çıxıb Xan qızı,
Qırx incəbelnən gəzir.

Dil-dodağı qənd olub,
Zülfləri kəmənd olub.
Kəmər belə bənd olub,
Yaylığı yelnən gəzir.

Çeşməsi çaya bağlı,
Eşqi dəryaya bağlı.
Ömür saraya bağlı,
Şöhrəti elnən gəzir.

Gözəl gülüm-çiçəyim,
Gözəllikdi gərəyim.
Üzülübdü ürəyim,
Bir incə telnən gəzir.

2003, 17 noyabr

RUHUMA YAD HEÇ NƏ YOXDU

Duman bir iş görə bilmir,
Mən görürəm ulduzumu,
Dumanlar, sislər içində.
Ruhuma yad heç nə yoxdu,
Yaşayıram ən işıqlı,
Ən doğma kəslər içində.
Yamanlıq bata bilmədi,
Yaxşılara könül verdim,
Yamanlar, pislər içində.
Az qalıb dan sökülməyə,
Gecə bir şair doğacaq,
Müqəddəs hisslər içində.

2003, 20 noyabr

HARA QAÇACAQSAN?

Yağlı əppək olub göyə çəkilsən,
Mən səni axtarıb göydə tapardım.
Rəng olub çəməndə hopsan güllərə,
Rəngini yaşılda, göydə tapardım.

Zəvvarın olardım, dərgaha dönsən,
Günəşin olardım, sabaha dönsən,
Könüllər yandıran bir aha dönsən,
Ahını kamanda, neydə tapardım.

Həsrətin atını çox sürsən də sən,
Bu dağdan o dağa yüyürsən də sən,
Gözümə iy salıb əyirsən də sən,
Səni gözümdəki iydə tapardım.

Yaxşı ki, arzumun barını dərdim,
Başımdan sovuşub çəkildi dərdim,
"Quran" açdırardım, kitab tökərdim,
Mən səni "əlif"də, "bey"də tapardım.

2004, 18 fevral
Kislovodsk

GÜNƏŞİN DOĞMASI

Qorxmuram gecənin qaranlığından,
Bir azdan dünyanın rəngi dəyişib,
Meydana səhərim, danım çıxacaq.
Göylərin taxtına Günəş adında,
Bir nazlı-qəmzəli xanım çıxacaq.
Elə nazlanacaq şair görəndə,
Nazından üzülüb canım çıxacaq.

2004, 7 mart

ÇƏMƏN OLSAN, ÇİÇƏYİNİ DƏRƏRDİM

Üz-gözündən Tanrı nuru tökülür,
Durulanıb bulaqdanmı gəlmisən?
Duyğuların qanadına çevrilib,
Nəğmə olub dodaqdanmı gəlmisən?

Bir ovçuyam, qismətimə ov gəlib,
Od yanına çaxmaq gəlib, qov gəlib,
Tufanlara, sınaqlara dov gəlib,
Sevgi adlı sınaqdanmı gəlmisən?

Çəmən olsan, çiçəyini dərərdim,
Çiçək olsan, yaylıq üstə sərərdim,
Bəndə olsan, səni çoxdan görərdim,
Mələk olub uzaqdanmı gəlmisən?

2004, 20 aprel

AĞACA ÇİÇƏK VER, ÇİÇƏYƏ BAR VER

Bulağı gözündən eyləmə, Tanrım,
Gözü qurudusa, kor deyəcəklər.
Ocağı közündən eyləmə, Tanrım,
İşığı söndüsə, qor deyəcəklər.

Duyğusuz, təpərsiz eyləmə, Allah,
Təpərsiz ürəyə boş deyəcəklər.
Sinənin altında qanadlanmasa,
Adına ürək yox, daş deyəcəklər.

Heç kəs qurumasın kökünün üstə,
Ağaca çiçək ver, çiçəyə bar ver.
Ürək yaşamaqda, könül həvəsdə,
Hər ömrə əbədi bir yadigar ver.

2004, 25 iyul
Truskavets

İLK ANDIMIZ,
SON ANDIMIZ TURANDI

Təntiməyin, tələsməyin, çaşmayın,
Yerli-yersiz həddinizi aşmayın,
Qazan gəlib qaynamamış daşmayın,
Yoldaşımız səbir, dözüm olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Vaxt Təbrizin, dünya Ərkin dünyası,
Yol Tanrının, haqqı dərkin dünyası,
Əvvəl-axır dünya Türkün dünyası,
Üç gün, beş gün gecim-tezim olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Şəhid verin, qurban verin, can verin,
Cansızlara şah damardan qan verin,
Gəmi kimi sahillərə yan verin,
Müjdəçilər düzüm-düzüm olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Düşmən məni düz düşünməz, çaş anlar,
Haqq sözümü qaya duyar, daş anlar.
Qayıdacaq Çin səddini aşanlar,
Tarixlərə təzə sözüm olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Keçidlərdə ocağımız səngidi,
Yoxuşlarda nəfəsimiz təngidi,
Tarix bir az haqq sözündə ləngidi,
Həqiqətlər çözüm-çözüm olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Yeni düzən, yeni mizan qurandı,
İlk andımız, son andımız Turandı,
Soraq verən peyğəmbərdi, Qurandı,
Nə yozulsa xeyrə yozum olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Qovuşacaq bölünənlər, bölgələr,
Nurlanacaq qaranlıqlar, kölgələr,
Diriləcək Oğuzxanlar, Bilgələr.
Türkə səcdə, Türkə təzim olacaq,
Bugün-sabah dünya bizim olacaq.

2004, 6 iyul

BU AĞACIN BAR GƏTİRƏN VAXTIDI

Torpaq diri, toxum sağlam, yer sulu,
Bu ağacın bar gətirən vaxtıdı.
Bağ arzuda, bağban murad üstədi,
Bu ağacın bar gətirən vaxtıdı.

Arıya bax, öpür gülün üzündən,
Çiçəyə bax, sevgi yağır gözündən.
Doymaq olmur nəğməsindən, sözündən,
Bu ağacın bar gətirən vaxtıdı.

Göz oxşayır ləçəklərin xumarı,
İnsan əli budaqların tumarı.
Havalıdı, tutub sevgi damarı,
Bu ağacın bar gətirən vaxtıdı.

Toxumuna, özəyinə dad verib,
Kökünə su, budağına od verib.
Ana torpaq döşlərindən süd verib,
Bu ağacın bar gətirən vaxtıdı.

Hər çiçəyin bar verməyə cəhdi var,
Barı varsa, şirəsi var, şəhdi var.
Bu payızla ilqarı var, əhdi var,
Bu ağacın bar gətirən vaxtıdı.

2004, 19 avqust

DÜNYA BAŞDAN-BAŞA ÇİLÇIRAQ OLDU

Sən gəldin, təbiət nura boyandı,
Ay ocaq yandırdı, il çıraq oldu.
İşıqlar sayrışdı çəmənlər üstə,
Lalə közə döndü, gül çıraq oldu.

Muştuluq paylandı arana, dağa,
Günəşdən torpağa, bağbandan bağa.
Gəldin taleyimə nur yağdırmağa,
Barmaq şama döndü, əl çıraq oldu.

Sevgin qucaqladı yurdu, yuvanı,
Ətrin qucaqladı suyu, havanı.
Çimdi nur içində göyün tavanı,
Dünya başdan-başa çilçıraq oldu.

2004, 17 avqust

TORPAQ ƏTRİ

Öz içimdə torpaq əkib, dən səpirəm,
Duyğuları cücərdirəm pöhrə kimi.
Yağışım gur, Günəşim bol, havam təmiz,
Yetişirəm ən şirin bar-bəhrə kimi.

Çirkinliyin son ucu qaranlıq olur,
Gözəlliyin meyvəsi heyranlıq olur.
Söz var yağdı, söz də var ayranlıq olur,
Gecə-gündüz çalxanıram nehrə kimi.

İçimdəki qaynar çeşmə, axar çaydı,
Nəğməsini hər gün eldən-elə yaydı.
Ürəyimdə torpaq ətri olmasaydı,
Quruyardım qumsal kimi, səhra kimi.

2004, 30 avqust

MƏN ÜRƏYİ ÜRƏK KİMİ SAXLAMADIM

Mən bilmədim sına bilər, yana bilər,
Mən ürəyi ürək kimi saxlamadım.
Nə biləydim buz baxışdan dona bilər,
Mən ürəyi ürək kimi saxlamadım.

Qohum gəldi, qonşu yığdı, yad apardı,
Qəmli gələn qismətini şad apardı.
Odu sönən ürəyimdən od apardı,
Mən ürəyi ürək kimi saxlamadım.

"Xeyrə-şərə, toya-yasa yüyür", – dedim,
Taleyimə "yaralanmış cüyür" dedim.
"Özün qızdır, harda kim üşüyür", – dedim,
Mən ürəyi ürək kimi saxlamadım.

Dərd dağının külüng çalan Fərhadıyam,
Tüstüsüyəm, dumanıyam, fəryadıyam.
Öz qəlbimin qaniçəni, cəlladıyam,
Mən ürəyi ürək kimi saxlamadım.

"Yeri göyə, göyü yerə bağla", – dedim,
"Alış" dedim, "tutuş" dedim, "çağla", – dedim.
"Yas görəndə hönkür-hönkür ağla", – dedim,
Mən ürəyi ürək kimi saxlamadım.

Dövlət yükü, millət yükü, şöhrət yükü,
Bu millətin içindəki zillət yükü,
Bu yüklərin altındakı zəhmət yükü,
Mən ürəyi ürək kimi saxlamadım.

Mən ürəyi çiçək kimi saxlamadım,
Yağ içində böyrək kimi saxlamadım.
Hey əritdim, hey çürütdüm, hey qanatdım,
Saxlamadım, saxlamadım, saxlamadım.

Hönkürəndə dağ döşündən qaya qopdu,
Ağlayanda boş-boşuna ağlamadım.
Mən ürəyi ürək kimi saxlamadım,
Saxlamadım, saxlamadım, saxlamadım.

GƏL ŞƏKLİNİ ÇƏKİM, DÜNYA

Şəkil çəkmək istəyirəm,
Gəl şəklini çəkim, dünya.
Rəssam olmaq təbim gəlib,
Gəl şəklini çəkim, dünya.

Ruhum gəzsin ahəng ilə,
Əlim oynasın rəng ilə,
Çirkin ilə, qəşəng ilə,
Gəl şəklini çəkim, dünya.

Pəncərə sən, baxan mənəm,
Sularında axan mənəm,
Rəngi rəngə yaxan mənəm,
Gəl şəklini çəkim, dünya.

Gözündəki nəmi çəkim,
Qəlbindəki qəmi çəkim,
Tufan çəkim, gəmi çəkim,
Gəl şəklini çəkim, dünya.

Can əriyib, taxta qalıb,
Papağa bax, mıxda qalıb,
Gönə bax, dabbağda qalıb,
Gəl şəklini çəkim, dünya.

Quzğun kimi leş alansan,
Yeki verib şeş alansan,
Beş verib on beş alansan,
Gəl şəklini çəkim, dünya.

Dəhnən ilə, arxın ilə,
Tez-tez dönən çarxın ilə,
Sevgin ilə, qorxun ilə,
Gəl şəklini çəkim, dünya.

Var olansan, yox deyilsən,
Ac olansan, tox deyilsən.
Düzələsi... deyilsən,
Gəl şəklini çəkim, dünya.

İblis-mələk, huri-qılman,
Yarı insan, yarı heyvan,
Gah kafirsən, gah müsəlman,
Gəl şəklini çəkim, dünya.

Bircə bəndə sevirmisən?
Çox saraylar devirmisən,
Məni şəklə çevirmisən,
Gəl şəklini çəkim, dünya.

Namərd, yoxsa mərd göstərim?
Yumşaq, yoxsa sərt göstərim?
Özün boyda dərd göstərim,
Gəl şəklini çəkim, dünya.

Sənlə əkə bilmirəm,
Bir könül tikə bilmirəm.
Dərdini çəkə bilmirəm,
Gəl şəklini çəkim, dünya.

2004, 15 sentyabr

HƏR GÜN SEVƏNLƏRİN QULAĞI SƏSDƏ

Məni duyanlardı məni sevənlər,
Sən məni duyunca yaşaram, gözəl.
Səs səsə qarışıb, göz gözə baxıb,
Söz sözə uyunca yaşaram, gözəl.

Hər gün sevənlərin qulağı səsdə,
Hər görüş bir nəğmə, bir yeni bəstə.
Yumşaq əllərini gözümün üstə,
Məlhəmtək qoyunca yaşaram, gözəl.

Bir Allah, bir sevgi, bir sən, bir də mən,
Qızınnam ocaqda, yannam pirdə mən.
"Doymadım" desəm də, bir ömürdə mən,
Doyunca, doyunca yaşaram, gözəl.

2004, 27 sentyabr

GÖYLƏRƏ VARAN MƏNƏM

Bağ desən, gül açaram,
Dağ desən, aran mənəm.
Gözəllər Fərhadıyam,
Qayalar yaran mənəm.

Eşqi başa tac bilib,
Hər dərdə əlac bilib,
Sevgini merac bilib,
Göylərə varan mənəm.

Yarıb şaxtanı, qarı,
Yıxıb bəndi, hasarı,
Səni Tanrıya sarı,
Alıb aparan mənəm.

2004, 29 sentyabr
Cenevrə

HAQQI DİNLƏMƏK GÖZƏL

Yerdəki çaxnaşmadan,
Göydəki şimşək gözəl.
Dibçəkdə göyərəndən,
Çöldəki çiçək gözəl.

Bağrımız zədən-zədən,
Uçar ruh, köçər bədən.
Min şirin əfsanədən,
Bir acı gerçək gözəl.

Doyduq yalan yeməkdən,
Üzüldük inləməkdən.
İnsanı dinləməkdən,
Haqqı dinləmək gözəl.

2004, 29 sentyabr
Cenevrə

ELƏ BİL CƏNNƏT QUŞUDU

Bu qız mənə tanış gəlir,
Od alıb, şimşək geyinib.
Yandıracaq yeri-göyü,
Alovdan köynək geyinib.

Nə sıx, nə də gen biçilib,
Tül bədənə tən biçilib.
Paltarı güldən biçilib,
Əyninə çiçək geyinib.

Uçan şairin huşudu,
Canı alan duruşudu.
Elə bil cənnət quşudu,
Elə bil mələk geyinib.

2004, 29 sentyabr
Cenevrə

CENEVRƏ DÜŞÜNCƏLƏRİ

Təbiət ruhumda ilahi bir sirr,
Sayrışır gözümdə al, yaşıl, sarı.
İnsanı heç zaman doydura bilmir,
Tanrının ilhamla yaratdıqları.

Nə fırça işidir, nə dəftər, qələm,
Ovcuna düşmüşəm, sehirlənmişəm.
İkinci addımı ata bilmirəm,
Elə bil yerimdə möhürlənmişəm.

Nə varsa hər şeyi yaradıb Allah,
Şair nə yaratsın, rəssam nə çəksin?
Rəssamın gücü var, gözünə yığsın,
Şairin gücü var, qəlbinə çəksin.

Bu geniş dünyada gözəl yer nə çox,
Hər şeyi yoğurub, yapıb Yaradan.
Özünü dünyanın heç yerində yox,
Sanki bu torpaqda tapıb Yaradan.

Tanrımın nə yaxşı vaxtına düşüb,
Nə gözəl yaradıb bu şah əsəri.
Gəlib bu yerlərin baxtına düşüb,
Allahlıq eyləyən Allah əsəri.

Hər bir zərrəsinə zərrəbinlə bax,
Zərrəcə hüsnündə tapılmaz ləkə.
Yerlər gül dənizi, göylər çilçıraq,
Heyrət, ey gözəllik, ey qədim ölkə.

İlhamdı, havadı, nəğmədi, səsdi,
Şeirdi mənim də sərvətim, varım.
Bir şair ömrünə ölüncə bəsdi,
Qəlbimdə Bakıya apardıqlarım.

2004, 30 sentyabr
Cenevrə

GÖZƏLLİK DUYULAN YERDƏ

Çirkin dönüb göyçək olar,
Qanqal dönüb çiçək olar,
İnsan dönüb mələk olar,
Gözəllik duyulan yerdə.

Qış gəlib yaza çevrilər,
Kötüklər saza çevrilər.
Qarılar qıza çevrilər,
Gözəllik duyulan yerdə.

Ümid coşar, həsrət ölər,
Yamanlığa dəvət ölər.
Kin susar, ədavət ölər,
Gözəllik duyulan yerdə.

Könül sevər, göz vurular,
Bulanlıq sular durular.
Dünya saflıqdan qurular,
Gözəllik duyulan yerdə.

Əridərik qəzəbləri,
Unudarıq əzabları,
Qazanarıq savabları,
Gözəllik duyulan yerdə.

Nə suç, nə də tamah olar,
Nə zor, nə də silah olar,
Şair dönüb Allah olar,
Gözəllik duyulan yerdə.

2004, 1 oktyabr
Cenevrə

ÇİÇƏKLİ

Hayana boylanıb, hayana baxsan,
Yer çiçək, göy çiçək, təbiət çiçək.
Çiçəkdən doğular sevən-sevilən,
Qız-oğlan çiçəkdi, məhəbbət çiçək.

İstisi, işığı, odu çiçəkdi,
Tamı, şirinliyi, dadı çiçəkdi,
Burda həqiqətin adı çiçəkdi,
Çiçək həqiqətdi, həqiqət çiçək.

Havası çiçəkdi, suyu çiçəkdi,
Bayramı çiçəkdi, toyu çiçəkdi.
Məst ol, qucağında uyu, çiçəkdi,
Təmizlik çiçəkdi, təravət çiçək.

Yatıram, yuxumda çiçək görürəm,
Qalxıram, duyğumda çiçək görürəm.
Hər tumda, toxumda çiçək görürəm,
Nəzakət çiçəkdi, ləyaqət çiçək.

İlahi sevgi var torpağa, yurda,
Çöllər cilvələnir işıqda, nurda.
Allahın özü də şairdi burda,
Söz bir gülüstandı, şeiriyyət çiçək.

2004, 1 oktyabr
Cenevrə

GÖYLƏRƏ ÇAĞIRIŞ VAR

Yaşıl bir diyardayam,
Qəlbimə qüvvət gəlib.
Çiçəklərdən ruhuma,
Azıb təravət gəlib.

İşıq mənəm, nur mənəm,
Eşqi çaydan gur mənəm.
Dağ kimi məğrur mənəm,
Dizimə taqət gəlib.

Nə yol kəsən yağış var,
Nə qar-boranlı qış var.
Göylərə çağırış var,
Tanrıdan dəvət gəlib.

2004, 3 oktyabr
Cenevrə

XƏBƏRİM YOX ÖZÜMDƏN

Bu rəssam təbiətin rənglər dünyasındayam,
Vurulmuşam torpağın yaşılına, alına.
Öpüş alıb güllərin şeh çilənmiş üzündən,
Dönmüşəm pətəyinə, çevrilmişəm balına.

Düşünən yaradası, yoğuran yapasıdı,
Burda vaxt itirən kəs gözəllik tapasıdı.
Oğlanlar dəstə-dəstə, qızlar gül topasıdı,
Hər çiçəkdən zər qonub yanaqların xalına.

Xəbərim yox özümdən, ruhumdan, yaddaşımdan,
Nə canımdan xəbər var, nə çatılan qaşımdan.
Ağıllılar gülməsin, ağlım çıxıb başımdan,
Gəlin indi siz baxın Zəlimxanın halına!

2004, 4 oktyabr

GÖZƏLLİK DƏLİSİ

Bu an, bu saat, bu gün zaman məndə yerləşir,
Əvvəlin axırıyam, axırın əvvəli, heeey!!!
Allah özü göndərib bu yerləri görməyə,
Başımın üstündədir Yaradanım əli, heeey!!!

Günəş olub doğmuşam, bulud olub yağmışam,
Cahana sığmasam da, gözəlliyə sığmışam.
Gördüklərim nə varsa gözlərimə yığmışam,
Qəlbimə toplamışam sərvəti heeey, ləli, heeey!!!

Gözüm hər addımbaşı gözəlliyə tuş oldu,
Xəyalım əsən külək, fikrim uçan quş oldu,
Burda Zəlimxan adlı bir şair bihuş oldu,
Dəli mənəm! Dəli mən! Dəli mənəm! Dəli, heeey!!!

2004, 6 oktyabr

CAN DEYİR,
CAN EŞİDİR

Ruhumun təbiətlə
yaman tutur söhbəti,
Hara uçub qonursa,
can deyib, can eşidir.
Səsi eşidilməyən
qarışqa səsini də
Ürəkdə tellər duyur,
damarda qan eşidir.

Bu böcək, bu kəpənək,
bu qarışqa, bu arı,
Kövrək duyğularımın
yaxın sirdaşı, yarı.
Gecələr dodağımda
gəzən pıçıltıları
Qaranlıq əzbər bilir,
sökülən dan eşidir.

Azaldır ağrısını
qovğalar çəkən başın,
Təbiətdi məlhəmi
ağlın, huşun, yaddaşın.
Ruhum hopur canına
dağın, qayanın, daşın,
Bir Zəlimxan can deyir,
min Zəlimxan eşidir.

2004, 11 oktyabr

NƏ GÖZƏLDİ YAŞAMAQ

Nə gözəldi yaşamaq,
Yaşadığın dünyada
Nə əlil, nə kimsəsiz,
Nə də bir şikəst ola!

Nə gözəldi yaşamaq,
Nə könül əzab çəkə,
Nə cana bir qəsd ola!

Nə gözəldi yaşamaq,
İnsan şərab içməmiş
Gözəllikdən məst ola!

Nə gözəldi yaşamaq,
Vətənin azad, rahat,
Millətin sərbəst ola!

2004, 20 oktyabr

AŞIQ QƏRİB SAZININ TELİNDƏKİ PAS MƏNƏM

Qəlbimin aynasına daş atanlar olsa da,
Ruhu çeşmədən duru, sözü güldən xas mənəm.
Bulud görsəm ağlaram, yağış görsəm çağlaram,
Hər şeyin divanəsi, hər şeyə həssas mənəm.

Hər talesiz taledə gözlərimin nəmi var,
Dastanlarda ömrümün min sevinci, qəmi var.
Dərdimin dənizində üzən neçə gəmi var,
İçimdəki sulara baş vuran qəvvas mənəm.

Ən nəmli bulud da mən, ən qəmli sükut da mən,
Neyə dönən qamış da, saza dönən tut da mən,
Ürəkləri göynədən ən ağır tabut da mən,
Şəhid analarının qəlbindəki yas mənəm.

Ömrün ağ varağına qara-qara xətt düşür,
Hər kim qərib olursa, payına qürbət düşür.
Sevənlərin bəxtinə həmişə həsrət düşür,
Aşıq Qərib sazının telindəki pas mənəm.

Yaralar sağalmadı, yaramı qan apardı,
İtkilər, iniltilər canımdan can apardı.
Gülgəzimin köçünü Dəli Becan apardı,
Tufanası dağılmış Tufarqan Abbas mənəm.

2004, 20 oktyabr

ŞAİRƏM, SİZ MƏNİ QINAMAZSINIZ

Ey məni duyanlar, məni sevənlər,
Ömrüm bağçasında bahar-yazsınız.
Telləri gümüşdən, üzü sədəfdən,
Siz mənim qəlbimdə dinən sazsınız.

Şeytanın zəhməti hədərdi, hədər,
Dost olan ürəkdən gen düşər kədər.
Sayınız olsa da ulduzlar qədər,
Mənimçün azsınız, yenə azsınız.

İsti yuvamsınız – uçan quş olsam,
Dərmanım sizsiniz – dərdə tuş olsam.
Arada kimisə unutmuş olsam,
Şairəm, siz məni qınamazsınız.

2004, 21 oktyabr

ALLAHDAN GƏLİR

Şeir var xoş sözdən, xoş bir baxışdan,
Şeir var nifrətdən, qəzəbdən doğur.
Şeir var gözlərdən yağan yağışdan,
Ürəyi göynədən əzabdan doğur.

Hər sətrin öz ruhu, öz təbiəti,
Ruhunda çəməni, çölü doğulur.
Şeir var heç zaman çəkmir diqqəti,
Xəstə bətnlərdən ölü doğulur.

Şeir var yolunda şəhid olmuşam,
Varaqlar üstünə tökülüb qanım.
Hər sətir başında ölümə tuşam,
Mənim öz qəbrim var, öz qəbristanım.

Şair dodağından dürr tökülür, dürr,
Vergi nə saraydan, nə şahdan gəlir.
Ölən şeirlərim özümünküdür,
Qalan şeirlərim Allahdan gəlir.

2004, 22 oktyabr

MƏN ÇƏKƏNİ QƏLƏM BİLMƏZ

Sözlər mənim çiçəyimdi,
Balımı sözdən çəkmişəm.
İşığımı, alovumu,
Sözdəki közdən çəkmişəm.

Min dağı, min dərəsi var,
Uçurumu, bərəsi var.
Sözün nə ki şirəsi var,
Baxışdan, gözdən çəkmişəm.

Yarım bilməz, Ləläm bilməz,
İçim bilər, aləm bilməz.
Mən çəkəni qələm bilməz,
Nə çəkdimsə, mən çəkmişəm.

2004, 28 oktyabr

HÜNƏRİ ÇATMAZ

Neçə ağır sınaqdan,
imtahandan çıxmışam,
Dizimi qatlamağa
yaşın hünəri çatmaz.

Töycü töküb, tor qurub,
başlar baş aparsa da,
Başımı aldatmağa
başın hünəri çatmaz.

Yedirsələr də mənə
"zəhərlə bişmiş aş"dan,
Ruhumu öldürməyə
aşın hünəri çatmaz.

Sevgi zirvələrindən
sinəmin sipəri var,
Qəlbimi sındırmağa
daşın hünəri çatmaz.

2004, 31 oktyabr

GƏLMİŞƏM

Bu dünyada bişmək üçün
dünyaya xamdan gəlmişəm,
Sevgi adlı bir butayam,
eşq adlı camdan gəlmişəm.

Yarım atam, yarım anam,
bütövləşib bir can olub,
Mən yarımçıq olmamışam,
bütövdən, tamdan gəlmişəm.

Haqqa doğru gedənlərdi
uzaq yolun yolçuları,
Mövlananın səcdəsinə
Şəms olub, Şamdan gəlmişəm.

Məni belə güclü edən
güvəndiyim "Ənəlhəqq"di,
Həqiqətlər vurğunuyam,
Haqqa inamdan gəlmişəm.

2004, 4 noyabr

YA RƏBBİM, ÜRƏKDƏ NƏLƏR VAR İMİŞ?

Verilən dərmandı, inləyən mənəm,
Danışan həkimdi, dinləyən mənəm.
Həsrətdən saralmış varaqlar kimi,
Dərdi üst-üstünə çinləyən mənəm.
Canımdan tökülən ağrılarımı
Dən kimi yığşıran, dənləyən mənəm.
Özümdən xəbərim yox imiş mənim,
Min qəlbə sığmayan kədər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Məni qaya kimi yıxanda gördüm,
Qəlbimin içinə baxanda gördüm,
Ağrı var, azar var, haray var, ün var,
Qubarı qat-qatdı, qabarı çat-çat,
Hər qara nöqtədə bir dağ-düyün var.
Ömür kitabında baş-başa verən,
Neçə yaslı gecə, yaralı gün var.
Ulduz parıldamaz, Ay dada gəlməz,
"Günəşi tutulmuş səhər" var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Səsi boğazında quruyub qalan,
Yuvası dağılmış quşlar ordadı.
Gözümdən tökülən mində biriymiş,
İçimə süzülən yaşlar ordadı.
İçimi görürmüş məndən xəbərsiz,
Üstümə atılan daşlar ordadı.
Qələmlə vurulan səssiz güllələr,
Söz ilə kəsilən başlar ordadı.

Alnıma yazılan qədər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Əsir götürdülər filankəsləri,
Filankəs tapılmır, itdi, bəd xəbər.
Laçın xəyanətə qurban verildi,
Şuşa əlimizdən getdi, bəd xəbər.
Qarabağ neçə yol kömək istədi,
Fürsət yanımızdan ötdü, bəd xəbər.
Qohumdan, qardaşdan, eldən, cəbhədən
Nə qədər bəd gələn xəbər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Şair ürəyinin evini yıxan
Qapısı bağlanmış evdi, eşikdi.
Düşmən çəkməsinin dabanlarında
Körpəsi çığnanmış səssiz beşikdi.
Səngəri alınmış, əsgəri ölmüş,
Qanlı köynək kimi dəlik-deşikdi.
Təpənin əlində dağ aciz qalıb,
Boğulan pələngdi, boğan pişikdi.
Hər köntöy baxışdan, hər acı sözdən
Damara işləyən zəhər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Kağız mürəkkəbi götürən kimi,
Ürək də harda var nəmi çəkirmiş.
Bir nəslin, tayfanın, insanın deyil,
Dünyanın çəkdiyi qəmi çəkirmiş.
Savabın, günahın tərəzisində
Kimi çəkdirirmiş, kimi çəkirmiş.
İnsanın canında od tutub yanan
Cəhənnəm var imiş, məhşər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Bir az vaxtdan çəkdim, bir az zamandan,
Bir az dağdan çəkdim, bir az dumandan.
Açığı bir az da özümdən oldu,
Qəlbimə dalbadal dəyən zərbələr,
Hər yasda ağlayan gözümdən oldu.
Susmaq içərimi yıxdı, yömürdü,
Əzabım səbirdən, dözümdən oldu.
Üzünü gor görsün küt ağrıların,
Ürəkdə nə qədər dərd var, azar var,
Mənim ucbatımdan, üzümdən oldu.
Bu qoca dövranın, kaftar dünyanın,
Aşının altında zəhər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Dolu düşüncələr, dəli duyğular
Qalxıb qabaranda yük ona düşdü.
Havalı dalğalar, sərt qasırğalar
Tufan qoparanda, yük ona düşdü.
Minillik palıdı güclü bir tufan
Çəkib aparanda, yük ona düşdü.
Qəfil bir zəlzələ min-min insanın
Bağrını yaranda, yük ona düşdü.
Min bir damar keçir bir parça ətdən,
O, qaça bilərmi bu cəmiyyətdən?
Onun hər telində, hər zərrəsində
Hər şeyə ilahi diqqət var imiş,
Hər şeyə ilahi nəzər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?

Mənasız suallar, cavablar üçün,
Ürəyə verdiyim əzablar üçün
Məni, yaratdığın dinə bağışla,
Qədir gecəsinə, Kəbə daşına,
Qiblə bildiyimiz yönə bağışla.

Müqəddəs Quranın göydən endiyi,
Bizə bağışlanan günə bağışla.
Xırda günahları özüm çəkərəm,
Böyüksən, adilsən, mərhəmətlisən,
Böyük günahları mənə bağışla.
Mən hardan biləydim mənim içimdə
Bu qədər yıxılmış xarabalıqlar,
Bu qədər dağılmış şəhər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş?
Ya Rəbbim, ürəkdə nələr var imiş?!

2004, 5 noyabr

BƏSLƏNİR

Söz ürəkdə, fikir başda,
sevgi canda bəslənir,
Həyatımız şah damardan
axan qanda bəslənir.

Kök budağın, budaq kökün,
yarpaq mehin heyranı,
Tum budaqda, quş yuvada,
arı şanda bəslənir.

Axıb keçir ömrümüzdən
saniyələr, saatlar,
An zamanın övladıdır,
zaman anda bəslənir.

Tək olanda küləklərə,
tufanlara yem olur,
Yer üzündə açan güllər
gülüstanda bəslənir.

2004, 12 noyabr

PİR KİMİ BAXDIM

Gözəl üzlər, gül çöhrələr
gözəlləşdirdi dünyanı,
Alov saçan ürəklərə
odlu təndir kimi baxdım.

Yerində deyilən sözlər
şərəfim, şöhrətim oldu,
Yerinə düşməyən sözə
ağır təhqir kimi baxdım.

Tanrıdan aldığım nuru
bol-bol insana payladım,
Hər kim ağsaqqal oldusa,
mən ona pir kimi baxdım.

Çox-çox arzulayan oldu,
az-az insanlara çatdı,
Ağsaqqala möcüzətək,
müqəddəs pir kimi baxdım.

Özü Haqdan, sözü Haqdan,
ilhamı Haqdan gələnə,
Sözdə Səməd Vurğun kimi,
sazda Şəmşir kimi baxdım.

Sevgi doldu ürəyimə
tək olan Allahım kimi,
Birliyinə baş endirdim,
birinə pir kimi baxdım.

Sazın-sözün meydanında
Zəlimxan heç qısılmadı,
Mən ona harda baxdımsa,
şir oğlu şir kimi baxdım.

2004, 14 noyabr

YAXINLIQ

Qəlbimin, ruhumun aynasındasan,
Bağrımın başıtək yaxınsan mənə.
Nur səndə, qaş səndə, üzük məndədi,
Üzüyün qaşıtək yaxınsan mənə.

Ömrün ağrısı mən, acısı sənsən,
Dərdin qardaşı mən, bacısı sənsən.
Gözümdən tökülən acı su sənsən,
Gözümün yaşıtək yaxınsan mənə.

Sevgimsən, yaşayır hər bəla səndə,
Ər dözüm məndədi, kür bəla səndə.
Baş məndə, başkəsən Kərbəla səndə,
Başımın daşıtək yaxınsan mənə.

2004, 21 noyabr

MƏN HARDAN BİLƏRDİM ŞAİRLİK NƏDİR?

Keçilməz dərələr keçilməsəydi,
Aşılmaz zirvələr aşılmasaydı,
Yeldən qanad alıb, seldən güc alıb,
Ruhum küləklərə qoşulmasaydı,
Mən hardan bilərdim şairlik nədir?

Torpaqdan, toxumdan, dəndən gəlməsəm,
Qurandan, kitabdan, dindən gəlməsəm,
Dərdi çoxalanda yerdəkilərin,
Göylərə saldığı ündən gəlməsəm,
Mən hardan bilərdim şairlik nədir?

Minadan enməsəm, Turdan gəlməsəm,
Allahın verdiyi nurdan gəlməsəm,
Sinəmi saz edib, əlimi mizrab,
Qopuzdan, Qorquddan, qordan gəlməsəm,
Mən hardan bilərdim şairlik nədir?

Gedir qismətinə, bəxtinə sarı,
Yorulmur qarışqa, dincəlmir arı.
Qəlbimi riqqətə gətirməsəydi,
Ana təbiətin yaratdıqları,
Mən hardan bilərdim şairlik nədir?

Fələklər sirdaşı, mələklər yarı,
Hər misra şairin sərvəti, varı.
Qulaq eşitməsə, könül duymasa,
Göylərdən süzülən pıçıltıları,
Mən hardan bilərdim şairlik nədir?

2005, 21 yanvar

ALLAHDAN QORXMASAYDIM

Günəşin doğan çağı
qarşıma mələk çıxıb,
Nə mübarək səhərdi,
nə gözəl sabahdı bu.
Hardan bildi bu yerdən
şair gəlib keçəcək,
Bəlkə xəbər verən var,
sirrimdən agahdı bu?

O yetən kamilliyə
heç bir gözəl yetişməz,
Bahadı, dəyərinə
qiymətdə ləl yetişməz,
Dindirsən dilə gəlməz,
uzatsan əl yetişməz,
Nə uca taxt sahibi,
nə ulu dərgahdı bu.

Xoşbəxtlik kimə bütöv,
kimə kəm-kəsir düşür,
Bu ilahi gözəllik
bəxtə mində bir düşür.
Qızların baxışına
oğullar əsir düşür,
Burda əsir olmamaq –
ən böyük günahdı bu.

Nələr gördü gözümüz
bu dünyada, eh... nələr,
Gözəllik sərgisində
çox dəyişib səhnələr.
Qızlar qarıya dönüb,
dəbdən düşüb köhnələr,
Təzə çıxıb taxtına,
təzə padişahdı bu.

Zirvə Tanrı yanında,
kim çatmaya, kim çata,
Odur hərəkət verən
bu boyda Kainata.
Şair gözündə od var,
gözəl gözündə xata,
Allahdan qorxmasaydım,
deyərdim Allahdı bu.

2005, 27 yanvar

MƏN SÖZÜN ANASI

Tanrının sözünə dirsəklənmişəm,
Söz yaşıl yamacım, söz talam mənim.
Yeddidən yetmişə rəngi gözümdə,
Söz gülüm, gülşənim, söz lalam mənim.

Dilimdə ilk kəlmə dinəndən bəri
Söz oldu ömrümün sərvəti, zəri.
Mənəm sərkərdəsi, mənəm əsgəri,
Söz daşım, divarım, söz qalam mənim.

Yoğurdum, başımda ağıl eylədim,
Dastana çevirdim, nağıl eylədim,
Böyütdüm, bəslədim, oğul eylədim,
Söz nəvəm, nəticəm, söz balam mənim.

2005, 28 yanvar

MƏN ZAMANI ZAMANINDA YAŞADIM

Mənim ömrüm təbiətin ömrüdü,
Damlasında, ümmanında yaşadım.
Zirvələrin çiskinində, çənində,
Yağışında, dumanında yaşadım.

Sular kimi hey töküldüm çarxa mən,
Boş gəlmədim otuza mən, qırxa mən.
Əlli yaşda oldum elə arxa mən,
Ümidində, gümanında yaşadım.

Dərd ürəkdə, əsrin yükü çiyində,
Ağrı başda, qasırğalar beyində.
Aha döndüm ürəklərin heyində,
Kədər oldum, kamanında yaşadım.

Ürəyində buz yaşamaq – faciə,
Yarasında duz yaşamaq – faciə.
Çox yaşamaq, az yaşamaq – faciə,
Mən zamanı zamanında yaşadım.

2005, 10 fevral

ÇÖLLƏR BƏXTƏVƏR OLUB

Yarımçıq nə verirsə,
Allah verməsin mənə,
Verdiyi hər nə varsa,
versin könül dolusu.
Çiçəyin ətri basıb,
çöllər bəxtəvər olub,
Şehə bax, dodaqlanıb,
sayrışır gül dolusu.

Duruluq nəğməsini
damarda qan oxuyur,
Yerlə göy bir-birinə
can deyib, can oxuyur.
Gözəllik yerə sığmır,
göyə meydan oxuyur,
Zirvələr qar dolusu,
ətəklər tül dolusu.

Dünyanın qaydasıdı
lap elə dib-dəhnədən,
Təzə dünya doğulur
hər qədimdən, köhnədən.
Heç kəsin qismətini,
Tanrım, kəsmə təhnədən,
Qoy olsun təhnə çörək,
zəmi sünbül dolusu.

2005, 13 fevral

KÖNLÜM

Öz ağrını özün çək,
Demə hər yerdə, könlüm.
Açma dərdin üzünü,
Yırtılar pərdə, könlüm.

Hey içini yeyirdin,
"Dözəmmirəm" deyirdin,
Xeyir danış, xeyir din,
Xeyirdə-şərdə, könlüm.

Bil, anın qiymətini,
Bil, canın qiymətini,
Dünyanın qiymətini,
Axtarma zərdə, könlüm.

Bişirəcək aşını,
Tovlayacaq başını,
At bu nərdin daşını,
Kərəm yox zərdə, könlüm.

Arzuların canı var,
Canın qaynar qanı var,
Min dərdin dərmanı var,
Bir damla tərdə, könlüm.

Özünlə çək davanı,
Özünlə qur yuvanı,
Özün çal öz havanı,
Bu sim, bu pərdə, könlüm.

Ağla gözün dolunca,
Saralınca, solunca.
Namərdə xan olunca,
Qul ol bir mərdə, könlüm.

2005, 15 fevral

AXDI VARAQLARA SÖZ SƏTİR-SƏTİR

Ulduz gecələrin ümidgahıdı,
Günəş gündüzlərin güman yeridi.
Ağappaq zirvələr bulud oylağı,
Qaranlıq dərələr duman yeridi.

Dindikcə kamanlar, ötdükcə neylər,
Eşqini yer mənə, göy mənə söylər.
Bu qara torpaqlar, bu mavi göylər,
Dilimin and yeri, aman yeridi.

Axsın varaqlara söz sətir-sətir,
Ömrümə tükənməz bir sərvət gəlir.
Ey ilham pərisi, özünü yetir,
Gəlməsən, şairin yaman yeridi.

2005, 23 fevral

QANAD BAĞIŞLADI KÜLƏKLƏR MƏNƏ

Mələk dodağında səslər eşitdim,
Ruhuma hopdurdum o səsləri mən.
Qəlbimə köçürdüm, qanıma yığdım,
Bürün sevgiləri, həvəsləri mən.

Şeyximin yolunda olmadım naşı,
Tökdüm Yunus kimi gözümdən yaşı.
Vaxtında tanıdım Hacı Bəktaşı,
Sevdim o sevdiyi nəfəsləri mən.

Qanad bağışladı küləklər mənə,
Güc verdi tanrılar, fələklər mənə.
"Dağıt!" deməsəydi mələklər mənə,
Dağıda bilməzdim qəfəsləri mən.

2005, 25 fevral

O ŞEİR MƏNİM DEYİL

Gəl bir şeir oxuyum,
Çeşməyə gəl, çaya gəl.
Doğul, yenidən doğul,
Təzədən dünyaya gəl.

Gəl bir şeir oxuyum,
Ruhu cana qaytarım.
Gəl səni doğulduğun,
O ilk ana qaytarım.

Gəl bir şeir oxuyum,
Çeşmələrdən saf olsun.
Durulsun baxışların,
Sulardan şəffaf olsun.

Gəl bir şeir oxuyum,
Ömrün bir az uzansın.
Boş şeydi cib qazancı,
Qazanır, ruh qazansın.

Haqqın nurundan qopub,
Can içində canındı.
Mənim deyil o şeir,
Məni yaradanındı.

2005, 3 mart

ŞEİRİMİZ

Zaman-zaman ömrə ömür caladı,
Şeh nurundan saflıq əmən şeirimiz.
Təbiəti bizə daş-daş tanıtdı,
Qızıl tala, yaşıl çəmən şeirimiz.

Əslimizin, soyumuzun dilidi,
Yasımızın, toyumuzun dilidi,
Otumuzun, suyumuzun dilidi,
Odda yanan, suda çimən şeirimiz.

Könülləri otaq-otaq gəzəndi,
Dərdimizi bir baxışdan sezəndi,
Bayram günü gəlin kimi bəzəndi,
Dava günü kəfən geydi şeirimiz.

İtən yurdum, batan kəndim ağlayır,
Hecam, beytim, misram, bəndim ağlayır.
Gah Təbrizim, gah Dərbəndim ağlayır,
Yaralıdı bizim Vətən şeirimiz.

Yük daşıdı, yük apardı, yük atdı,
Öz ruhunu meydanlara tək atdı.
Qayaların ciyərinə kök atdı,
Palıd kimi dağda bitən şeirimiz.

Danılmazdı, həqiqətdi, doğrudu,
Nəsimidə bir üsyandı, ağrıdı.
Füzulinin köz-köz olan bağrıdı,
Vaqifdəki o gülbədən şeirimiz.

Təmiz südü, halal kökü, saf andı,
Təriqətdi, şəriətdi, ürfandı.
Sabir adlı zəlzələdi, tufandı,
Qara bağrı zədən-zədən şeirimiz.

Cavabıdı hər sualın-sorğunun,
Ahəngidi bu nizamın, qurğunun.
Göz yaşıdı Şəhriyarın, Vurğunun,
Öz dərdini dil-dil ötən şeirimiz.

Vaxtdan-vaxta, andan-ana doğrudur,
Candan ruha, ruhdan cana doğrudur.
Yaranmışdan Yaradana doğrudur,
Səs-sorağı Haqqa yetən şerimiz.

2005, 6 mart

MƏLƏKLƏR BELƏ YAŞAYIR

Bir qızılgül bağçasıdı,
Ömrü gül kimi yaşadı.
İpək kimi incələndi,
Ömrü gül kimi yaşadı.

Zili vardı, pəsi vardı,
Qəlbə yatan səsi vardı.
Həzin bir nəğməsi vardı,
Sazda tel kimi yaşadı.

Baxış doğma, nəfəs tərdi,
Dodaq büllur, yanaq zərdi.
Baxsan dibi görünərdi,
Duru göl kimi yaşadı.

Çiçəklər belə yaşayır,
Diləklər belə yaşayır.
Mələklər belə yaşayır,
Haqqa yol kimi yaşadı.

2005, 7 mart

OZAN OLDUM, BOYLARINI BOYLADIM

Göz nurlanır, qəlb açılır, üz gülür,
Belə yerdə üzüm gülməz olurmu?
Gəlməsəydin, həsrətindən ölərdim,
Həsrət varsa, insan ölməz olurmu?

Ozan oldum, boylarını boyladım,
Yeri-göyü ziyarətə hayladım.
Sevincimi insanlara payladım,
Sevgisini insan bölməz olurmu?

Qurban olum səni sayan dünyaya,
İşığını ərzə yayan dünyaya.
Bir də gəlləm sən yaşayan dünyaya,
Sən varsansa, gedər-gəlməz olurmu?

2005, 19 mart
Hacı Bəktaş dərgahında,
Türkiyə

ARZU, TƏVƏQQE

Ulu Tanrım, bu da bir
arzudu, təvəqqedi,
Xoş günü, dəqiqəni,
xoş saatı ver mənə.
Qat-qat olan içim var,
bir qata sığışmıram,
Taxtını göydə quran
yeddi qatı ver mənə.

Yığılan söz yığını
yüz olsa qalaq-qalaq.
Nə kamildi, nə bütöv,
nə peyvənddi, nə calaq.
Gözləri, könülləri
intizardan qurtaraq,
Dörd misra könül açan
bir bayatı ver mənə.

Taledən üzümüzə
bağlananda qapılar,
Nə səni soraqlayan,
nə axtaran tapılar.
Çıxanda qismətimə
axsaq, arıq yabılar,
Arzum, muradım kimi
köhlən atı ver mənə.

Yansın can, qaynasın qan,
gülsün göz, coşsun ürək,
Dərdi dağıtsın hava,
qəmi dağıtsın külək.

Yüz il mənasız ömür
kimin nəyinə gərək? –
Bir gün mənalı keçən
xoş həyatı ver mənə.

Ömrü, günü, həyatı
şirin eylə, qənd eylə,
Könlümü gözəlliyə
güzgü, aynabənd eylə.
Nə mahal, nə məhəllə
nə şəhər, nə kənd eylə,
Yeri, göyü, varlığı,
Kainatı ver mənə.

2005, 20 mart
İsveç

ŞAİR SÖZÜ

Şair dodağından çıxan sözə bax,
Elə bil od olub qanından çıxır.
Kəsəri Tanrıdan, ovxarı Haqdan,
Qılıncdı, sıyrılıb qınından çıxır.

Fikrində dumanlar, başında çənlər,
Gözündə şimşəklər, saçında dənlər.
Ağrıdı, əzabdı şair deyənlər,
Dərd olub, ah olub canından çıxır.

Tanrıdı hər işə, hər sirrə agah,
Təzə bir ümiddi hər gələn sabah.
Heç yerdə şairi tək qoymur Allah,
Harda dara düşsə, yanından çıxır.

2005, 20 iyun

ŞAİR ARZUSU

Hamı işığını keçirib yatır,
Yuxunu canına köçürüb yatır.
Kimi təzə tapıb xoşbəxtliyini,
Kimi bəxt quşunu uçurub, yatır.

Kasıb yorğanına qor dolub, yatır,
Üşüyən canına qar dolub, yatır.
Kimi sevincindən yatağa sığmır,
Kiminin qazancı dərd olub, yatır.

Başının üstündən gecə qalxacaq,
Cavan oyanacaq, qoca qalxacaq.
Xoşbəxtlər quş kimi qanad açacaq,
İlahi, bədbəxtlər necə qalxacaq?

Acı yuxuları bal eylə, Allah,
İnsan sevgisini bol eylə, Allah.
Hamı xoşbəxtliyə yollar axtarır,
Hamıya, hamıya yol eylə, Allah.

"Muştuluq!" deyənin nəmərini ver,
Sevincin, şadlığın xəbərini ver.
Hamının gecəsi gecədə qalsın,
Hamının işıqlı səhərini ver.

2005, 18 iyul
Kislovodsk

GƏLƏCƏK

Oğul oğuldursa, uzaqda durmaz,
Düşəndə yadına layla, gələcək.
Ana, əsirgəmə muştuluğunu,
Hamıya muştuluq payla, gələcək.

Oxun nişan gəzir, sən yayını tap,
Xoşbəxtlik hardadı, sarayını tap.
Halal süd əmmişin bir tayını tap,
Yaxşını yaxşıyla tayla, gələcək.

Payızsan, ömrünə yaz axtarırsan,
Nazlana-nazlana naz axtarırsan.
Gəlin gətirməyə qız axtarırsan,
Hay vur, gözəlləri hayla, gələcək.

2005, 18 iyul
Kislovodsk

İLK QAFİYƏLƏR

Anamın dediyinə görə, 5 yaşımda ilk dəfə dilimdən çıxan qafiyələr bunlar olub: "Evimizin dalı arpa-arpa, atlar gəlir qarpa-qarpa".

Həmsöhbət olarmış Allahla bəndə,
Ömrün yaddaşında nələr var, nələr.
Görəsən ilk dəfə dilə gələndə,
Nəyə işarəymiş bu qafiyələr?

Nə zaman qəlbimə salıb bu səsi,
Arpa bərəkətmiş, at muradıymış.
Bəlkə də Tanrının ilk qafiyəsi
Körpə ürəyimdə dinən sazıymış.

Mənim şeiriyyətim ərəndən, ərdən,
Oğuzdan, qopuzdan gələn sirr idi.
Anam zarafatla deyirdi hərdən:
"Beş yaşı olanda o şair idi".

Yatmışam yalına ilk qafiyəmin,
Onu ağ at kimi çapıram indi.
Büküb dizlərini həsrətin, qəmin,
Dirilik suyunu tapıram indi.

Zaman qiymətini endirməz heçə,
Dirilik suyunun adı şeirdi.
Yüz illər dolana, min illər keçə,
Yenə ruhumuzun dadı şeirdi.

Peyğəmbər dilindən nur yağa-yağa,
İşığa çevrilib, nura bələnmiş.
Quran qafiyədi başdan-ayağa,
Söz-söz, kəlmə-kəlmə qafiyələnmiş.

Qoşulub gedərəm köçün birinə,
Yoxdu ehtiyacım sərvətə, zərə.
Mən köçüb gedəndə kəfən yerinə,
Məni bükərsiniz qafiyələrə.

2005, 18 iyul
Kislovodsk

O, QEYBƏTƏ DÜŞMƏN İDİ

Neçə ömrüm var ki mənim,
Dedi-qoduya baş qoşam.
Kiminsə getdiyi yetmir,
Ona da bir yoldaş qoşam?

Tikan etsəm gül evini,
Ağlım, huşum artacaqmı?
Yıxsam bir könül evini,
Tikməyə vaxt çatacaqmı?

Neçə ömrüm var ki mənim,
Boş söhbətə çənə verəm.
Onu ya cinə, şeytana,
Ya nifrətə, kinə verəm?

Kim istəyər, özü bilər,
Dedi-qodu mənlik deyil.
İblisin ilməsi, toru,
Məkrin odu mənlik deyil.

Neçə ömrüm var ki mənim,
Bir az səsə-küyə verəm.
Bir az ağlı səyə verəm,
Bir az başdan keyə verəm?

O, bahalar bahasıdı,
Onu yelə niyə verəm?
Gözümdə Allah işığı,
Qəlbimdə nur öləcəyəm.

Yolu aydın, ruhu təmiz,
Eşqi məğrur öləcəyəm.
Bel götürüb, külüng alıb,
Məzarımı qazarsınız.

Başdaşına sadə xətlə
Bu sözləri yazarsınız:
"Bir könülə toxunmadı,
O, qeybətə düşmən idi.
Qeybət adlı bağışlanmaz,
Qəbahətə düşmən idi".

2005, 26 iyul

GƏRƏK DAŞ OLASAN Kİ...

Min bir gülə qonmasan,
pətək olmaz, bal olmaz,
Özün qayğı çəkməsən,
qazancın halal olmaz.
Barama sarımasa,
tut yarpağı şal olmaz,
Necə arısan ki, sən
şehi, gülü, yarpağı,
çəməni duymayasan?

Dağ kəlinin dizləri
harda zora düşəcək,
Hansı ocaqda yanıb,
harda qara düşəcək,
Ceyran harda dolaşıb,
harda tora düşəcək? –
Necə ovçusan ki, sən
aşırımı, gədiyi,
bələni duymayasan?

Hər sevənin canında
sevgi adlı din gərək,
Allaha tapınanın
eşqi bizə min gərək.
Gözlərin gördüyünü
könüllər sevsin gərək, –
Necə ürəksən ki, sən
ruhu, gözü, nəfəsi,
bədəni duymayasan?

Səngərə əsgər gərək,
əsgərə silah gərək,
Yurda keşik çəkən kəs
hər şeydən agah gərək.
Əbədi səcdə üçün
ulu bir dərgah gərək, –
Necə oğulsan ki, sən
hər qarışı müqəddəs
Vətəni duymayasan?

Hansı düzdən boylanıb,
hansı dağa can atdım,
Harda sındı ürəyim,
harda ürəyə yatdım,
Nə dedim, niyə dedim,
necə yazdım-yaratdım? –
Gərək daş olasan ki,
Zəlimxan deyiləndə
Sən məni duymayasan.

2005, 18 avqust

MƏNİM POEZİYAM

Sevginin dadında,
Sevdiyim qadında,
Ruhun qanadında
tapmışam səni.

Gözümün yaşında,
Bağrımın başında,
Elin yaddaşında
tapmışam səni.

Əriyən yağımda,
Kədərli çağımda,
Nəmli yanağımda
tapmışam səni.

Arzuda, diləkdə,
Kəfəndə, bələkdə,
Tanrıda, mələkdə
tapmışam səni.

Qəlbimin ahında,
Misramın şahında,
Haqqın dərgahında
tapmışam səni.

2005, 24 sentyabr

DÜŞMƏ SEVGİDƏN QAÇAQ

Min-min kitab yazılır,
Bir şamın işığında.
Hər kitab bir ocaqdı,
İlhamın işığında.

Halal sünbül, halal dən,
Maya tutur halaldan.
Qüvvət alır əl əldən,
Salamın işığında.

Dönür sərvətə, zərə,
Batır müşkə, ənbərə.
Vəhy gəldi peyğəmbərə,
Kəlamın işığında.

Dərd gəlsə qucaq-qucaq,
Düşmə sevgidən qaçaq.
İnsan xoşbəxtdir, ancaq
İnamın işığında.

2005, 1 oktyabr

ŞAİRLƏR EŞİDİR

Həyatda ən şirin şeirə çevirdim,
Yuxuda qəlbimə axan səsləri.
Günəşdən torpağın üstünə enib,
Torpaqdan Günəşə qalxan səsləri.

Tanrı öz payından göndərib yerə
Bu xan avazları, bu xan səsləri.
Kamandan eşitdim, sazdan dinlədim,
Ruhumu yandırıb-yaxan səsləri.

Haqdan enən səsin səcdəsinə gəl,
Ürəkdə atəşdi, könüldə məşəl.
Şairlər eşidir hamıdan əvvəl,
Mələk dodağından çıxan sözləri.

2005, 14 noyabr

QOHUMLUQ

Ömrümdə yaşatdım çox ömürləri,
Ömür qohumuyam, gün qohumuyam.
Dəndən işıq aldım, sünbüldən maya,
Dolu sünbüllərin dən qohumuyam.

Nuru gəz, axtarma dumanı məndə,
Gəzmə şər-böhtanı, yamanı məndə.
Ulu dədələrin imanı məndə,
İman qohumuyam, din qohumuyam.

Allah xoş saatda üzümə baxdı,
Düz oğlu düzlərin dayağı Haqdı.
Qanı qarışıqlar məndən uzaqdı,
Qanı təmizlərin qan qohumuyam.

2005, 15 noyabr

ŞAHDAN GƏLİB ŞAHA GEDƏN YOLDAYAM

Dan yerindən əsən mehə bələndim,
Mehdən gəlib mehə gedən yoldayam.
Duru gəlib duru qalmaq eşqinə,
Şehdən gəlib şehə gedən yoldayam.

Libası qəm, paltarı qəm, donu qəm,
Günlərimin beşi sevinc, onu qəm.
Bu dünyanın əvvəli qəm, sonu qəm,
Ahdan gəlib aha gedən yoldayam.

Yağış mənim, boran mənim, qar mənim,
Uçrum mənim, keçid mənim, dar mənim.
Ucuz yolda nə ölümüm var mənim? –
Baha gəlib, baha gedən yoldayam.

Lələ mənəm, Kərəm mənəm, kül mənəm,
Kül içindən baş qaldıran gül mənəm.
Sevgi adlı şah evində qul mənəm,
Şahdan gəlib şaha gedən yoldayam.

2005, 17 noyabr

ŞAİR ÜRƏYİ

Sevinc – qəm, payız – bahar,
nə varsa bəxtimizdə,
Ömrün xəritəsində
cızar şair ürəyi.
Gah zərif uşaq kimi
yumşaldar ürəkləri,
Gah köhnə dəmir kimi
qızar şair ürəyi.

Əbədi vəzifə
döyüş olar, cəng olar,
Gah quzuya çevrilər,
gah qızmış pələng olar.
Şairin göz yaşıyla
axar, həmahəng olar,
Damla-damla varağa
sızar şair ürəyi.

Yeddi qatın içindən
yetmiş yeddi qat tapır,
Ömrü axtarışdadır,
söz adlı sovqat tapır.
Qırx arşın quyuya sal,
orda da həyat tapır,
Tanımaz ölüm-itim,
məzar, şair ürəyi.

Varlığında ləkə yox,
dumdurudu niyyəti,
Əqidəsi yolunda soyular,
susmaz qəti.
Onda körpə saflığı,
uşaq səmimiyyəti,
Hər şeyi yaxşılığa
yazar şair ürəyi.

Quru bir daşa dönər,
elsiz gülməz, ağlamaz,
Hansı ürək el üçün
havalanmaz, çağlamaz?
Özgənin qələminə
ümidini bağlamaz,
Özü öz taleyini
yazar şair ürəyi.

2005, 21 noyabr

ŞEİR TANRI DUASIDIR

Gündüz keçib gedən ömür
özümün yox, özgənindi,
Şair tapır öz ömrünü
səssiz keçən gecələrdə.

Düşüncəsi yerlə göyün
vəhdətindən tutub maya,
Özü yerdə, fikri-zikri
yüksəklərdə, ucalarda.

Əldə qələm, öndə varaq,
baxışları çıraq-çıraq,
Ömür gedir, vaxt əriyir
misralarda, hecalarda.

Şeir sevgi nəğməsidi
gəncliyimin dodağında,
Şeir Tanrı duasıdır
müdriklərdə, qocalarda.

2005, 3 dekabr

NƏ ZİYANI?

Ürəyini geniş eylə,
Yağın aşa nə ziyanı?
Çək sürməni xoşa gəlsin,
Gözə, qaşa nə ziyanı?

Od var olsun, su var olsun,
Hər nə varsa, qoy var olsun.
Üst-üstə qoy divar olsun,
Daşın daşa nə ziyanı?

Başıma açma nağılı,
Başsız bu dünya dağılı.
İçində varsa ağılı,
Başın başa nə ziyanı?

2005, 8 dekabr

MƏNİ SEVƏNLƏR

Söz adlı zəmidi sərvətim, zərim,
Sünbülə heyrandı dəni sevənlər.
Hər gün seviləcək mən sevdiklərim,
Hər gün tapılacaq məni sevənlər.

Üzülsəm, yorulsam, qocalsam belə,
Dümağ qar olsa da saçımda dənlər,
Qarışıb yağışa, qoşulub selə,
Hər gün seviləcək məni sevənlər.

Hər gün doğulacaq, hər gün olacaq,
Allaha yaxınlar, Tanrıya tənlər.
Sinəsi xəzinə, baxışı ocaq,
Hər gün tapılacaq məni sevənlər.

2005, 14 dekabr

ÖZÜNÜ ŞAX TUT!

Uçrumlar, yarğanlar çıxar qarşına,
Ağlına gəlməyən gələr başına,
Özünü şax tut!

Qəfil qasırğalar, sərt ildırımlar,
Sinəndə açsa da min cür şırımlar,
Özünü şax tut!

Qorxunun axırı əsarət olar,
Qorxunu qorxudan cəsarət olar,
Özünü şax tut!

Əyilən günahkar, əyən günahkar,
İnsan ürəyinə dəyən günahkar,
Özünü şax tut!

Ağrını, azarı candan uzaq tut,
Haqqın yanında ol, haqlını haqq tut,
Özünü şax tut!

Şax dursan, düz olsan,
ər oğlu ərsən,
Əyilsən, düşməni
sevindirərsən,
Özünü şax tut!

2005, 16 dekabr

GÖZLƏRİM QAPANANDA

Doğan günəş oluram,
Sevgin ilə alışıb,
Eşqin ilə yananda.

Bütün gözəllikləri,
Qəlbimə köçürürəm,
Səni nə vaxt ananda.

Sənin adın olacaq,
Dilimin ən xoş sözü
Son saatda, son anda.

İşığımı, odumu,
Sənə verib gedəcəm.
Baxışlarım yumulub,
Gözlərim qapananda.

2005, 21 dekabr

DÜNYAYA GƏRƏYƏM

Bu qələm dünyanın işinə gəlməz,
Gələn bu həyata boşuna gəlməz.
Gərəksiz, Allahın xoşuna gəlməz,
Söz kimi gərəyəm mən bu dünyaya.

Dağ zirvə üçündü, zirvə dağ üçün,
Bir kök şirə verər min budaq üçün.
Sönən ocaqları qalamaq üçün,
Köz kimi gərəyəm mən bu dünyaya.

Yerisin yoluna, izinə baxsın,
Boylansın dağına, düzünə baxsın.
Dünya məndən keçsin, özünə baxsın,
Göz kimi gərəyəm mən bu dünyaya.

Düzlərə döşənmiş yaşıl xalıyam,
Nəfəsin ətriyəm, ruhun balıyam.
Hər gün düymə-düymə açılmalıyam,
Yaz kimi gərəyəm mən bu dünyaya.

Yerin ləngəriyəm, göyün qatıyam,
Bir layla, bir qoşma, bir bayatıyam.
Duyan könüllərin havacatıyam,
Söz kimi gərəyəm mən bu dünyaya.
Peyğəmbər axarlı, Tanrı naxışlı,
Söz kimi gərəyəm mən bu dünyaya.

2005, 25 dekabr

QUMAM – SƏHRA İÇİNDƏ

Güləm, rəng içindəyəm,
Seləm, cəng içindəyəm.
Sazdan sözə yol gedən,
Bir ahəng içindəyəm.

Odam, kül içindəyəm,
Rəngəm, tül içindəyəm.
Sevgiyə Allah deyən,
Bir könül içindəyəm.

Sözəm, səs içindəyəm,
Ziləm, pəs içindəyəm.
Dünyanı qucaqlayan,
Bir həvəs içindəyəm.

Qumam – səhra içində,
Dürrəm – dərya içində.
Özüm də bir dünyayam,
Sirli dünya içində.

2005, 31 dekabr

KÜLƏK, ATƏŞ, SU, TORPAQ

Küləklərə bənzərəm,
cilovsuz küləklərə,
Dağlarda uğuldayıb,
düzlərdə əsməyim var.
Bir yerdə, bir məkanda
tuta bilmirəm qərar,
Hər an çırpınmağım var,
hər gün tələsməyim var.

Atəşlərə bənzərəm,
gur yanan atəşlərə,
Bircə gün yaşamaram
alovlanıb yanmasam.
Üşüyən ürəkləri
odla isindirməyə
Mənim gücümmü çatar,
içdən alovlanmasam?

Gur sulara bənzərəm,
çalxalanan sulara,
Çay-çeşmələr, dənizlər
qaynar mənim qanımda.
Şeh damlası, sel, yağış
gözümdə, könlümdədir,
Sellər, sular qaynaşar
hər gün həyəcanımda.

Mən torpağa bənzərəm,
beşiyimiz torpağa,
Onun yükü, təmkini,
bərəkəti məndə var.
Ona bənzəməsəydim,
belə çiçəkləməzdim,
Onun Zəlimxan adlı
sevdiyi bir bəndə var.

Külək, atəş, su, torpaq –
dördü də məndə yaşar,
Dördünün sevinci də,
dərdi də məndə yaşar.
Onların hesabına
yaşayıram dünyada,
Necə ki bal arıda,
çiçək çəməndə yaşar.

2006, 5 yanvar

MƏNDƏN UZAQLARDA ÜŞÜYƏN ULDUZ

Məndən uzaqlarda üşüyən ulduz,
Yaxın gəl, qoynumu açıram sənə.
Bilmirəm sən məndən hara qaçırsan,
Mən elə həmişə qaçıram sənə.

Məndən uzaqlarda üşüyən ulduz,
En bir az göylərdən, yerə doğru gəl.
İnsan nəfəsinin alışdırdığı,
Ocağa doğru gəl, pirə doğru gəl.

Məndən uzaqlarda dayanan ulduz,
Endir üstümüzə nur adlı paydan.
Göylər enməyinə izin verməsə,
Alım icazəni Günəşdən, Aydan.

Məndən uzaqlarda dayanan ulduz,
Bəlkə göy beşiyin, yer məzarındı?
Bilmirəm göylərdə kimi sevirsən,
Yerdə bir şair var, sənin yazındı.

Məndən uzaqlarda üşüyən ulduz,
Mənə yaxınlaşsan qızınacaqsan.
Odlu baxışlarda əriyəcək buz,
Bir şair sevgisi qazanacaqsan.

2006, 5 yanvar

SALAM OLSUN

Salam olsun
ildırımlı buludlara,
İldırıma qucaq açan
palıdlara!
Salam olsun
Sinəsini sellər döyən
qayaların sərtliyinə,
Salam olsun
Dar ayaqda sarsılmayan
kişilərin mərdliyinə!
Salam olsun
tufanları barmağında oynadana,
Zəlzələni, qasırğanı
öz içində qaynadana!
Salam olsun
qılınclara, qalxanlara,
Salam olsun
yıxılanda kişi kimi
öz yerindən qalxanlara!
Salam olsun
tüstüsünü, dumanını
öz əyninə paltar kimi geyənlərə!
Salam olsun
öz dərdini çörək kimi yeyənlərə!
Salam olsun
məğrurlara, mətinlərə,
Salam olsun
bizi daşdan-daşa salan
müşküllərə, çətinlərə!
Salam olsun
qaya üstə bitib mamır olanlara.
İradəsi polad,
dəmir olanlara!

Salam olsun
Öləndə də inamını öldürməyən,
Gecələr nə etdiyini
gündüzlərə bildirməyən,
Allahıyla söhbətləşib,
dərdləşənə,
Cəmiyyətin sərt üzünü
Görə-görə sərtləşənə!
Salam olsun
külü göyə sovrulana,
Öz içində yana-yana,
Öz yağında qovrulana!
Salam olsun
Barmağına duz basılan,
Sinəsinə köz basılan
Məlikməmməd dünyasına.
"Ənəlhəqq"i bayraq edən
ulu sənət dünyasına!
Salam olsun
Öz içində hönkür-hönkür
ağlasa da,
Düşmən üstə
qəh-qəh çəkib gülənlərə!
Salam olsun
Haqq uğrunda ölənlərə!

Salam olsun
Salamların mənasını
dərk eyləyib,
Təslimçilik duyğusunu
Birdəfəlik tərk eyləyib,
Mən verdiyim salamları
Səxavətlə alanlara!
Salam olsun
Allahıyla təkbaşına qalanlara!
Haqqa səcdə qılanlara!!!

2006, 20 yanvar

SORUŞMA

Məndən soruşma ki, saat neçədir,
Bilmək istəmirəm vaxtı, zamanı.
Nə bilim gündüzdü, yoxsa gecədi,
Xəyalım qucanda yeri, səmanı.

Ayın neçəsini soruşma məndən,
Gedib çıxmışamsa Günəşə, Aya.
Uca duyğulara qovuşanda mən,
Vaxtı xatırlamaq qalsın sonraya.

Şair xəyalında nə axşam, sabah,
Nə vaxta sığışar, nə yerə, göyə.
Hər şeyi yaratdı yaradan Allah,
Ölçü yaratmadı ölçüsüzlüyə.

2006, 3 fevral

ADƏM VƏ MƏN

Ata tərəfdən Adəmə qohumam,
Ana tərəfdən Həvvaya.
Məni də yaratdılar,
Can-ciyər eylədilər,
Oda, suya, havaya.

Qardaşlarım qardaş qanı
tökdülər,
Habillə Qabilin xatası
Məni də saldı
Qana, qırğına, davaya.

Adəmin yediyi buğda
Məni də salıb çöllərə,
Hər bir yurda sahibəm,
Hər bir isti yuvaya.

2006, 14 fevral

MİN ŞÜKÜR

Könlümün qubarına,
Əlimin qabarına,
Ruhumun, nəfəsimin
Söz adlı nübarına
Bu odu, bu nəfəsi
Verdiyinə min şükür.

Sığalladı tül kimi,
Oxşadı könül kimi.
Qoxladı çiçək kimi,
Dərdi zərif gül kimi.
Nə yaxşı çiçək oldum,
Dərdiyinə min şükür.

Yaradan dağa baxdı,
Dumanı, çəni gördü.
Boylandı gen düzlərə,
Yamyaşıl zəmilərdə
Sünbülü, dəni gördü.
Eşitmək istəyəndə
Bir şairin səsini
Birinci mənə baxdı,
Birinci məni gördü.
Şükür dedim, Allahım,
Gördüyünə min şükür.

2006, 17 fevral

GƏNCLİK

Alnında qırış yox, qəlbində qış yox,
Dünya nə vecinə dəli gəncliyin.
Dünyanı oynadır barmaqlarında,
Qayalar tərpədər yeli gəncliyin.

Nəğməyə sirdaşdı, sükuta yaddı,
Dildə təravətdi, damaqda daddı.
Kükrəsə yağışdı, oynasa oddu,
Dağları titrədər seli gəncliyin.

Həyat yollarında bərkiyər, bişər,
Güc alar, gücünə güvənər bəşər.
Yerlə qucaqlaşar, göylə əlləşər,
Allaha yetişər əli gəncliyin.

2006, 19 fevral

AZADLIQ

Gözümü açandan başımın üstə,
Qadağa görmüşəm, qapaz görmüşəm.
Millət köləlikdə, Vətən qəfəsdə,
Böyük azadlığı lap az görmüşəm.

Qanla suvarılıb qəlbin şadlığı,
Ümidi sındırıb, eşqi qırıblar.
Bütöv görməmişəm mən azadlığı,
Bir damla su kimi dadızdırıblar.

Haqqa qovuşdurar haqq deyən kəsi,
Azadlıq şamının şöləsi olmaq.
Ağırdı kiminsə müstəmləkəsi,
Çətindi kiminsə köləsi olmaq.

Nəyimə çatmazdı varım, varlığım,
Öz ağlım, öz əlim, öz başım olsa?
Hamıya yetərdi bəxtiyarlığım,
Öz damım, divarım, öz daşım olsa.

Azadlıq – sözlərin ən müqəddəsi,
Dəyəri, qiyməti bahadan baha.
Gözümün işığı, qəlbimin səsi,
Mən onu əlimdən vermərəm daha.

Qoyaq nöqtəsini həsrətin, yasın,
Tanrılar güvənsin bu şadlığıma.
Azadlıq heç zaman qurban olmasın,
Mən qurban kəsilim azadlığıma!

GÖRƏ BİLİRSƏNSƏ

Varlığa yox demə, yoxda varı gör,
Çeşmə var, çəmən var, gül var, çiçək var.
Görə bilirsənsə, gül ləçəyində
Arı var, nəğmə var, bal var, pətək var.

Bürünüb yaşıla, bələnib zərə,
Gözəllik gəlməsin gözə, nəzərə.
Bir dağ duruşunda min bir mənzərə,
Zirvə var, dərə var, əl var, ətək var.

Nur kimi gözlərə doldu neməti,
Dünəndən sabaha yoldu neməti.
Ulu Yaradanın boldu neməti,
Səni yaşatmağa duz var, çörək var.

Taleyin nədirsə, alnına yazır,
Yuvadı – yaradır, məzardı – qazır.
Körpə gəlişinə hər şeyi hazır,
Beşik var, layla var, süd var, bələk var.

Oxu var – kamana mindirmək üçün,
Teli var – dil verib dindirmək üçün.
Allahı insana endirmək üçün,
Peyğəmbər yanına enən mələk var.

Alar bürkü səni, sərt ayaz səni,
Qışda qış oxşayar, yazda yaz səni.
Təbiət heç yerdə unutmaz səni,
Torpaq var, qəbir var, bel var, kürək var.

İnsanın həmişə işi iş olub,
Görən göz, ötən dil, yeyən diş olub.
Babamız adında bir keçmiş olub,
Nəvəmiz adında bir gələcək var.

OĞUL BÖYÜKDÜRSƏ, YÜK DƏ BÖYÜKDÜ

Qışın oğlan çağı gəldim dünyaya,
Anamın gözünün ilki mən oldum.
Şükür Yaradanın verdiyi paya,
Atamın sərvəti, mülkü mən oldum.

Evin ilk oğluydum, ilk olmaq çətin,
Ocağın işığı, yurdun səsiydim.
Yapışdım qulpundan ağır zəhmətin,
Çətin buyruqların pərvanəsiydim.

Mən idim bu evin gücü, arxası,
Bu evdə ən çətin iş mənim idi.
Divar uçasıdı, hasar qalxası, –
Çiyin mənim idi, daş mənim idi.

Dəhrəylə, baltayla, bellə, kürəklə
Güləşim, döyüşüm, məşqim olardı.
Hər işin dalınca getdim ürəklə,
Hər şeyə tükənməz eşqim olardı.

Qarşımı kəsməyə acizdir duman,
Sözüm ötkəm idi, inamım qəti.
Məni qorxutmadı heç vaxt, heç zaman,
Birinci olmağın məsuliyyəti.

Şimşəklə, buludla öpüşən oğul,
Tufanda təntimir, boranda çaşmır.
Yükün ağırından yapışan oğul,
Dolaşıq yollarda itmir, dolaşmır.

Ellərin gözünün qabağındayam,
El bilir nə haldan nə hala gəldim.
Ürək işığında, göz yağındayam,
Məhlədə doğuldum, mahala gəldim.

Dözdüm düşmənlərin tənələrinə,
Dözdüm qohumların qınaqlarına.
Köklərim işlədi, getdi dərinə,
Dözdüm bu zamanın sınaqlarına.

Hər ilin dalınca çətin il gəlir,
Qayğılar insana şələdi, yükdü.
Arxadan bir ordu, bir nəsil gəlir,
Oğul böyükdürsə, yük də böyükdü.

Bütün çirkabları, xırdalıqları
Qatladım dizimin altına qoydum.
Eşq adlı sərvəti, söz adlı yarı,
Göylərin yeddinci qatına qoydum.

Əsildən, nəsildən, süddən, sümükdən
Xəbərdar olanın ruhu talanmaz.
İtirməz özünü dağ boyda yükdən,
Oğul böyükdürsə, o xırdalanmaz.

Oğul böyükdürsə, tükənməz varı,
İşi böyüyəcək dilindən əvvəl.
Yığacaq qəlbinə ucalıqları,
İçi böyüyəcək çölündən əvvəl.

Yeri böyüdəcək addımlarıyla,
Göyü böyüdəcək baxışlarıyla.
Həyatın rəngini dəyişdirəcək,
Həyata vurduğu naxışlarıyla.

Cığır dar gələcək qədəmlərinə,
Yeriyib getdiyi yol böyüyəcək.
Oğul baxışları sığal çəkəndə,
Dənizə çevrilib göl böyüyəcək.
Onun gur nəfəsi toxunan kimi,
Ev saray olacaq, koma səltənət,
Adıyla ucalıb el böyüyəcək.

Nəyi istədimsə, verdi Yaradan,
Açılar, işlərim düşməz düyünə.
Mən böyük oğluyam ocağımızın,
İlahi, min şükür böyüklüyünə.

QÜRBƏTDƏN VƏTƏN OLMAZ!

Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Gördüyüm hər gözəllik
heyrətə salır məni,
Min qat gözəl olsa da,
heyrətdən Vətən olmaz.
Saçına sığal çəkib,
rəğbət bəsləsələr də,
Ömrü beş-on gün olar,
rəğbətdən Vətən olmaz.

Allah evi Məkkədə
evimçün darıxmışam,
Evdən-eşikdən ötrü
ürəyimi sıxmışam.
Həsrətin sınağından
dağlar yarıb çıxmışam,
Adında ayrılıq var,
həsrətdən Vətən olmaz.

Çəkilən ağrı bilər
sızıldayan iç nədir,
Səfərə çıxan bilər
yolda qalan köç nədir.
Adın göylərə çıxsa,
yadlar üçün heç nədir,
Vətəndən şöhrət olar,
şöhrətdən Vətən olmaz.

Çırpınar intizarda
qəlbin, ruhun qısılar,
Oğul-uşaqdan ötrü
canın göydən asılar,
Adına, taleyinə
qərib möhrü basılar,
Ancaq onda bilərsən
qürbətdən Vətən olmaz.

Dünyanın çəkmədiyi
ağrısı, azarı yox,
Ağrı nə qədər çəkər,
behi yox, bazarı yox.
Qərib yerdə ölənin
yatmağa məzarı yox,
Zülümdən bir yurd-yuva,
zillətdən Vətən olmaz.

Qəriblərin saçında
qara bax, qırova bax,
İnildəyən kamana,
sızıldayan tara bax.
Cəhənnəmə dönsə də,
cənnətimdi Qarabağ,
"Tehran cənnətə dönsə",
cənnətdən Vətən olmaz!!!

2003, 9 yanvar

KƏRKÜK

Bu gün sənin taleyini düşünürəm,
Ağır gündə üstünü od alan Kərkük.
Öndə qatil, solda düşmən, sağda yağı,
Yurd-yuvası, el-obası talan Kərkük.

Dərdlərini zirvələrə tən bilirəm,
Əzabını saçlarımda dən bilirəm.
Borçalıyam, nə çəkirəm mən bilirəm,
Borçalıtək könül bağı talan Kərkük.

Beş yüz ildi Boyut səndə, Nəsim səndə,
Məndən qopan ruhum səndə, səsim səndə.
Qovuş mənə, qurbanımı kəsim səndə,
Bəd xəbərlər yalan olsun, yalan, Kərkük.

Əvvəlkitək vuran əlim yoxdu hələ,
Qılınc çəkib coşan dəlim yoxdu hələ.
Fateh yoxdu, Sultan Səlim yoxdu hələ,
Gözlə görək, gözü yolda qalan Kərkük.

Harda zor var, orda xəbis barmağı var,
Harda şər var, orda iblis barmağı var.
Taleyində bir "ingilis barmağı" var,
Qızıldan qismətini çalan Kərkük.

Qarabağ da Ərbil, Mosul talelidir,
Ruhu girov, özü yoxsul talelidir.
Əzilənin taleyi qul taleyidir,
Yıxdı səni filan oğlu filan, Kərkük.

Dönə-dönə sındırıblar inadını,
Uça bilmir, tale qırıb qanadını.
Məkkə bilib öz adını, soyadını,
Namazını Türkə sarı qılan Kərkük.

Cəllad deyək, yağı deyək bəxtimizə,
Ömrün qara çağı deyək bəxtimizə.
Layla çalaq, ağı deyək bəxtimizə,
Sən anam ol, mən də sənin balan, Kərkük!!!

2003, 16 mart

DƏRBƏNDDƏN GƏLİRƏM

Dərbənddən gəlirəm, ürəkdə sancı,
Dərbənddən gəlirəm, dodaqda giley.
Doğmanın itkisi, yadın qazancı,
Hönkürür içimdə bir yanıqlı ney.

Ürəyim göynəyir, qəlbim sıxılır,
Dərd yenə ürəkdə şələ bağlayır.
Şair yaddaşında dağlar yıxılır,
Nəsimi soyulur, Hələb ağlayır.

Yağı tapdağının altında qaldı,
Çırpınan yaralı quşdu bu şəhər.
Qəmli tarixləri yadıma saldı,
Elə bil başıma uçdu bu şəhər.

Şər xeyirə dönüb, xeyir şər olub,
Hanı Oğuz yurdum, Turanım mənim?
Dərbənd məscidində dərbədər olub,
Xaça əsir düşüb Quranım mənim.

Qəlbimdə yanıqlar, çaxnaşmalar var,
Dilimdi əriyən dillər içində.
Bal kimi dilimə bu yabançılar,
Zir-zibil gətirib sellər içində.

Dərbənddən gəlirəm, qismətimə bax,
Yeyirəm içimi, söyürəm çarı.
Kərkükdən gələndə beş-on il qabaq,
Orda da duymuşdum bu ağrıları.

Mən də bu millətin dərdini yazdım,
Mən də fəryadımı aləmə yaydım.
Kərkükü, Dərbəndi xatırlamazdım,
Əgər Borçalıda doğulmasaydım.

2003, 8 aprel

BOŞ QALAN EVLƏRƏ
(ağı)

Asılıb sinəmdən ağır daş kimi,
Yerində quruca daş qalan evlər.
İtirib özünü çaxnaşmalarda,
Qalıb baxa-baxa çaş qalan evlər.

Qapı qıfılların pası içində,
Pəncərə sükutun yası içində.
Bir zaman çalxandı qan-su içində,
Bu gün otaq-otaq boş qalan evlər.

Sonsuz ağrıların gücündən çökür,
Elin dəstə-dəstə köçündən çökür.
İçindən ağlayır, içindən çökür,
Quruyub gözündə yaş qalan evlər.

Ocaqlar alışmır qız sevgisindən,
Divarlar titrəmir saz sevgisindən.
Üzüb əllərimi yaz sevgisindən,
Qoynunda əbədi qış qalan evlər.

Atamın məzarı, babamın goru,
Qışqırır "bu yurdu təklikdən qoru".
Basıbsa hər yanı hörümçək toru,
Olarmı başında huş qalan evlər.

İtən bir mahalın haqqı-sayıdı,
İçimdə dərd yükü, qəm harayıdı.
Dağılan xan yurdu, şah sarayıdı,
Orta dirəyində quş qalan evlər.

2003, 13 oktyabr

ŞƏHİDLİK GƏRƏKDİR AZƏRBAYCANA

Yurdunu-yuvasını itirən şair dostlarıma

Qeyrətim, qəzəbin qılıncını çək,
Varağa səngər de, qələmə süngü.
Döyüşlər zamanı susmasın gərək,
Fərhad cəsarəti, Fərhad külüngü.

Torpağı yad əldə qalan şairin,
Silaha, mərmiyə dönməsə şeiri,
Hər sözü olsa da bal kimi şirin,
Yurda nə xeyri var, xalqa nə xeyri?

Millətin inamı çökməzmi dizə,
Ölən odsuz ölsə, ocaqsız ölsə?
Ən böyük ləkədi tariximizə,
Torpaq şairləri torpaqsız ölsə.

Qarabağ gedəndən Famil qocaldı,
İrəli gəlmədi, geriyə getdi.
Şahmarın ümidi Allaha qaldı,
Şam kimi əriyə-əriyə getdi.

Çox gördüm gözündə çağlayan seli,
Tüstüsü kəsilməz bacadı Məmməd.
Kəlbəcər deyəndə bükülür beli,
Elə bil yüz yaşlı qocadı Məmməd.

Ağa Laçınlını bir yasda gördüm,
Rəngi ağarmışdı dümağ qar kimi.
Onu bir qəm dolu libasda gördüm,
Oğlunu itirmiş atalar kimi.

İki gözündə də yuva salıb qəm,
Nə qədər kövrəkdi, nə qədər zərif.
Gözünün içinə baxa bilmirəm,
Mənə əzab verir Ağayar Şərif.

Sınıb, parçalanıb qəlbi, ürəyi,
Şəhərdə evi yox, kənddə torpağı.
Hansına baxırsan – xəzan çiçəyi,
Hansına baxırsan – payız yarpağı.

Ürəkdə zədə var, könüldə yara,
Bu halla şairlik eyləmək olmur.
Qaranlıq çıxmasa aydınlıqlara,
Yox, vallah, şairlik eyləmək olmur.

Nərəyə çevrilsin qəlbindəki səs,
Axsın şimşək kimi iliyə, qana.
Bu gün şairlikdən daha müqəddəs
Şəhidlik gərəkdir Azərbaycana!

2003, 22 noyabr

DÖYÜŞDƏDİR AZƏRBAYCAN

Döyüş, ay eloğlu, döyüş,
Bircə qarış torpaq üçün,
Bu gün hər bucaq döyüşür.
Silahları olmasa da,
Xalq özü silaha dönür,
Diş ilə dırnaq döyüşür.
İblislərin fitvasıdır,
Torpağa qanları tökən,
Vuruşur əlbəyaxa,
Sümüklə bıçaq döyüşür.
Dəli sellər, axar çaylar,
Dönür yurdun ordusuna,
Buludları yarıb keçir,
Havada bayraq döyüşür.
O torpaqlar qayıtmasa,
Qılınc qında yata bilməz.
Qisası var millətimin,
Haqqı üçün haqq döyüşür.

2003, 5 dekabr

VƏTƏN YAXŞIDI

Xəstə göndərməyin qürbət ellərə,
Xəstəni əcəl yox, qürbət öldürür.
Vətənlə qürbətin arasındakı,
Ayrılıq öldürür, həsrət öldürür.

Öz kökü üstündə qalxan, ucalan,
Öz kökü üstündə bitən yaxşıdı.
Elə gəzməyə də Vətən torpağı,
Elə ölməyə də Vətən yaxşıdı.

2004, 18 fevral
Kislovodsk

KÖKSÜZ AĞAC

Qürbətə salmasın Allah adamı,
Qürbət axırına çıxır adamın.
Qaralır ocağı, səngiyir şamı,
Köksüz ağac kimi yıxır adamı.

Tökülüb üstümə həsrətin yası,
Yuxum ərşə çıxıb, gecə yarıdı.
Qəlbimdə atamın kövrək dünyası,
Yuxumda anamın laylalarıdı.

Gözümün içində yuva saldı çən,
Qəlbimə xaraba, virana dedim.
Dedilər, Allahdan nə istəyirsən,
Bir "Vətən" söylədim, bir "ana" dedim.

2004, 24 fevral
Kislovodsk

MƏMMƏD ASLANA

Məni gəncliyimə qaytardın yenə,
Çağladı sinəmdə şəlalə, Məmməd.
Lalə çölüdümü, qan gölüdümü,
Hardandı bu qədər bu lalə, Məmməd?

Güllər – əmizdirən, arılar – əmən,
Yağış – çimizdirən, qayalar – çimən.
Tanrı sovqatıdı hər yaşıl çəmən,
Hər çiçək nur dolu piyalə, Məmməd.

Lalə – bağrımızın qızaran yağı,
Torpaq – sinəmizin çal-çarpaz dağı.
Sən çəkən azarı, mən çəkən dağı,
Nə Kərəm daşıyıb, nə Lələ, Məmməd.

Başda bir ağrıdı, canda bir qada,
Yurdundan olmasın heç kəs dünyada.
İtən dağlarımı gətirdin yada,
Qopdu içərimdə bir nalə, Məmməd.

Hələ Qarabağın açılmaz yazı,
Qaradı qismətə yazılan yazı.
Gedək Dəlidağda çalaq bu sazı,
Verək Kəlbəcərlə əl-ələ, Məmməd.

Ahımdan dağların nəm daşı yandı,
Dərd daşı alışdı, qəm daşı yandı.
Zəlimxan onsuz da qəm daşıyandı,
Dərdinlə gəl onu şələlə, Məmməd.

2004, 24 fevral

MƏNƏ OĞUL DEYİL, VƏTƏNDAŞ GƏRƏK

Topxana düşməndə, gorxana məndə,
Axsın gözlərimdən qanlı yaş gərək.
Daşaltı düşmənin baş altındadı,
Yağsın başımıza göydən daş gərək.

Gözümdəki nurdu, qəlbimdəki səs,
Udduğum havadı, çəkdiyim nəfəs.
Yurd-yuva itirməz ağlı olan kəs,
Torpaq itirənin ağlı çaş gərək.

Alın düyünlənib, çatılırsa qaş,
Batırsa xəzinə, itirsə yaddaş,
Məndən oğul-uşaq istəmə, qardaş,
Mənə oğul deyil, vətəndaş gərək.

2004, 30 may

MƏNİM BORÇALIDA QALAN İLLƏRİM

Körpəliyim idi – kövrək, rəhmli,
Uşaqlığım idi – ayıq, fəhmli.
Cavanlığım idi – ötkəm, zəhmli,
Mənim Borçalıda qalan illərim.

Gecə danışırdım ulduzla, Ayla,
Gündüz görüşürdüm çeşməylə, çayla.
Getdi əllərimdən hayla, harayla,
Mənim Borçalıda qalan illərim.

Atamın qəbritək ziyarətimdi,
Anamın səbritək qətiyyətimdi,
Mən onsuz yetiməm, mənsiz yetimdi,
Mənim Borçalıda qalan illərim.

Aran bir qoluydu, dağ bir qoluydu,
Çəmənlə, çiçəklə, nurla doluydu.
Haqqa qovuşmaqçün Haqqın yoluydu,
Mənim Borçalıda qalan illərim.

Ulu gözəlliyə bənd yerim oldu,
Oymaq yerim oldu, kənd yerim oldu,
Tövbə yerim oldu, and yerim oldu,
Mənim Borçalıda qalan illərim.

Hər fikri gözəldi, hər sözü xoşdu,
Görüş bayramıdı, həsrət yasıdı.
Dünyanın ən qədim saz havasıdı,
Mənim Borçalıda qalan illərim.

Sarvan dağlarıdı, Lələvərdi, Lökdü,
Həsrəti içimi doğradı, tökdü.
Ayrılıq anında göz yaşı tökdü,
Mənim Borçalıda qalan illərim.

Göyü soraqlayır, yeri çağırır,
Oğulu səsləyir, əri çağırır.
Gedən oğulları geri çağırır,
Mənim Borçalıda qalan illərim.

Göz yaşı gözümdə şeh kimi qaldı,
Ağrısı canımda ah kimi qaldı.
Ömrümün taxtında şah kimi qaldı,
Mənim Borçalıda qalan illərim.

Adım yaddaşında azarmı görən?
Bir həsrət məzarı qazarmı görən?
Məni yaddaşına yazarmı görən? –
Mənim Borçalıda qalan illərim.

Ondan ayrılmağım haqsızmı, haqmı?
Günahkar insanmı, talemi, vaxtmı?
Bilmirəm mənimlə barışacaqmı,
Mənim Borçalıda qalan illərim.

2004, 29 iyul

YETİM EVLƏR

Bağlı qalıb qapılar,
Nə gedəni qayıdar,
Nə itəni tapılar.
Təndir çörəksiz qalıb,
İstilənmir ocaqlar.
Bir-bir gözümdən keçir
Olmuşlar, olacaqlar.
Burum-burum burulmur
Bacalarda tüstülər.
Görən kim kimdən küsüb,
Oğullarını soyuyan
ocaqlardan incidi,
Soyuyan ocaqlarını
oğullardan küsdülər?!

2004, 7 oktyabr

VƏTƏN

Vətəndə qürbəti heç düşünmədim,
Qürbətə düşdüyüm an "Vətən!" dedi.
Qəlbim arı kimi elə sızladı,
Bağrımın başında şan "Vətən!" dedi.

Allahı, vallahı söz olan dilim,
Yurdun hər sözünə göz olan dilim.
Ağzımın içində köz olan dilim,
Axşam harayladı, dan "Vətən!" dedi.

Nədir bu sözdəki ilahi qüdrət,
Dizlərə taqətdi, qollara qüvvət?
Elə ki birləşdi həsrətlə qürbət,
Ürək parçalandı, can "Vətən!" dedi.

2004, 8 oktyabr

UDUZARSAN, ÇOX OYNASAN ALOVLA

Yad ellərdə gözəl sevmək xatadı,
Qürbət səndə, sən qürbətdə qalarsan.
Baxışların ovsununa düşərsən,
Ögeyləşib buz həsrətdə qalarsan.

Nəfsini bas, hisslərini cilovla,
Ovlayırsan çiçək ovla, gül ovla.
Uduzarsan çox oynasan alovla,
Əsir olub əsarətdə qalarsan.

Doğmalıqda keçən hər an şirindi,
Öz diyarın hər diyardan şirindi.
Dərk etməsən Vətən yardan şirindi,
Ömrün boyu xəcalətdə qalarsan.

2004, 22 oktyabr

TORPAQ YANĞISI

Çıxışlarının birində Rauf Denktaş dedi: "Bir gün Yasir Ərəfat mənə söylədi ki, Rauf bəy, sən məndən xoşbəxtsən. Sənin Türkiyən var, mənim də bir Türkiyəm olsaydı, mən bu acıları çəkməzdim. Sənin basdırılmağa torpağın var, mənim basdırılacaq yerim də yoxdu. Bizim şəhid qəbiristanlıqlarımızı İsrail şumlayıb, izini itirib. Sizin şəhidlərinizin məzarı başında Türk əsgəri durur. Ərəfat deyən oldu. Onu arzuladığı müqəddəs yerə - Qüdsə dəfn olunmağa qoymadılar". "Sözü at yiyəsinə, özü götürəcək" deyiblər. Bu fikir məni göyüm-göyüm göynətdi. Doğulduğu torpaqda ölmək xoşbəxtliyi taleyinə yazılmayan Qarabağsız qarabağlıları, elini itirmiş eloğlularımı göz yaşları içində xatırladım.

"Söylə dərdin bilənlərə,
Dərd başına gələnlərə"

I

Bircə gün üzünə gülmədi həyat,
Əlli il döyüşdü Yasir Ərəfat.
Yollar yeriməkdən yol qabar oldu,
"Azadlıq!" deməkdən dil qabar oldu.
Yorulmaq bilmədi "Vətən!" deməkdən,
"Hanı insaf?" dedi, "hanı din?" dedi.
Səsi yetişmədi kar qulaqlara,
"Fələstin!" söylədi, "Fələstin!" dedi.
Dil açıb dinəndə dili titrədi,
Əlini tərpətdi, əli titrədi,
Düşdü qapı-qapı qürbət ellərə,
Üzündə həsrətin yeli titrədi.
Onu qoymadılar dövlət olmağa,
Qaldı gözlərində bayraq yanğısı.

Dəldi ürəyini torpaq yanğısı,
Deşdi kürəyini torpaq yanğısı.
Bədbəxt yer üzünə qədəm basanda,
Doğulur, yatmağa beşiyi olmur.
Küməsi dağılır, koması uçur,
Bir yurdu, bir evi, eşiyi olmur.
Ayaq var, geyməyə ayaqqabı yox,
Baş var, geyinməyə papağı yoxdur.
Allahın altında bir qarış yeri,
Əkməyə bir ovuc torpağı yoxdur.

Bədbəxtlik bədbəxtin başından basır,
Qara gün özündən qabaq doğulur.
Müqəddəs analar məndən küsməsin,
Bədbəxt doğulanlar nahaq doğulur.
Dodağı qurusa, su verən olmur,
Gözünü göynədir bulaq yanğısı.
Taleyi üzünə gülməyən kəsin
Yandırır canını torpaq yanğısı.

Torpağı əlindən gedən kimsələr
Min il yaşasa da mənası yoxdu.
Ocağı alışmaz, Günəşi doğmaz,
Dünya var, dünyada dünyası yoxdur.
Məzarı yad yerdə qazılanların
Əvvəli olsa da, sonrası yoxdu.
Çox olar yetimə "gəl-gəl" deyənlər,
Çörək verənlərin sayı az olar.

Qazancı qapazdı, yediyi yumruq,
Tanınmaq istəyər, tanınmaz olar.
Arxası olmayan millətə yazıq!
Meydanda tək qalan qeyrətə yazıq!
Vətən deyiləndə vətənsiz bilər,
Nədir dil yanğısı, dodaq yanğısı.

Hamının canında torpaq eşqi var,
Hamının canında torpaq yanğısı!!!

II

Arxalı köpəklər səs-səsə verdi,
Cumdu irəliyə qurd basa-basa.
Günbəgün çoxaldı xarabalıqlar,
Yurdumu aldılar yurd basa-basa.
Budur yağıların fikri, niyyəti,
Budur düşmənlərin mədəniyyəti.
Haqqını deməyə haqqın çatmasın,
Ağzın qıfıllansın, mumlansın gərək.
Şəhid məzarından əsər qalmasın,
Kotanlar ağzında şumlansın gərək.
Nə böyük dəhşətdi, nə böyük ağrı,
Gözün görə-görə torpağın gedə.
Səni basdırmağa torpaq olmaya,
Ağacın quruya, suyun kəsilə,
Üstündə kölgəlik budaq olmaya.
Nahaqqın əlində oyuncaq olub
Haqqına can atan bu haqq yanğısı.
Bu gün yer üzündə bircə yanğı var,
Torpaq yanğısıdı, torpaq yanğısı.

Torpağın yoxdursa, əl üz həyatdan,
Doğulma, böyümə, yaşama, ölmə!
Dünyadan getməyə yerin yoxdusa,
Başını ağrıdıb dünyaya gəlmə.
Gəldinsə qurtardı, axırın itdi,
Yağış yağmayacaq, nur yağmayacaq,
Hər gün daş yağacaq daşının üstə,
Qarğa qarıldayıb, bayquş ötəcək,
Yarasa gəzəcək başının üstə.

Ağırdı zamanın, vaxtın şərtləri,
Bilirəm, bilirəm mən bu dərdləri.
Çoxdan tanıyıram bu alçaqları,
Çoxdan tanıyıram bu namərdləri.
Torpaq itirənin biri də mənəm,
Yandırır əlimi varaq yanğısı,
Bu gün mən özüm də başdan-ayağa
Torpaq yanğısıyam, torpaq yanğısı.

2004, 7 noyabr
Almaniya, Bilefild

DİVAR VƏ ÇAY

(Berlinin yıxılan divarları önündə düşüncələr)

Bir dövləti ikiyə
bölən divar yıxıldı;
Bir milləti ikiyə
bölən çayı neyləyək?
Biri azad, müstəqil,
biri fikir dustağı,
Bu tay bir yana çıxdı,
bəs o tayı neyləyək?
Nə rusam, nə almanam,
nə farsam, nə ingilis,
Türk adıyla Tanrıdan
gələn payı neyləyək?
İki yüz il ağlamaq
bizə fayda vermədi,
Qulaqlara çatmayan
hay-harayı neyləyək?
Divar yıxmağa nə var,
çayı qurutmaq olmur,
Göz yaşına qarışan
ahı-vayı neyləyək?
Nə saray endi xalqa,
nə xalq saraya çatdı,
Zora gücü yetməyən
Ağ sarayı neyləyək?
Tarix deyir: bərkiyin,
bütövləşin, birləşin,
Boynumuza qoyulan
haqqı-sayı neyləyək?

2004, 10 noyabr
Almaniya, Bilefild

YELDAĞI HAQQI!

Qocaman Borçalıda, dağlar qoyunda Kəpənəkçi adlı qoca bir kənd var. Məni dünyaya gətirən bu kəndə sökəkli "Yeldağı" adında bir ziyarət ocağı var. Neçə yüz illərdi bu kəndin camaatı and içəndə "Yeldağı haqqı!" deyib ona and içir, müqəddəs arzulara qovuşmaq üçün onun ətəyində ziyarət daşının yanında nəzir verib, qurbanlar kəsir.

Adını dilimdə and eyləmişəm,
Sözünü dilimdə qənd eyləmişəm,
Ömrümü ömrünə bənd eyləmişəm.
On ilin, yüz ilin söhbəti deyil,
Mən onu min ildi bənd eyləmişəm,
Mən ondan doymuram, Yeldağı haqqı!

Borçalı ürəkdir, baş Kəpənəkçi,
Borçalı tarixdir, daş Kəpənəkçi,
Borçalı üzükdü, qaş Kəpənəkçi.
Qaşın özünü yox, tozunu belə,
Heç kəsə qıymaram, Yeldağı haqqı!

Oduna, közünə, hisinə qurban,
Dumanına qurban, sisinə qurban.
Yaxşılar qibləmdi, qibləgahımdı,
Əgər pisi varsa, pisinə qurban,
Şeytana uymaram, Yeldağı haqqı!

Hələ təzə-təzə açılır qatı,
Dərindi yaddaşı, xalisdi zatı.
Gecəsi nağıldı, axşamı dastan,
Sevgisi dilimdə qoşma, bayatı.

Onun taleyinə min kitab yazam,
Döşümə döymərəm, Yeldağı haqqı!

Getdim Çin səddinə, mənimlə getdi,
Peyğəmbər doğulan bir məmləkətə,
Məkkə sərhədinə mənimlə getdi.
Kəbənin içində adını çəkdim,
Ucalıq həddinə mənimlə getdi.
Onsuz keçirdiyim vaxtı-vədəni,
Ömürdən saymaram, Yeldağı haqqı!

Gül kimi açılmış bənizim olar,
Damlası böyüyüb dənizim olar.
Qayıdıb Allahın yoluna gələr,
Pisi də çevrilib əzizim olar.
Kimsə bir daş atıb xətrimə dəysə,
Sancaram başına Kəpənəkçinin,
Xətrinə dəymərəm, Yeldağı haqqı!

Başını bəladan sovuşdurmamış,
Adını adlara yovuşdurmamış.
Ucaldıb eşqini, ləyaqətini,
Tanrı dərgahına qovuşdurmamış
Ölümü, əcəli qoymaram yaxın,
Bez-kəfən geymərəm, Yeldağı haqqı!
Min il də hüsnünə nəğmələr qoşam,
Nurundan, sehrindən, tamaşasından,
Doymaram, doymaram, Yeldağı haqqı!

2005, 1 fevral

BORÇALI İLƏ DEYİŞMƏ

Borçalı:

Gözüm yolda, könlüm səsdə qalıbdı,
Görünmürsən, sən hayana çəkildin?
Nə qürbətdə qərar tutdun, nə burda,
Gah o yana, gah bu yana çəkildin.

Zəlimxan:

Bir müxənnət ürəyimə ox atdı,
Ara yerdə düşdüm qana, çəkildim.
Ovxarımı, kəsərimi aldılar,
Qılınc kimi yatdım qına, çəkildim.

Borçalı:

Çəmənlikdən silinməyib izlərin,
Qayalara çox toxunub dizlərin.
Gözlərini yolda qoyub düzlərin,
Gedib hansı biyabana çəkildin?

Zəlimxan:

Ağlatdılar, küsdürdülər, küsdülər,
Gözlərimi kor eylədi tüstülər.
Eldən gedən öz canına qəsd eylər,
Öz canımı saldım qana, çəkildim.

Borçalı:

Nə inildə, nə sızılda, nə zarı,
Oğulların yoxdu behi-bazarı.
Sən getmisən, mən çəkirəm azarı,
Məni qoydun, şöhrət-şana çəkildin.

Zəlimxan:

Məhəbbət sən, mərhəmət sən, kərəm sən,
Ərzurumda qara batmış Kərəmsən.
Əlli ildi ürəyimdə vərəmsən,
Bağrım oldu şana-şana, çəkildim.

Borçalı:

Gözəllərin sirdaşıydın, yarıydın,
Dağın gülü, zirvələrin qarıydın.
Hər gün mənə bal gətirən arıydın,
Uçub getdin, özgə şana çəkildin.

Zəlimxan:

Heç nə çıxmır döyüşümdən, davamdan,
Qan tökülür rüzgarımdan, havamdan.
Özbaşına ayrılmadım yuvamdan,
Tüstüləndim, yana-yana çəkildim.

Borçalı:

Çox toxumlar göyərmədi, bitmədi,
Çox bülbüllər oxumadı, ötmədi.
Borçalıtək dünya sənə yetmədi,
Ad axtardın, ada-sana çəkildin.

Zəlimxan:

Yarpaq tökdüm qara yellər əsəndə,
Dözəmmədim qəm qarşımı kəsəndə.
Çölümdəki Zəlimxandan küsəndə,
İçimdəki Zəlimxana çəkildim.

2005, 8 mart

CAVAD HEYƏT KÖRPÜSÜ

Martın 18-də Ankaranın Qazi Universitetində mənim yaradıcılıq gecəm keçirilirdi. Böyük ziyalımız Cavad Heyət bu xəbəri eşidib öz ömür-gün yoldaşıyla məclisimizə təşrif gətirmişdi. Hörmətli ağsaqqalımızın burada olması ürəyimi dağa döndərdi. Haqqımda gözəl çıxış elədi, ürək sözlərini söylədi. Bu mənzərənin əks-sədası aşağıdakı sətirlərim oldu.

Bir körpü var o tay, bu tay arasında,
Ağrı-əzab, görüş-həsrət körpüsüdür.
Nə uçandı, nə sökülən, nə dağılan,
Həmi heyrət, həmi qeyrət körpüsüdür.

Bakı-Təbriz cüt qanadı, sağı-solu,
Son hədəfi Altay ilə Anadolu.
Haqqın ruhu, Haqqın səsi, Haqqın yolu,
Halal sevgi, haqq-ədalət körpüsüdür.

Yoxa çıxdı lallığımız, karlığımız,
Varlığıyla dilə gəldi varlığımız.
Nəfəsiylə genişləndi darlığımız,
Zəfər günü bir səltənət körpüsüdür.

Saçlarından dırnağına Türk oğlu Türk,
Arzuları Göyçə, Dərbənd, Mosul, Kərkük.
Çiynindəki bir daşınmaz dağ boyda yük,
İlqar, iman, dözüm, zəhmət körpüsüdür.

Həsrət adlı buzdan-qardan keçib gedir,
Min sınaqdan, min bir dardan keçib gedir.
Şəhriyardan, Bəxtiyardan keçib gedir,
Elmi-ürfan, şeir-sənət körpüsüdür.

Ruhumuzun sazı, neyi, udu keçdi,
Göz yaşları daşlarımı yudu keçdi.
O körpüdən Şahmar keçdi, Xudu keçdi,
Həmi zəhmət, həm mərhəmət körpüsüdür.

Duyğuları naxışlıdı, cilalıdı,
Var olmağı yerin-göyün cəlalıdı.
El sevgisi nə qazanıb, halalıdı,
Yaratdığı ulu millət körpüsüdür.

Yaralara məlhəm qoyan cərrahımız,
Döyüş günü səngərimiz, silahımız.
Onu bizə çox görməsin Allahımız,
Tarix üçün qədir-qiymət körpüsüdür,
Uca duyğu, saf məhəbbət körpüsüdür.
Ey oxucum, nə dağa düş, nə arana,
Bax, bu körpü Cavad Heyət körpüsüdür.

2005, 3 aprel

QARABAĞ ƏN ÇƏTİN SUALDI, QARDAŞ

Görən Qarabağın qayıtmağını,
Mən öz gözlərimlə görəcəyəmmi?
Şuşa qalasına bir qalib kimi,
Hayqıra-hayqıra girəcəyəmmi?

Görəsən nur alıb Cıdır düzündən,
Xarı bülbül kimi bitəcəyəmmi?
Vaqifin müqəddəs məqbərəsində,
Vaqifin dilində ötəcəyəmmi?

İsa bulağının başında yenə,
Görəsən muğamat oxunacaqmı?
Sevən oğullara, sevən qızlara,
Məhəbbət çələngi toxunacaqmı?

Görəsən önünə əzizlərimin,
Şad bir xəbər kimi çıxacağammı?
Sevincim qəlbimə sığışmayanda,
Daşaltı çayıtək axacağammı?

Görəsən güc alıb "Ərimgəldi"dən,
Torpağı qurtaran ər gələcəkmi?
Xəstə ürəklərə Şuşa havası,
Solmuş yanaqlara zər gələcəkmi?

Görəsən muştuluq gətirənlərə,
Ömrümü pay kimi böləcəyəmmi?
Yoxsa bu ağrıyla dünyadan köçüb,
Elə bu dərdlə də öləcəyəmmi?

Əgər iş qaldısa "görəsən"lərə,
Demək, Yer üzünü su aldı, qardaş.
Min sualı varsa əsrin, zamanın,
Qarabağ ən çətin sualdı, qardaş.

2006, 10 yanvar

XIRDALAMA, İLAHİ,
HƏMİŞƏ BÖYÜT BİZİ

Bir-iki kəlmə dua,
beş-altı kəlmə arzu,
Tanrım, qoy saf saxlasın
sən verən öyüt bizi.
Sənə üz çevirən gün
üzümüzə nur çilə,
Səndən üz döndərən gün
daş eylə, keyit bizi.

İnsanı Haqq yanında
hər varlıqdan baş eylə,
Qızını doğma bacı,
oğlunu qardaş eylə.
İnsanlığı unutsaq,
bağrımızı daş eylə,
Qışın qarına döndər,
buz kimi soyut bizi.

Köksüzlər öz ömrünü
bəxtəvər saya bilməz,
Dağdan dayağı yoxsa,
sellər çağlaya bilməz.
Ruhda, qanda yoxdusa,
Haqqa bağlaya bilməz
Nə peyğəmbər, nə imam,
nə qərib seyid bizi.

Şah sevgilər yolunda
qaya kimi çapılaq,
Harda yıxılan olsa,
dayaq olaq, tapılaq.

Çörək olaq yeyilək,
kündə olaq yapılaq,
Dəyirmanı işə sal,
dən kimi üyüt bizi.

Nə millətə dərd, ələm,
nə xalqa ah-zar verək,
Ürəyi yanan kəsə
dağımızdan qar verək.
Düymələnək, açılaq,
çiçək olaq, bar verək,
Qoy nəsillər bilməsin
barsız bir söyüd bizi.

Gözlərimiz göydədi,
əllərimiz Haqdadı,
Haqqa tapınmayan kəs
qara daşdı, taxtadı.
Demə ki, mən Allaham,
bəndə çox uzaqdadı,
Nə göylərdən arala,
nə yerdən soyut bizi.

Dünya başdan-ayağa
insaf olsun, din olsun,
Dünyada yaxşı nə var,
artsın birə-min olsun.
Verdiyin hər nemətə
min dəfə şükür olsun,
İlahi! Xırdalama,
həmişə böyüt bizi!

2003, 1 yanvar

SEVİNDİR ZAMANI

Sevindir yolları səfərlərinlə,
Yolçusu yoxdursa, yolda səs olmaz.
Arzu çağırmasa, səs aparmasa,
İnsan təbiətlə həmnəfəs olmaz.

Sevindir göyləri baxışlarınla,
Göylərdə sevginin naxışı qalsın.
Ulduz yaddaşında, Ay yaddaşında,
Kövrək bir şairin baxışı qalsın.

Sevindir zamanı dualarınla,
Sabahdan sonrakı sabah sevinsin.
Allah ürəyini açsın bəndənin,
Bəndəyə baxanda Allah sevinsin.

2003, 10 yanvar

BORC EYLƏMƏ

Gödək ömrü baha saxla,
Hər yetənə xərc eyləmə.
Mərdlərə bir qala qurdun,
Namərdlərə bürc eyləmə.

İtmə çəndə, azma sisdə,
Haqqa yer ver gözün üstə.
Dədələrdən dünya istə,
Gədələrdən borc eyləmə.

Dənizini ada bilər,
Səsini boş səda bilər.
Dünya səni uda bilər,
Sən dünyayla mərc eyləmə.

2003, 21 yanvar

TORPAQ ÜÇÜN QEYRƏTİNİ QILINC BİL

Uşaqsanmı, ağlın bir şey kəsməyə,
Qocasanmı, itirəsən yaddaşı?
Cavanlığın ətəyindən bərk yapış,
Daşıyırsan, bir müqəddəs ad daşı.

Əqidəsiz keçən ömrü gülünc bil,
Torpaq üçün qeyrətini qılınc bil.
Öz daşını öz başına balınc bil,
Könül açmaz yad torpağı, yad daşı.

İç camını, şərbətindən ləzzət al,
Görüş gözlə, həsrətindən ləzzət al.
Ömrün-günün nemətindən ləzzət al,
Ömrü boyu damağında dad daşı.

2003, 2 may

YOLLAR MƏNƏ YOLLUĞUNU GÖSTƏRƏ

Dədələrin məclisinə düşəydim,
Toyda toyum, yasda yasım olaydı.
Başım üstə ustadların duası
Salxım-salxım, asım-asım olaydı.

Diridağda Qurbanimiz dirilə,
Şah babama müjdə xəbər verilə.
Xətainin meyvələri dərilə,
Saz köynəyim, söz libasım olaydı.

Şirinlikdə ölüm dönə nağıla,
Dünya qəmi başımızdan dağıla.
Bir məclisə neçə ustad yığıla,
Meydan açan qul Abbasım olaydı.

Sazdan ola unum, dənim, xırmanım,
Sazdan gələ ölüm-dirim fərmanım.
Xəstələnsəm, sağalmağa dərmanım,
Ümid yerim Xəstə Qasım olaydı.

Yollar mənə yolluğunu göstərə,
Ali eşqin bolluğunu göstərə,
Qul Ələsgər qulluğunu göstərə,
Şagird olmaq iltimasım olaydı.

2003, 13 may

ALLAH YAXŞILARI SEVİR

Bölgədirsə – bu bölgəyə
ölkə demə,
Ölkədirsə – bu ölkəyə
bölgə demə.
Ulduzu var, Günəşi var,
Ayı varsa,
İşığına işıq söylə,
kölgə demə.

Ocaqdırsa – közünə bax,
kömür demə,
İmamdırsa – Yezid demə,
Şümür demə,
Düzü tərsə, xeyri şərə
yoza-yoza,
Yaşadığın bir həyata
ömür demə!

Göy üzündə bulud varsa,
Günəş də var,
Qəlbimizdə qar-buz varsa,
atəş də var.
Qara torpaq başdan-başa
qanqal deyil,
Sünbül də var, zəmi də var,
küləş də var.

Dili bir az yaxşılığa
çevir, bala,
Allah özü yaxşıları
sevir, bala,
Haqqı görsən, başın üstə
bayraq eylə,
Nahaq görsən, yıx taxtının
devir, bala.

2003, 21 may

GƏL, EY SƏSİMƏ SƏS VERƏN

Şeytan səni çaşdırmasın,
Baş vurma çaş dərgahına.
Min çayın suyu bağlanar,
Gözündə yaş dərgahına.

Əldən yapışsın əl, gedək,
Biz hamıdan əvvəl gedək.
Durma ayaqda, gəl gedək
Tanrının baş dərgahına.

Gəl, ey səsimə səs verən,
Ruha qanad, həvəs verən.
Gedək, şeirə nəfəs verən
Hacı Bəktaş dərgahına.

2003, 1 iyun

TANRININ ADINA YARADAN DEDİK

Göydə süzmək üçün quşu yaratdı,
Yerdə yatmaq üçün daşı yaratdı.
Zamanı zamana qovuşdurmağa,
Yaddaşı yaratdı, huşu yatardı,
Tanrının adına Yaradan dedik.

Dağların dayağı düzü yaratdı,
Haqqı görmək üçün gözü yaratdı,
Özünə İlahi dedirtmək üçün
İnsanı yaratdı, bizi yaratdı,
Tanrının adına Yaradan dedik.

Qanqal da onundu, çiçək də onun,
Fil də, qarışqa da, milçək də onun.
Yersiz yer üzündə heç nəyi yoxdu,
Çirkin də, gözəl də, göyçək də onun,
Tanrının adına Yaradan dedik.

Baxdıq gələcəyə sabahım deyə,
Güvəndik gücünə silahım deyə.
Dilimiz duada, əlimiz Haqda,
Göylərə boylandıq "Allahım" deyə,
Tanrının adına Yaradan dedik.

Ömür sel ağzında bir sarı yarpaq,
Yel vurdu, sel vurdu, dağdan aşacaq.
"Seçmə durnamızı sıradan", – dedik,
"Şübhədən, gümandan qurtar bizləri,
Çıxart könlümüzü qaradan", – dedik,
Tanrının adına Yaradan dedik.

2003, 10 avqust

BÜTÜN ÜRƏKLƏRİ SEVİNDİR, ALLAH!

Allah, xoşbəxtliyi tək mənə vermə,
Əlləri ümiddən üzülənə ver.
Göz yaşı gecələr yanaqlarına,
Gündüzlər içinə süzülənə ver.

Heç zaman ürəklə qarşılamaram,
Tək mənim qapıma gələn sevinci.
Ataram kədərin ayaqlarına,
Qəlbimə girməmiş ölən sevinci.

Doğulan günündən şair ürəyi,
Doğma ocağındır, evindir, Allah.
Bir qəlbi, bir könlü, bir ürəyi yox,
Bütün ürəkləri sevindir, Allah!

2003, 22 avqust

QOŞA QURBANIM VAR

Dumduru çeşməyə dönmək istərəm,
Əyilib gözümdən bir içən olsun.
İki bəxtəvərlik öpsün gözümdən,
Biri günəş olsun, biri çən olsun.

Öyrətdim əlimi xeyir yazmağa,
Dəyir yaratmağa, dəyir yazmağa.
Gərək söz deməyə, şeir yazmağa,
Duru könül olsun, duru can olsun.

Təzənə əriyər telin yolunda,
Dağlar qurban gedər selin yolunda.
Qoşa qurbanım var elin yolunda,
Biri ürək olsun, biri can olsun.

2003, 10 oktyabr

GEDƏNLƏRƏ RƏHM EYLƏSİN HAQQ BİR AZ

Çox baxmısan şəhərlərin rənginə,
Dön indi də bu dağlara bax bir az.
Əcəl səni keçirməmiş çənginə,
Diril bir az, durul bir az, ax bir az,
Dön indi də bu dağlara bax bir az.

Bulud kimi oyna dağın başında,
Şimşək kimi gurla bir az, çax bir az.
Çiçəklərin gözlərinin yaşında,
Diril bir az, durul bir az, ax bir az,
Şimşək kimi gurla bir az, çax bir az.

Ana yurdun obasına qayıt gəl,
Həsrətini yandır bir az, yax bir az.
Tərlan quşun yuvasına qayıt gəl,
Gedənlərə rəhm eyləsin Haqq bir az.
Diril bir az, durul bir az, ax bir az,
Dön indi də bu dağlara bax bir az.

2003, 30 oktyabr

SÖZÜMƏ BAXMASAN, TALEYİMƏ BAX

Nə mən xırd satanam, nə sən xırd alan,
Döndərmə bu evi dükan-bazara.
Allahın o qədər xoş sözü var ki,
Dilini öyrətmə giley-güzara.

Bu, şair ömrüdü, sevmir zarafat,
Fikrimin, sözümün laylasına yat.
Ruhum üfüqlərdə çalanda qanad,
Qəlbim tuş gəlməsin ağrı-azara.

Nə inci, nə incit, nə yandır, nə yax,
Açıb əjdahatək ağzını torpaq.
Sözümə baxmasan, taleyimə bax,
Məni diri-diri salla məzara.

2003, 18 noyabr

AMAN ÖLÜM, MƏN DEDİYİM VAXTDA GƏL!

Sən dediyin vaxta sığmır arzular,
Aman ölüm, mən dediyim vaxtda gəl!
Təzə-təzə başlamışam uçmağa,
Aman ölüm, mən dediyim vaxtda gəl!

Selə dönüb yeriyəndə baxta su,
Gəlir ömrün qarı, buzu, şaxtası.
Hazırlansın tabutumun taxtası,
Aman ölüm, mən dediyim vaxtda gəl!

Gəl arada kişi kimi şərt kəsək,
Şərtimizi dürüst kəsək, mərd kəsək.
Söhbət edək, qəm doğrayaq, dərd kəsək,
Aman ölüm, mən dediyim vaxtda gəl!

Gəlin görüm qədəmləri sayalı,
Nəvə görüm halal süddən mayalı.
Nəsil görüm çiçəklərdən həyalı,
Aman ölüm, mən dediyim vaxtda gəl!

Ağlamasın sevgilimiz, yarımız,
Budağından kal düşməsin barımız.
Bir can borcu varımızdı, varımız,
Aman ölüm, mən dediyim vaxtda gəl!

Mən çiçəyəm, sən çiçəyə ac arı,
İnanmıram kimsə sənlə bacarı.
Vaxtsız ölüm bədbəxtliyin açarı,
Aman ölüm, mən dediyim vaxtda gəl!

Qapısını öz əlimlə döyərəm,
Əzrayıla "xoş gəlmisən" deyərəm.
Kəfənimi gülə-gülə geyərəm,
Aman ölüm, mən dediyim vaxtda gəl!

2003, 25 noyabr

SALAVAT ÇEVİR

Salamat qurtardın bu çaxnaşmadan,
Ağrına, ahına salavat çevir.
Nə yaxşı axşamın qara gəlmədi,
Gələn sabahına salavat çevir.

Bir anlıq donsa da damarında qan,
Keçdin ən sınaqlı bir imtahandan.
Uçmadı bədəndən, çıxmadı candan,
Xilaskar ruhuna salavat çevir.

Soldun – xəzəl oldun, açdın – gül oldun,
Ağrılar əlində yandın, kül odun.
Ölmədin, az qala, ölümcül oldun,
Tövbə, günahına salavat çevir.

Ölüm yaman dikib gözünü sənə,
Arabir çatdırır sözünü sənə.
Elə ki, çevirdi üzünü sənə,
Tanrı dərgahına salavat çevir.

Əcəllə cəng edib getmə dərinə,
Özü cavabdehdi xeyir-şərinə.
Yerdə imamına, peyğəmbərinə,
Göydə Allahına salavat çevir.

2004, 20 aprel

ÖLÜMLƏ TANIŞLIQ

Ölümlə tanışlıq belə başlanır,
Çəkilir canından od-atəş indi.
Yer-göy qucaqlasa, mənası yoxdur,
İsitməz canını min günəş indi.

Sən ki başdan-başa oddun, hənirdin,
Nə tez buludların qoynuna girdin?
Qolların gücünə çox güvənirdin,
Gəlib o pəhləvan, gəl güləş indi.

Bir az asta yeri, bir az asta gəz,
"Demə ki, tufanlar qəddimi əyməz".
Sənin mübarizən bir çöpə dəyməz,
Yüz vuruş, yüz döyüş, yüz əlləş indi.

Can nədir, canından çıxan ah bilər,
Ağrılar özünü taxtda şah bilər.
Kim kimi yıxacaq, bir Allah bilər,
Pəncə vur, əcəllə pəncələş indi.

2004, 19 aprel

GƏNC ŞAİRƏ

Girmə bu meydana soyuq ürəklə,
Köhnə dəmir kimi qızırsansa, gəl.
Qarşını kəssə də qayalı dağlar,
Qayadan damlatək sızırsansa, gəl.

Beşik böyüdəcək bələk deyəni,
Fələkdən üstün de fələk deyəni.
Tanrı buyuranı, mələk deyəni,
Peyğəmbər dilində yazırsansa, gəl.

Duyğular daşırsa sözün camında,
Həyat nurlanırsa könül şamında.
Fikir zirvəsində, söz məqamında,
İmamsan, Nəbisən, Xızırsansa, gəl.

İşıqsız, ilhamsız bir ömür hədər,
Sevgilin düşüncə, sirdaşın kədər.
Son dəfə çəkdiyin nəfəsə qədər,
Fikir əzabına hazırsansa, gəl.

2004, 9 iyul

ÖZÜN YAZDIN HƏR QİSMƏTİ

Bu öy mənim öyüm deyil,
Özünsən öyün sahibi.
Yıxan da sən, qaldıran da,
Bu kəndin, köyün sahibi.

Oddan eşqin, nurdan üzün,
Tərəfisən haqqın, düzün.
Quranın, kitabın, sözün,
"Əlif"in, "bey"in sahibi.

Sümüyə bürüdün əti,
Özün yazdın hər qisməti.
Dizimdən alma qüvvəti,
Dizimdə heyin sahibi.

Qara bəxtim, qara çuxam,
Sənin əlin, mənim yaxam.
Mən kiməm ki, şərik çıxam,
Sənsən hər şeyin sahibi.

Gecə-gündüz çəkər ahı,
Zəlimxandı dərdin şahı.
Bağışla varsa günahı,
Ey yerin-göyün sahibi.

2004, 30 iyul
Truskavets

VAXTSIZ AYRILMASIN DURNA QATARDAN

Bu, şair ömrüdü, qıyma sən Allah,
Ruh bədəndən çıxsın, canda can ölsün.
Vaxtsız ayrılmasın durna qatardan,
Nə qanad qırılsın, nə insan ölsün.

Dünyadan dünyatək gedir hər gedən,
Kim qaçıb dərd adlı bir düşərgən?
İnsandı ayrılıb gedən cərgədən,
Nə fərqi – ya nökər, ya da xan ölsün.

Dən gətir, dənimi, xırmanımı ver,
Dərd kimə gərəkdi, dərmanımı ver.
Yüz il yaşamağa fərmanımı ver,
Qoyma bu yaşında Zəlimxan ölsün.

2004, 1 avqust

MƏNƏ DÜNYA BAĞIŞLA

Məcnun olmaq istərəm,
Mənə səhra bağışla.
Balıq olmaq istərəm,
Mənə dərya bağışla.
Baş qoyum dizin üstə,
Mənə layla bağışla.
Sevmək zamanı gəldi,
Qaynar çeşmə, göy çəmən,
Güllü yayla bağışla.
Əsirgəmə, ey gözəl,
Dünyanı istəyirəm,
Mənə dünya bağışla.

2004, 27 sentyabr

HAQDAN NEMƏT İSTƏDİM

Haqdan nemət istədim,
Göy çəmənlər təravət,
Gur bulaqlar su verdi.
Haqdan nemət istədim,
Arıdan bal ayırdı,
Sürüdən quzu verdi.
Haqdan nemət istədim,
İlahi sevgisindən,
Tükənməz ruzu verdi.

2004, 27 sentyabr
Cenevrə

DANIŞSIN

Poeziya məclislərinin birində uzun-uzadı, mənasız, mətləbsiz çıxışlar, söhbətlər gedirdi. Məclisi təravətli sonluqla bitirmək üçün Mikayıl Mirzənin çıxışını axıra saxlamışdılar. Dözə bilmədim, elə oradaca bu sətirlər dilə, qələmə gəldi.

Sözü sahibinə, yiyəsinə ver,
Qoyma hər danışan hərzə danışsın.
Zili qaydasında, bəmi yerində,
Danışır, Mikayıl Mirzə danışsın.

Dərmanı kimdədi üzülən canın?
Günahı kimdədi tökülən qanın?
Başı nələr çəkdi Azərbaycanın, –
Cahana söyləsin, ərzə danışsın.

Sağalsın millətə vurulan yara,
Çəksin kəmfürsəti boğazdan dara,
Gur səsi yetişsin kar qulaqlara,
Salsın ürəklərə lərzə, danışsın.

Dilində gəncliyin, sabahın sözü,
Sözün silahı var, silahın sözü.
Allahlıq eyləsin Allahın sözü,
Çevrilsin şeşpərə, gürzə danışsın.

2004, 30 noyabr

QIZ, SƏNİ ALLAH QORUSUN

Söz də dəyər, göz də dəyər,
Qız, səni Allah qorusun.
Gec də dəyər, tez də dəyər,
Qız, səni Allah qorusun.

Yanaqların zərisənmi,
Şehisənmi, tərisənmi,
Hurisənmi, pərisənmi,
Qız, səni Allah qorusun.

Əyri yoldan, çaşqın izdən,
Boz baxışdan, sürtük üzdən,
Acı sözdən, yaman gözdən,
Qız, səni Allah qorusun.

Yaraşığın işvəylə naz,
Nəfsin bahar, nəfəsin yaz,
Üzərliyin gücü çatmaz,
Qız, səni Allah qorusun.

Sındırmasın dolu camı,
Söndürməsin yanan şamı,
Qəbul eyləsin duamı,
Qız, səni Allah qorusun.

Baxışların nuru yanmaz,
Odu sönər, qoru yanmaz,
Bəndə səni qoruyammaz,
Qız, səni Allah qorusun.

Damar döyür, qan nə çəkir,
Qəlb alışır, can nə çəkir,
Gör bir Zəlimxan nə çəkir,
Qız, səni Allah qorusun.

2005, 15 mart
Hacı Bəktaş dərgahında,
Türkiyə

HALALLIQ

Çölləri, düzləri gözəlləşdirər,
Çiçək halallığı, gül halallığı.
Tanrım, dolaşdırma mən gedən yolu,
Yaz mənim bəxtimə yol halallığı.

Yetirər, bitirər, şumlayar, əkər,
Yazın da, qışın da nazını çəkər,
Südünə su qatmaz, balına şəkər,
Dönər bərəkətə əl halallığı.

Zülmətə işıqdı, qıfıla açar,
Nurdu, zərrələri hər yana saçar.
Haramdan çəkinər, yalandan qaçar,
Şahlara dərs olar qul halallığı.

Üzünü Haqq adlı Birə çevirir,
Daşı parıldadıb zərə çevirir,
Yurdu ziyarətə, pirə çevirir,
Ocaq halallığı, kül halallığı.

Məni öz bəxtimlə canhacan eylə,
Halal səhər eylə, halal dan eylə.
İlahi, payımı halaldan eylə,
Məndən əsirgəmə bol halallığı.

2005, 25 iyun

BU QƏDƏR LİLİNDƏ BATMA NİFRƏTİN

Bu qədər lilində batma nifrətin,
Didər nifrət ömrü, didər kin ömrü.
Nə Ay sevindirər, nə Gün güldürər,
Özü öz içində didərgin ömrü.

Verilən suala cavab tap, cavab,
Çəkməyə dəyərmi çəkilən əzab?
Hardandı insanda bu qədər qəzəb,
Nə qədər uzunmuş bu dərkin ömrü.

Gördüyü hədədi, aldığı zədə,
Tuş gələr yamana, rast gələr bədə.
Allah heç verməsin düşmənimə də,
Bu qədər narahat bir gərgin ömrü.

2005, 10 iyul

YARAŞIQ KİMİ

Odumun, suyumun yar-yaraşığı,
Yasımın, toyumun yar-yaraşığı,
İsti nəfəsimin, dolu qəlbimin,
Ucalan boyumun yar-yaraşığı,
Mənim yeddi arxa dönənlərimin,
Əslimin, soyumun yar-yaraşığı,
Getmə gözlərimdən, getmə uzağa,
Çal mənim qəlbimi bir aşıq kimi,
Qal mənim ömrümdə yaraşıq kimi.

2005, 23 dekabr

DÜNYANIN QOVŞAĞI MƏNLİK DEYİLMİŞ

Yerdən nur çəkilib, çiçəkdən ətir,
Kədər dalğa-dalğa, qəm sətir-sətir.
Hünəriniz çatır, gücünüz yetir,
Bu qışdan bu yaza çıxardın məni.

Kor olan gözlərə gur işıq tapın,
Yöndəmsiz yönlərə yaraşıq tapın.
Ölüdən, diridən bir aşıq tapın,
Bir sözə, bir saza çıxardın məni.

Həsrət əbədiymiş, günlük deyilmiş,
Hər səs, hər mərəkə şənlik deyilmiş.
Dünyanın qovşağı mənlik deyilmiş,
Batıram, dayaza çıxardın məni.

2005, 27 dekabr

GÖYLƏRƏ QISQANMA MƏNİ

Qulağıma gələn səslər
ürəyimdən xəbər vermir,
Sevgi üçün yaranmışam,
nifrət ilə anma məni.

Dirilərin cərgəsində
addımlayan həqiqətəm,
Yaddaşların sərvətiyəm,
gəldi-gedər sanma məni.

Haqqı danmaq göy üzündə
Günəşi danmaq kimi,
Nə deyirsən haqqına de,
nahaq yerə danma məni.

Yer dayağım, göy qismətim,
ulduzlar ağ çiçəklərim,
Uçmaq üçün doğulmuşam,
göylərə qısqanma məni.

2006, 4 yanvar

RUZU

Susuzam, su gətir, su,
Yanğılı ürəyimə
Səpsərin su çiləmək,
Qəlbin ən xoş arzusu.
İçmək istərəm səni,
Su kimi damla-damla.
Süzül damarlarıma,
Asta-asta, aramla.
Susuzam, su gətir, su,
Dirilik çeşməsini,
Baxışlarından içmək –
Nə böyük sərvətdi bu.
Susuzam, su gətir, su,
Sən verən sudan olsun,
Qoy şairin qisməti,
Qoy şairin ruzusu!

2006, 4 yanvar

TANRIYA SÖZÜM

Fikrim göydə, əlim Haqda,
Yolda boran, izdə şaxta.
Ömür gündə bir sınaqda,
Mənə güc ver, güc, ay Tanrım.

Yaraşmır yaşıma bu yas,
Qəlbim incə, ruhum həssas.
Ana kimi bağrına bas,
Bala kimi quc, ay Tanrım.

Göylərə qalxan həvəsəm,
İsti, doğma bir nəfəsəm.
Məni ki səndən gələn səsəm,
Olma mənlə öc, ay Tanrım.

Yanlış namazmı qılmışam,
Namazı azmı qılmışam?
Tanrıya nazmı qılmışam? –
Baxma mənə kəc, ay Tanrım.

Acı dilin günahıdı,
Qara yelin günahıdı.
Günah çölün günahıdı,
Çürüyürsə iç, ay Tanrım.

Ürək çat-çat, para-para,
Günahsızı çəkmə dara.
Özün axtar, özün ara,
Gör kimdədi suç, ay Tanrım.

Yolları ulduz, Ay eylə,
Sevgini daşqın çay eylə.
Qapını taybatay eylə,
Aç üzümə, aç, ay Tanrım.

Ucalıq var, şərəf-şan var,
Səndə hər şeydən nişan var.
Əmrində bir kəhkəşan var,
İşığını saç, ay Tanrım.

Başıma qar yağa-yağa,
Səndən ötrü çıxdım dağa.
Getmə gözümdən uzağa,
Ürəyimə köç, ay Tanrım.

Sellər coşan, yellər əsən,
Kim kəsdirən, kimi kəsən.
Mən deyəni eşitməsən,
Keç başımdan, keç, ay Tanrım.

2006, 23 yanvar

ALIN YAZISI

Tanışdımı yazı sana,
Bax alnımın yazısına,
Bax bir Allah rizasına,
Gör bir orda nə yazılıb?

Gizlidimi, bəllidimi,
Dərddimi, təsəllidimi,
Misalların həllidimi,
Gör bir orda nə yazılıb?

Nə yazıdı – yozmaq olmur,
Nə yazıdı – pozmaq olmur,
Əl xəttiylə yazmaq olmur,
Gör bir orda nə yazılıb?

Qalmaq, yoxsa, bürünməkdi,
Batmaq, yoxsa görünməkdi,
Uçmaq, yoxsa sürünməkdi,
Gör bir orda nə yazılıb?

Sevinc çoxdu, yoxsa ələm,
Qılınc yazıb, yoxsa qələm,
Neçə hərfdi, neçə rəqəm,
Gör bir orda nə yazılıb?

Görən, duyan tapılmadı,
Açan, soyan tapılmadı,
Bir oxuyan tapılmadı,
Gör bir orda nə yazılıb?

2006, 7 fevral

BİR AZ XOŞBƏXT EYLƏ MƏNİ

Torpaqsan, səngərin olum,
Səngərsən, əsgərin olum.
Əsgərsən, silahın olum,
Silahsan, kəsərin olum.
Kitabsan, şeirin, dastanın,
Qələmsən, əsərin olum.
Xoşbəxt olmaq istəyirəm,
Bir az xoşbəxt eylə məni.

Üfüqsən, günəşin olum,
Ocaqsan, atəşin olum.
Tarlasan gülün, gülşənin,
Zəmisən, küləşin olum.
Bu dünya beş günlükdürsə,
Dönüm sənin beşin olum.
Xoşbəxt olmaq istəyirəm,
Bir az xoşbəxt eylə məni.

Ötüb-keçən günlərimin,
Ruhumda göynəyi qalıb.
Keçmiş keçib, əllərimdə
Bir qanlı köynəyi qalıb.
Yaşa dolan çağlarımın
Əlimdə əsası qalıb,
Gözümdə eynəyi qalıb.
Hardan bilim gödək ömrün
Nəyi gedib, nəyi qalıb?
Xoşbəxt olmaq istəyirəm,
Bir az xoşbəxt eylə məni.

Səndən dünya istəmirəm,
Səndən yer-göy istəmirəm,
Gözümə nur istəmirəm,
Dizimə hey istəmirəm.
Nə var-dövlət, nə şan-şöhrət,
Heç nə, heç şey istəmirəm.
Xoşbəxt olmaq istəyirəm,
Bir az xoşbəxt eylə məni.
Zaman gülsün ürəyimdə,
Bir az xoşbəxt eylə məni.

2006, 14 fevral

ÖMÜR YOLU

Ömür yolu məndən
səbir istəyir,
Ömür yolu məndən
qəbir istəyir.
Həyat yolu başdan-başa
döyüşdür,
Bu döyüşlər şir oğlu
şir istəyir.

SEVGİ

Qocalmısan, tök bu daşı
ətəyindən,
Nura çevril, kinli olma
dəvə kimi.
Ağsaqqal ol, öpüm sənin
əllərindən,
Öpüm səni oğul kimi,
nəvə kimi.

SUSMAQ ƏZABI

Qəlbin tellərini ürəklə dindir,
Baldan şirin olsun yazmaq əzabı.
Yazmaq əzabından daha çətindir,
Yazmamaq əzabı, susmaq əzabı.

Qəlbin fəryadından saçda dən doğur,
Dağların ahından duman-çən doğur.
Ağır misraların yükündən doğur,
Şairin özünü asmaq əzabı.

TARİX

Ruh dilində danışdır,
Şah dilində danışdır,
Dünənin zəmanəti,
Ruhu incə tarixi.

Ələ, şumla, ək, çevir,
Torpaq axtarış sevir.
Xamlamış torpaq kimi,
Qoyma dincə tarixi.

Dindirəni yoxdusa,
Dili-ağzı açılmaz.
Tilsimini qırmasan,
Xəzinəsi saçılmaz.
Qapılar aç üzünə,
Qoyma qapı dalında,
Sıxma küncə tarixi.

Təbrizdə nələr oldu,
Nələr gördük Gəncədə?
Çarpışırıq min ildi
Yadla pəncə-pəncədə.
Yüz illərdi Qarabağ
Əzabda, işgəncədə,
Tariximiz bir əzab,
Bir işgəncə tarixi.

Qələmini itilə,
Uzaq yollar qət eylə,
Səni gözləyir, oğul,
Bakı, Dərbənd, Borçalı,
Təbriz, Gəncə tarixi.

ZƏLİMXAN NƏ YAZSA, SAZ DİLİNDƏDİ

Qığılcım ocağın bağrından qopar,
Odun məhəbbəti köz dilindədi.
Him-cim, kirpikçalma, işarə, eyham,
Baxış dilindədi, göz dilindədi.

Kəkliyin dilində daş danışır, daş,
Qəmin əsəridi gözümdəki yaş.
Bizim dilimizdə nə var ki, qardaş,
Nə varsa Tanrının öz dilindədi.

Gözəllər danışır mələk dilində,
Mələklər danışır fələk dilində.
Yazın hərarəti çiçək dilində,
Qışın soyuqluğu buz dilindədi.

Həzin nəğmələri dodaqlar sevər,
Nazlı gülüşləri bulaqlar sevər,
Qarı nağılını uşaqlar sevər,
İlahi sevgilər qız dilindədi.

Yorulmaz köhləni, büdrəməz atı,
Ocaqdı, torpaqdı ömrü, həyatı.
Zəlimxan nə yazsa – qoşma, bayatı,
Zəlimxan nə desə, saz dilindədi.

2003, 1 may

QULLUĞA
NÖKƏR GƏLƏR

Sənin ziyarətinə
gəlməmək mümkündürmü?!
Təkcə mən yox, bu dünya
nazını çəkər gələr.

Orduların önündə
dizə çökməz oğullar,
Gözəllərin önündə
diz üstə çökər gələr.

Pətəyinə, şanına
qonan zaman arılar,
Dodağından bal süzər,
dilindən şəkər gələr.

Sən sevginin şahısan,
mən sevginin nökəri,
Adətdi şah yanına
həmişə nökər gələr.

2003, 3 iyun

BİR MƏLƏK ÇIXA

Boylanır – baxışı göyün sevinci,
Yeriyir – yerişi yerin sevinci,
Hansı dənizdəndi bu parlaq inci,
Kimindi dünyanın şirin sevinci?

Sevgidə Allahlıq eyləyə bəndə,
Tək ola, tək gələ, yola tək çıxa.
Hər səhər evindən işə gedəndə,
Qarşına beləcə bir mələk çıxa.

2003, 4 iyun

SEVGİ QANAD VERDİ MƏNƏ

Arzulara çatmaq üçün
Zaman bir at verdi mənə.
"At muraddı, min çap" – dedi,
Tanrı murad verdi mənə.

Quraqladı, yağışladı,
Naxış vurdu, naxışladı,
Səhra dəvə bağışladı,
Dərya Qırat verdi mənə.

Şeirim çeşmə, qəlbim bulaq,
İçimdədir yaxın, uzaq,
Yerdə kökəm, göydə budaq,
Sevgi qanad verdi mənə,

Özüm ovçu, ruhum səyyah,
Qələmim qul, ilhamım şah,
"Yarat" – dedi qadir Allah,
Qaynar həyat verdi mənə.

Saldım nurlu yolu sözdən,
Bir yük tutdum dolu sözdən,
Ulu Tanrım ulu sözdən
Bol ehtiyat verdi mənə.

2003, 16 iyun

ZƏLİMXAN, RUHUN VAR GÜLDƏ, ÇİÇƏKDƏ

Qabarıb çəkilən dəniz ömrümün
Dənizi çəkilər, adası qalar.
Başımda zamanın ağrısı göynər,
Canımda illərin qadası qalar.

Gözəllik Allahım, gözəllər şahım,
Görüşü sevincim, həsrəti ahım,
Saz ruhum, söz canım, qələm silahım,
Mənə öz ruhumun qidası qalar.

Zəlimxan, ruhun var güldə, çiçəkdə,
Təntimə sazaqda, sınma küləkdə,
Eşidən qulaqda, duyan ürəkdə,
Şair şöhrətinin səsası qalar.

2003, 9 sentyabr

SÖZ

Qarşımda varaqdı, əlimdə qələm,
Sözün bölümündə, bölgəsindəyəm.
Söz yaşıl ağacdı, mən sevən adam,
Böyük yaşıllığın kölgəsindəyəm.

Söz ilə yaşanıb tarixdə hər yaş,
Söz ilə qoyulub daş üstünə daş.
Söz böyük vətəndi, şair vətəndaş,
Sözün ən müqəddəs ölkəsindəyəm.

Sözlə bu dünyanı quran olmuşam,
Sözlə kitab olub, Quran olmuşam,
Sözlə Türk olmuşam, Turan olmuşam,
Sözün Oğuzunda, Bilgəsindəyəm.

2003, 13 sentyabr

YADDAŞIM MƏNİM YOX, YADDAŞLARINDI

Qələmim yük tutub halal mayadan,
İlhamım nə sükut, nə lallıq bilir.
Çəkib şirəsini dağdan, qayadan,
Sözü ən müqəddəs halallıq bilir.

Yaddaşım mənim yox, yaddaşlarındı,
Sözüm sözlərindi, sazım sazların.
Ruhum gah neyindi, gah da tarındı,
İçində mən varam bu avazların.

Yetirib, bitirib yaşatmağı var,
Bu qara torpaqdı, bu şumdu, lələ.
Əriyib itməyən bu qayalıqlar
Mənim yaddaşımdı, huşumdu, lələ.

Mənim misra-misra şeirlərimi,
Açan çiçək yazır, yağan qar yazır.
Sazın ötən səsi, dillənən simi,
Elin dilindəki alqışlar yazır.

Talamaq olmadı adətim, peşəm,
Şeirə səcdəsini qılan ömrümü.
Bu gün qələmimlə möhürlənmişəm,
Min ildən sonraya qalan ömrümü.

2003, 22 sentyabr

FÜRSƏT VERDİ ALLAHIMIZ

Nəfəs verdik, nəfəs aldıq,
Dağlar əlacımız oldu.
Bircə anda unudulan,
Ağzımız, acımız oldu.

Cavanlığa qayıtdı yaş,
Gözdə qəm yox, ruhda təlaş.
Öpdüyümüz hər qara daş,
Kəbəmiz, hacımız oldu.

Göylərə dəydi başımız,
İtiləndi yaddaşımız.
Məğrur qaya – qardaşımız,
Tər çiçək bacımız oldu.

Dünya yenə həmən-həmən,
Duyğulardı şehdə çimən.
Naxışlı düz, yaşıl çəmən,
Əriş-arğacımız oldu.

Günəş bizi tutdu zərə,
Cənnətimiz hər dağ-dərə.
Döndük dağda peyğəmbərə,
Göyə meracımız oldu.

Fürsət verdi Allahımız,
Güldü axşam-sabahımız.
Gözəllər könül şahımız,
Gözəllik tacımız oldu.

2003, 29 sentyabr

HALAL SEVGİLƏRİN UZUNDUR ÖMRÜ

İşığı ulduzdan, Aydan götürər,
Halal sevgilərin uzundur ömrü.
Saflığı çeşmədən, çaydan götürər,
Halal sevgilərin uzundur ömrü.

Heç kəsin payından tikə götürməz,
Düşsə də ən ağır yükə, götürməz.
Selə ver, oda at, ləkə götürməz,
Halal sevgilərin uzundur ömrü.

Baxmaz nə yağışa, nə qara baxmaz,
Çiçəyi tez solan bahara baxmaz.
Baxdığı ürəkdi, kənara baxmaz,
Halal sevgilərin uzundur ömrü.

Örtəmməz üstünü nə ot, nə alaq,
Yüz yerdən peyvənddi, min yerdən calaq.
Kəsəmməz yolunu çarmıx, daşqalaq,
Halal sevgilərin uzundur ömrü.

Fitnə ağırlığı, şər yükü yoxdu,
Peyğəmbər ömrünün şəri ki yoxdu.
Allah sevgisinin şəriki yoxdu,
Halal sevgilərin uzundur ömrü.

Dünyada nə dövlət, nə malın olsun,
Sevgi varın olsun, cəlalın olsun.
Halal sevirsənsə, halalın olsun,
Halal sevgilərin uzundur ömrü.

2003, 7 dekabr

BÖYÜK SEVGİLƏR

Sevənlər birləşəndə bir ürək, bir can olur,
Gecə-gündüz nur yağır rəngindən, çöhrəsindən.
İstər dəryaya tulla, istər qayalardan at,
Öldürsən də əl üzməz Tahir öz Zöhrəsindən.

İlmə-ilmə toxunub, yaşıl ağa sarılar,
Gül çəmənə, şeh düzə, qaya dağa sarılar.
Yun əyrilib ip olar, sap yumağa sarılar,
Düyçələr dolub çıxar zamanın cəhrəsindən.

Ölməz böyük sevgilər, ölüm təhlükə bilməz,
Gözündə su bulanmaz, aynası ləkə bilməz,
Min illər gəlib keçə, heç vaxt əl çəkə bilməz,
Fərhad öz qayasından, Məcnun öz səhrasından.

2004, 31 oktyabr

QUŞ VƏ BUDAQ

Ağac üçün quşların
Çəkisi bir tük olmaz.
Yuva qurar budaqda,
Quş ağaca yük olmaz.

Quşların vətənidir,
Çalın-çarpaz budaqlar.
Çadırı, sarayıdı,
Yaşıl-yaşıl yarpaqlar.

Hər quş öz yuvasını,
Dimdiyiylə toxuyur.
Qulaq versən, bilərsən,
Məhəbbətdən oxuyur.

2004, 7 fevral
Almaniya, Bilefild

SEVƏNLƏR HƏMİŞƏ MÖHTƏRƏM OLUR

Sevinc gözləməsin sevən dünyadan,
Qisməti çox zaman kədər-qəm olur.
Can şamda titrəyən şöləyə dönür,
Göz dolur, boşalır, kirpik nəm olur.

Meyli qıza düşür, qadına düşür,
Hərə bir gözəlin oduna düşür.
Kim cəfa çəkirsə, od ona düşür,
Gah Qərib, gah Məcnun, gah Kərəm olur.

Nazıyla oynamaq adətim, peşəm,
Sevgidi varlığım, sevgidi peşəm.
Sevənlər həmişə məğrur, möhtəşəm,
Sevənlər həmişə möhtərəm olur.

2005, 2 fevral

SEVİNDİ CANLI-CANSIZ

Qurban olum Allaha,
Dünyanı sirr yaratdı.
Hər şeyi cüt yaradan,
Özünü bir yaratdı.

Öpüşəndə su-torpaq,
Gül açır dodaq-dodaq.
Sevəni sönməz ocaq,
Sevgini pir yaratdı.

Sevindi canlı-cansız,
Heç kəs qalmadı yalqız.
Tanrı səni gözəl qız,
Məni şair yaratdı.

2005, 3 mart

YAY GECƏSİ

Bu mənim gecəmdi,
bu mənim gecəm,
Bulaq gecəsidi,
çay gecəsidi.
Bir zərrə qaranlıq
yoxdu dünyada,
Bir aylı, ulduzlu
yay gecəsidi.

Yaradan möcüzə,
yaradılan sirr,
Mübarək üzünü
Allaha çevir.
Çiçəklər sevişir,
mələklər sevir,
Ana təbiətin
toy gecəsidi.

Bir gecə yatmasaq
qəbahət olmaz,
Təbiətdən böyük
ziyarət olmaz.
Heç kəsdə bu qədər
səxavət olmaz,
Tanrının şairə
pay gecəsidi.

2005, 19 iyul

VERMƏ QOCALIĞA CAVAN ÖMRÜNÜ

Sənə bağışladım,
sənə bağladım,
Sevilən ömrümü,
sevən ömrümü.
Mən sənin gücünlə
qoruya bildim,
Nisgili qapıdan
qovan ömrümü.

Yaşım yüzü keçdi,
mini haqladı,
Nəfəsim yer öpdü,
göy qucaqladı.
Sevgin, məhəbbətin
diri saxladı,
Dərdin ürəyini
ovan ömrümü.

Qalsın əl beləcə,
ətək beləcə,
Qalsın bal beləcə,
pətək beləcə.
Yolu sona qədər
gedək beləcə,
Vermə qocalığa
cavan ömrümü.

2005, 21 iyul

QIZLAR BULAĞINDAN SU İÇƏN GÖZƏL

Tanrı dərgahından gələn ruzu var,
Gözünlə sığalla, əlinlə yu ver.
Alışdı ciyərim, bir dolça su ver,
Qızlar bulağından su içən gözəl.

Ay nuru, gün odu, qar işığısan,
Hər kimə yar olsan, yar işığısan.
Bal ilə qaymağın qarışığısan,
Qızlar bulağından su içən gözəl.

Xına gecəsində qızarar əllər,
Gözəllik vaxtında özünü ləllər,
Sən içən bulağa qurban kəsəllər,
Qızlar bulağında su içən gözəl.

Güllərin canından şirə çəkirsən,
Göyü cazibənlə yerə çəkirsən,
Məni eşq adlanan pirə çəkirsən,
Qızlar bulağında su içən gözəl.

Ürəyim az qalır uçan quş olsun,
Kim var ki, sevməkdən yorulmuş olsun?
İç, içə bildikcə, sənə nuş olsun,
Qızlar bulağında su içən gözəl.

2005, 22 iyul

SU İÇMƏYƏ GƏLƏN QIZ

Su içməyə gələn qız,
İç, halal xoşun olsun.
Burda növbə sənindi,
Keç, halal xoşun olsun.

Bir alışan can durur,
Durur, beyni qan durur.
Sevən bir oğlan durur,
Seç, halal xoşun olsun.

Su varsa, içməlisən,
Yarını seçməlisən,
Bir qəlbə köçməlisən,
Köç, halal xoşun olsun.

2005, 27 iyul

ALLAH SEÇİB

Bir qız gördüm, yanağına
Çiçək dedim, çiçək dedim.
Gözəlliyin sağlığına,
İçək dedim, içək dedim.

Gözündəki oda qurban,
Dilindəki dada qurban.
Ata verən ada qurban,
Mən adına "Göyçək" dedim.

Öz başları, öz əlləri,
Od dilləri, köz əlləri,
Allah seçib gözəlləri,
Biz də sevək, seçək dedim.

2005, 23 sentyabr

BƏZƏDİ

Təzə bir yaraşıq verdi, məclisimi saz bəzədi,
Şirin xallar cilvələndi, sazı bir avaz bəzədi.

"Sarıtel"in qanadında cilvələndi qara tellər,
Oğulları sevgi fəsli, gözəlləri naz bəzədi.

Duyan könül, sevən ürək yatdı səsin laylasına,
Vaxtın bircə gecəsini neçə sərvinaz bəzədi.

Qar əridi, yer altından baş qaldırdı qərənfillər,
Ömrü qışın arxasınca açıb gələn yaz bəzədi.

Döndü bərəkətə yerim, maya tutdu məhəbbətdən,
Əkən əkdi, biçən biçdi, sünbülü dəryaz bəzədi.

Gücmü çatır bircə saat vaxtı tutub saxlamağa,
Naxış vuran, bəzək verən ruhumuzu az bəzədi.

Zəlimxanın qollarına yeddi nərin gücü gəldi,
Koroğlunun meydanını sanki Xan Eyvaz bəzədi.

2006, 21 yanvar

ACLIQ

Zirvələrdən doymaq olmur,
qardan papaq, günəşdən tac,
gözəlliyə gözlərim ac.
Hey gəz deyir, dolan deyir
bu yastana, bu yal-yamac,
gözəlliyə gözlərim ac.
Səhər yeli, dağ havası,
ruha məlhəm, dərdə əlac,
gözəlliyə gözlərim ac.
Sığın palıd kölgəsinə,
bax meşələr ölkəsinə,
Beşiyimiz, tabutumuz
min bir adda min bir ağac,
gözəlliyə gözlərim ac.
Yaşıllıqdan doymaq olmur,
Toxuculuq dərsi keçir.
Min bir xalı, əriş-arğac,
gözəlliyə gözlərim ac.
Yaradanın yaratdığı
gözəl olan hər nə varsa,
Ürək təşnə, könül möhtac,
gözəlliyə gözlərim ac.
Min il gəzsəm, min il yazsam,
Tanrı əgər versə rəvac,
Yenə doydum deyəmmərəm,
gözəlliyə gözlərim ac.

2006, 5 fevral

SUBAY QIZIN SUALI

Hər quşun öz yuvası var,
Hər Adəmin Həvvası var.
Hər ömrün sevilən fəsli,
Hər fəslin öz havası var.
Sevişdi göylər, buludlar,
Sevişdi quşlar, böcəklər,
Məni nə vaxt sevəcəklər?

İki baş yastığa gəldi,
İki əl dörd əlin oldu.
Qonşumuzun qızı köçdü,
Qonşu kənddə gəlin oldu.
Qovuşdu əllər, ətəklər,
Süzüldü ballar, pətəklər,
Sevişdi ağ kəpənəklər,
Məni nə vaxt sevəcəklər?

Boy-buxunum ölçülüdür,
Həsrətim ölçüyə gəlməz.
İnsaf oğlan ürəyinə,
Rəhm bir elçiyə gəlməz.
Köz ilə kömür sevişir,
Daş ilə dəmir sevişir,
Qayayla mamır sevişir,
Sevişir bağda bülbüllər,
Sevişir düzdə çiçəklər,
Məni nə vaxt sevəcəklər?

Daha hamı qışdan çıxıb,
Hamı yaza doğru gedir.

Arı uçur çəmənlərə,
Oğlan qıza doğru gedir.
Yağışla torpaq öpüşür,
Budaqla yarpaq öpüşür,
Dil ilə dodaq öpüşür.
Tək olan bir Yaradandı,
Qoşalaşır bütün təklər,
Məni nə vaxt sevəcəklər?
Məni nə vaxt sevəcəklər?

2006, 21 fevral

ALLAHA YAXINLIQ

Hamı görmək, götürmək,
hamı duymaq istəyir,
Harda varsa gözəllik,
ora bir axın olur.
İnsan oğlu, Tanrını
təbiətlə dərk edir,
Təbiəti duyanlar
Allaha yaxın olur.

2004, 5 oktyabr

GÖZLƏYİRƏM

Dan yerində sevinc var,
Sabahı gözləyirəm.
Sabahdan nə fəryadı,
Nə ahı gözləyirəm.

Yol müqəddəs, mən atlı,
Fikrim qollu-qanadlı,
İlahidən söz adlı,
Silahı gözləyirəm.

Sultanı taxt çağırır,
Xoşbəxti bəxt çağırır,
Görək nə vaxt çağırır,
Allahı gözləyirəm.

ATATÜRK KÖŞKÜNDƏ KEÇƏN GÜNLƏRİM

Birinci dəfə ürəyimin ağrıları ilə bağlı Almaniyaya müalicəyə gedirdim. Dostlarımın arzusunu nəzərə alaraq bir neçə günlüyə İstanbulda Atatürk köşkündə qalmalı oldum. Bu köşk 1935-ci ildə Atatürkün sağlamlığını qorumaq üçün həkimlərin məsləhəti ilə 48 gün müddətində tikilib. Təəssüf ki, Atatürk burada iki il yaşaya bilib. Bu köşkün hər yerində, hər qarışında ulu öndərin xatirəsi canlanır, qəhrəmanlıqlarla dolu bir ömrün müqəddəs, unudulmaz anları xatırlanır. O xatirələrin havasını udmaq, şirinliyini dadmaq, səmimi misralar dilində danışdırmaq mənə də qismət oldu.

Məni ovsunladı bir ad, üç heca,
Oldum müsafiri üç gün, üç gecə.
Oğlumdan cavandı, babamdan qoca,
Atatürk köşkündə keçən günlərim.

Tanrı qüdrətiydi, Tanrıydı-nəydi,
Əyilməz başları önündə əydi.
Əlli il sürdüyüm bir ömrə dəydi,
Atatürk köşkündə keçən günlərim.

Döyüşün şiddəti, şəhidin adı,
Yurdun şirinliyi, Vətənin dadı.
Gör mənə nələri xatırlatmadı,
Atatürk köşkündə keçən günlərim.

Türkün tükənməyən eşqinə döndü,
Sevinci selləndi, daşqına döndü.
Ömrümün əbədi köşkünə döndü,
Atatürk köşkündə keçən günlərim.

Bozqurda bəslənən qurd sevgisidi,
Torpaq ağrısıydı, yurd sevgisiydi.
Türkü sevənlərin mərd sevgisiydi,
Atatürk köşkündə keçən günlərim.

Min kitab yazsan da, demə bəsidi,
Yaddaşın harayı, ruhun səsidi.
Allahın şairə hədiyyəsidi,
Atatürk köşkündə keçən günlərim.

Çox ömrün payına qar-şaxta düşdü,
Cana nə düşdüsə sazaqda düşdü.
Ürəyim ağrıyan bir vaxta düşdü,
Atatürk köşkündə keçən günlərim.

Odası çevrildi otağım oldu,
Yatdığı çarpayı yatağım oldu.
Batmaz səsim oldu, sorağım oldu,
Atatürk köşkündə keçən günlərim.

Mustafa Kamalın xəstə günləri,
Eşitdim səsləri, duydum ünləri.
Açdı çox sirləri, çox düyünləri,
Atatürk köşkündə keçən günlərim.

Yerdən də, göydən də həvəs alırdı,
Bir soraq alırdı, bir səs alırdı.
Onun ciyəriylə nəfəs alırdı,
Atatürk köşkündə keçən günlərim.

Ana sevgisiylə açıb qolunu,
Göstərdi tarixdən gələn yolunu.
Mənə tanıtdırdı Anadolunu,
Atatürk köşkündə keçən günlərim.

Qaçmadı ölümdən, qorxmadı yasdan,
Oldu Çanaqqala dillərdə dastan.
Başladı Samsundan, çıxdı Sivasdan,
Atatürk köşkündə keçən günlərim.

Ümiddi, inamdı, qeyrətdi mənə,
Min il tükənməyən sərvətdi mənə.
Həqiqət tarixi öyrətdi mənə,
Atatürk köşkündə keçən günlərim.

Türk nə, Türkiyə nə, Türküstan nədir,
Cahanda Türk adlı bu cahan nədir.
Dedi igid kimdi, qəhrəman nədir,
Atatürk köşkündə keçən günlərim.

Gah sevinc yaşandı, gah da qəm oldu,
Gözümdə müqəddəs bir aləm oldu.
Ən şirin, ən dadlı xatirəm oldu,
Atatürk köşkündə keçən günlərim.

2004, 3 noyabr
İstanbul,
Avropa yaxası, Atatürk köşkü

HAMARKƏND

Hamarkənd – Yardımlıda Sabir Rüstəmxanlının doğulduğu kəndin adıdı

Nə gözəl yerdəsən
Hamarkənd, Hamarkənd,
Duyduğum, gördüyüm,
sevdiyim nə varsa,
Qəlbimə, ruhuma
sevgitək damar kənd.
Torpaq bir ürəkdi,
kənd onun damarı,
Qanımız işləməz
kəsilsə damar, kənd.
Şəhərdən küsəndə,
qəlbimiz
Sınığı, söküyü
əllərin yamar kənd.
Şairin istəyi
ülfətdi, sevgidi,
İstəyi nədirsə,
onu da umar kənd.
Nur kimi ələndim,
ətrinə bələndim,
Etmisən ruhumu
mehrinlə xumar, kənd.
Süfrəndə halallıq,
duz-çörək kəsmişik,
Haqqını unutsam,
gözümü yumar kənd.
Mən səni Allaha
tapşırıb gedirəm,
Həmişə halal qal,
Həmişə hamar qal,
Hamarkənd, Hamarkənd.

1997, 17 iyun

AŞIQ ƏDALƏTƏ

Ədalətin əllərində
tut parçası – od parçası,
Ədalətin nəfəsində
quru taxta – ud parçası,
Ədalətin xəyalında
saz dünyası – naz dünyası.
Ədalətə qız yerinə
haqdan gələn butadı saz,
Ədalətin varlığında
anadı saz, atadı saz.
Ədalətin yaddaşında
Adəmdi, Nuhdu saz,
Damarda çağlayan qandı,
bədəndə ruhdu telli saz.
Ədalətin ürəyində
amandı, ahdı telli saz,
Allah günaha yazmasın,
desəm Allahdı telli saz.
"Misri" çalar, yeddi rəngi
yetmiş yeddi rəng eylər,
"Cəngi" çalar, yerlə-göylə
yaradanla cəng eylər.
"Dilqəmi"si Yəhya bəydə
tüstülənən dumansınız,
"Kərəmi"si keşişlərə
qəzəbimiz, üsyanımız.
"Ruhani"si qasırğamız,
"Müxəmməs"i tufanımız.
Ədalətin çaldığı saz,
İman yeri, güman yeri,

Ümidimiz, gümanımız.
Nisgilləri öz köşkünə
çəkib yığan ağrıdı saz.
Ədalətin oda dönən,
köz-köz olan bağrıdı saz.
Neçə könül kəhkəşanı,
neçə könül sarayıdı,
Ədalətin barmağında
Köç-köç olan bir millətin,
"Kərəmköçdü" harayıdı!
Yer üzünün ocağını, istisini,
Göy üzünün
Günəşini qatdı saza,
Füzuliyə qardaş oldu,
Şəbi-hicran
atəşini qatdı saza.

BAYATI ÖMRÜ VER ŞEİRLƏRİMƏ

Gəl, ilham pərisi, gəl qucaqlaşaq,
Qabaraq, çəkiləк, qaynayaq, daşaq.
İşlə naxışını, toxu xalını,
Qəlbimə, ruhuma çək sığalını.
Yaşamaq əmri ver misralarıma,
Bayatı ömrü ver şeirlərimə.

Közdə, qığılcımda, alovda, odda,
Ruhda, şirinlikdə, ləzzətdə, dadda,
Dəftərdə, kitabda, yaddaşda, yadda,
Əzəli-əbədi yaşamaq üçün
Bayatı ömrü ver şeirlərimə.

Sazdan barxanası, muğamdan yükü,
Nağıldan mayası, dastandan kökü,
Dağlardan selini-suyunu göndər,
Zirvədən görünən boyunu göndər.
Tarixin basılmaz səngərini ver,
Dəvə karvanının ləngərini ver.
Səhranın qızılı qumuna döndər,
Torpağın qapqara şumuna döndər,
Bayatı ömrü ver şeirlərimə.

Bu dəvə deyimlər, karvan misralar
Qəmi daşıyarmış, dərdi çəkərmiş.
Min sətri düzsən də ağ varaqlara,
Yükü misraların dördü çəkərmiş.
Ölməz bayatılar ölümün üstə
Qoşun yeridərmiş, ordu çəkərmiş.

Sabah başdaşıma yazdırmağa da
Cəmi dörd misralıq bayatım olsun.
Sarı aşıqlara yoldaş eyləsin,
Bayatım çevrilsin həyatım olsun.
Ey ilham pərisi, vaxt əsirgəmə,
Bayatı ömrü ver şeirlərimə,
Bayatı ömrü ver şeirlərimə.

2006, 31 iyun

DƏDƏM QORQUDA

Mənə kimliyimi sən öyrətmisən,
Sənin kimliyini bilənəm, Dədəm!
Əvvəlim də sənsən, axırım da sən,
Səndən sənə doğru gələnəm, Dədəm!

Mürşidim, ustadım, Lələm, Ozanım,
Xeyrə danışanım, xeyrə yozanım,
Dan yerim, axşamım, sübhüm, əzanım,
Sevgimi sənlə bölənəm, Dədəm!

Nə susan, nə də ki, kiriyənəm mən,
Oğuzda, qopuzda əriyənəm mən.
Sənin yerişinlə yeriyənəm mən,
Sənin gülüşünlə gülənəm, Dədəm!

Mən bir söz qaynağı, söz yuvasıyam,
Yarpağam, torpağam, od, hava, suyam.
Yeddidən yetmişə saz havasıyam,
Saz üstə baş qoyub ölənəm, Dədəm!

2006, 1 avqust

KÖKÜ TANIYAN, BİLƏNƏM

Boy boylasın, soy soylasın,
Qoy ucaltsın soy milləti.
Yas dalınca yas gəlməsin,
Sevindirsin toy milləti.

Demə sayım, sanbalım az,
Tarixə öz xəttini yaz.
Heç Allah da qaldırammaz,
Ağır yatan key milləti.

Kökü tanıyan, bilənəm,
Sevinci-dərdi bölənəm.
Mən Göy tanrıdan gələnəm,
Əyilməsin göy milləti.

Sevdikcə sev, demə, bəsdi,
Ululardan gələn səsdi.
Bayraq qədər müqəddəsdi,
Öp, göz üstə qoy milləti.

Haqqını qorusun haqla,
Döyüşməsin hər alçaqla.
Ulu Tanrım, özün saxla,
Nökər etmə bəy milləti.

Saralmaz bağçası, bağı,
Dağ üstünə qoyar dağı.
Tapdalaya bilməz yağı,
Sağlam, ucaboy milləti.

2006, 12 avqust

ZƏLİMXAN DİLİNDƏ

Mən kiməm ki, məclis quram,
meydan açam, söz danışam,
Danışdıran danışdırır,
ruh dilində, can dilində.

Güllərə bax, hər toxumu
dönüb bir gülüstan olub,
Arılar da nəğmə deyir
bal dilində, şan dilində.

Tanrı ilə danışmağın
bir yolu var, sevgi yolu,
Şeytan ilə danışıram
qılıncla qalxan dilində.

"Bəy ərənlər" deyə-deyə
dilləndirib qopuzunu,
Dədə Qorqud söhbət açıb
bəy dilində, xan dilində.

Mənim dilim sevgi dili,
Tanrı dili, haqq dilidi,
Əgər məni sevirsənsə,
danış Zəlimxan dilində.

2007, 1 yanvar

YARI MİZRAB, YARI PƏRDƏ, YARI SİM

Aşıq yanır, sinə yanır, saz yanır,
Aman Allah, yanmayaydı barı sim.
Belə getsə qalmayacaq dağda qar,
Əridəcək zirvələrdə qarı sim.

Qarışdırıb axşamımı, danımı,
Ara yerdə batıracaq qanımı.
Köməkləşib alır mənim canımı,
Yarı mizrab, yarı pərdə, yarı sim.

İlmə olub, naxış olub, xal olub,
Şirin xallar barmaqlarda bal olub.
Gözlərə bax, sehrlənib, lal olub,
Sehrləyib gözəli sim, yarı sim.

İşvə olub, qəmzə olub, naz olub,
Fəsillərin qışı dönüb, yaz olub.
Təbiət də başdan-başa saz olub,
Çəmən simdi, çiçək simdi, arı sim.

Nədir belə çiçəklənən, güllənən,
Nədir belə ləngərlənib sellənən?
Zəlimxanın eşqi ilə dillənən,
Sarı simdi, sarı simdi, sarı sim.

BİZ

Dünyanın ən azad neməti – külək,
Dünyanın ən alçaq sənəti – kələk.
Dünyanın ən böyük qüdrəti – fələk,
Külək də, kələk də, fələk də bizik.

Dünyanın ən zərif sərvəti – çiçək,
Dünyanın ən zəif xilqəti – milçək.
Dünyanın ən güclü sürəti – şimşək,
Çiçək də, milçək də, şimşək də bizik.

Dünyanın ən gözəl cənnəti – bələk,
Dünyanın ən nurlu surəti – mələk.
Dünyanın ən varlı dövləti – ürək,
Bələk də, mələk də, ürək də bizik.

2007, 1 fevral

DİLİNİ ÖYRƏNDİM BÜTÜN DİLLƏRİN

Dilini öyrəndim bütün dillərin,
Günlərin, ayların dilini bildim.
Taylı öz tayını tapana kimi,
Mən bütün tayların dilini bildim.

Su kimi doldurub içdim yolları,
Arayıb-axtarıb seçdim yolları.
Yeddidən yetmişə keçdim yolları,
Sayılmaz sayların dilini bildim.

Bilirəm, nə yazdı, nə qışdı mənə,
Eniş də, yoxuş da tanışdı mənə.
Dağların dərdini danışdı mənə,
Lal axan çayların dilini bildim.

Dosta məhəbbətim dərindən dərin,
Düşmənə nifrətim sərindən sərin.
Yazda sevənlərin, sevişənlərin,
Payızda toyların dilini bildim.

Dili dərd dilidi bu insanların,
İtən ümidlərin, ölən canların.
Kəsilən başların, axan qanların,
Ucalan boyların dilini bildim.

Ruh dinir, can yanır, bədən danışır,
Gələn pıçıldayır, gedən danışır.
Yer göyə, göy yerə nədən danışır,
Buludda layların dilini bildim.

Ayrı aləmi var bu aləmlərin,
Kövrək duyğuların, şirin dəmlərin.
Zatıqırıqların, ağlı kəmlərin,
Toxumu zayların dilini bildim.

Ağlayan kamandı, uddu söhbətim,
Alovdu, atəşdi, oddu söhbətim.
Dərd ilə həmişə tutdu söhbətim,
Ahların, vayların dilini bildim.

Komalar üstündə doğan Ay oldum,
Kasıb daxmasına gedən pay oldum.
Bir saray içində min saray oldum,
Bütün sarayların dilini bildim.

2007, 6 fevral

NAHAQ ENDİK O DAĞLARIN BAŞINDAN

Nahaq endik o dağların başından,
Gərək orda qal oğlu qal olaydıq.
Ömrümüzü gül ömrünə döndərib
Zirvədə qar, pətəkdə bal olaydıq.

Allaha tən, haqqa yardı zirvələr,
Yaranışdan dümağ qardı zirvələr.
Ömrümüzü uzadardı zirvələr,
Nahaq endik o dağların başından.

Üfüqlərdə quş olmaq da gözəldi,
Şimşəklərə tuş olmaq da gözəldi,
Lap o yerdə daş olmaq da gözəldi,
Nahaq endik o dağların başından.

Ucalığı ölüm-itim haqlamır,
Peyğəmbərdi, qəlbində kin saxlamır.
Min il keçir, bir qayası laxlamır,
Nahaq endik o dağların başından.

Haqq evidi hər daş otaq, hər kaha,
Salam verir dan yerinə, sabaha.
Təzə-təzə qovuşurduq Allaha,
Nahaq endik o dağların başından.

Ruh paklaşır, yağan qardan ağ olur,
Can bərkiyir, saf poladdan sağ olur.
Dağ başında vallah, adam dağ olur,
Nahaq endik o dağların başından.

2007, 7 iyul

GƏL GEDƏK

Dünya duracaq yer deyil,
Ey can, səfər eylə.
Nəsimi

Köçünü dağlara sürdük, tanıdıq,
Hər cür meyvəsini dərdik, tanıdıq,
Bu dünya buydusa gördük, tanıdıq,
Gəl gedək,
gəl gedək,
gəl gedək, lələ.

Ürək ağrıdadı, könül sancıda,
Kimdi talanmayan bu talançıda.
Kim ölüb haqdadı, kim yalançıda,
Gəl gedək,
gəl gedək,
gəl gedək, lələ.

Yorub bu yolları, yorğunlar gedib,
Məcnunlar, Məftunlar, Vurğunlar gedib.
Bu dünya üstündə qırğınlar gedib,
Gəl gedək,
gəl gedək,
gəl gedək, lələ.

Dünya geyiləsi bir əba deyil,
Dünya dartılası araba deyil,
Dünya düzələsi xaraba deyil,
Gəl gedək,
gəl gedək,
gəl gedək, lələ.

Ah çəksək, ahımız fələyə çatmaz,
Gücümüz daşınan şələyə çatmaz,
Kərəmin harayı Lələyə çatmaz,
Gəl gedək,
gəl gedək,
gəl gedək, lələ.

2006, 5 mart

TƏKİ GƏLƏN MƏLƏK OLSUN

İldə bir də çıxmaq olar,
bir fəsildə beş dəfə də.
Təki dolan bulud olsun,
təki çaxan şimşək olsun.

Gənclikdə də sevmək olar,
cavanlığı ötəndə də,
Təki ümid qapısını
açıb gələn mələk olsun.

Payızda da duymaq olar
təbiəti bahar kimi,
Təki sənin vurulduğun,
sevdiyin bir çiçək olsun.

Bir zərrə qum dənəsində
bir səhranı görmək olar,
Təki səndə dünya boyda
çırpınan bir ürək olsun.

Zirvə eşqi müqəddəsdi,
yarıyolda qoymaz səni,
Təki sənin ürəyində
saf bir arzu-dilək olsun.

Nə təhqirlər, nə zəncirlər,
nə kəndirlər sıxmaz səni,
Təki sənin istəyincə
dönən çərxi-fələk olsun.

Sınma, səni sındırmağa
cəhd eyləsə nadan, naşı,
Təki səndə dəmir əzən,
zəncir qıran bilək olsun.

Həqiqəti susdurmağa
gücü çatmaz bəndələrin,
Təki ulu Yaradanın
özü sənə kömək olsun.

2006, 28 oktyabr
Kislovodsk

SƏFƏRDƏN GÖZƏL NƏ VAR

Səfərdən gözəl nə var,
Fikrin haqqı dərk ola.
Hər yerdə sənə qarşı
Sevgi ola, ərk ola.

Od qaynaya qanından,
Qızlar keçə yanından.
Ağrı, azar canından
Birdəfəlik tərk ola.

Nə yata, nə sürünə,
Haqq nuruna bürünə.
Yaxşı elə görünə,
Yamanlara görk ola.

Səfərdən gözəl nə var,
Gəl deyə pərvərdigar.
Yağsa da üstünə qar,
Boz dumanlar kürk ola.

Gül açanda arzular,
Qışda da verəcək bar.
Səfərdən gözəl nə var,
Evdən belin bərk ola.

2006, 5 noyabr

MƏN ÖZ DASTANIMI YAZIB GƏLMİŞƏM

Ey qərib məmləkət,
ey qürbət diyar,
Demə, yollarımı
azıb gəlmişəm.
Alnıma nə yazıb,
Allahım bilir,
Mən öz dastanımı
yazıb gəlmişəm.

Köküm, çiçəklərim,
tağım ordadı,
Mən burda xəstəyəm,
sağım ordadı.
Qayalı, bulaqlı
dağım ordadı,
Damlayam, qayadan
sızıb gəlmişəm.

Özün bil, özgəyə
bildirmə məni,
Ağlada-ağlada
güldürmə məni.
Sən Allah, qürbətdə
öldürmə məni,
Vətəndə qəbrimi
qazıb gəlmişəm.

2008, 12 mart
Almaniya, Münhen ürək xəstəxanası

AXIRDA BİR OVUC KÜL QALASIDI

Sünbül var, zəmi var,
xırman yeri var,
Vaxt bir dəyirmandı,
ömür dən mənə.
Oxşadın indidən
qəbir yerinə,
Bir qəfəs düzəldin
dəmirdən mənə.

Çoxdan tərgitmişəm
qəm tərk etməyi,
O dərdi çoxaldıb,
mən dərk etməyi.
Öyrəndim dünyaya
gəlib-getməyi,
Verin tapşırıqdan,
əmrdən mənə.

Nə milçək, nə də ki,
fil qalasıdı,
Çayların yerində
lil qalasıdı.
Axırda bir ovuc
kül qalasıdı,
Allahın verdiyi
ömürdən mənə.

2008, 12 mart
Almaniya,
Münhen şəhəri

DƏYMƏZ

Yumruqlar qazandıq,
təpiklər yedik,
Vallah, qazancımız
təpiyə dəyməz.
Uydurma sevgilər,
qondarma sözlər
Alqışa, hay-küyə,
çəpiyə dəyməz.

Pozuldu nizamlar,
dağıldı səflər,
Qırdı bir-birini
qansız tərəflər.
Dənizlər dibində
dürlər, sədəflər
Suyun üzündəki
köpüyə dəyməz.

Qaçma hər uğursuz
saat dalınca,
Minnətçi göndərmə
qanad dalınca.
Ey insan, yüyürmə
manat dalınca,
Bu dünya bir qara
qəpiyə dəyməz.

2008, 13 mart
Almaniya, Münhen
ürək xəstəxanası

NAHAQ YERƏ İŞIQ GƏZMƏ PAXIRDA

Parıltısı göz aldadan dünyamız,
Adilərdən lap adiyə dönərmiş.
Gur çayların quruyanda yatağı,
Talan olmuş bir vadiyə dönərmiş.

Nahaq yerə işıq gəzmə paxırda,
Dərd insanı yandırır da, yaxır da.
Hər şairin bir günü var, axırda
Ya Sabirə, ya Hadiyə dönərmiş.

Ağlayanlar gözyaşında çimsələr,
O yaşları kim duruldar, kim silər.
Saraylarda Vaqif olan kimsələr,
Komalarda Vidadiyə dönərmiş.

2008, 13 mart
Almaniya, Münhen
ürək xəstəxanası

VƏFALIYMIŞ

Nə vaxta arxalan, nə baxta aldan,
Nə dövran, nə də bir çağ vəfalıymış.
Min bir daşürəkli dostdan, tanışdan,
Bir daşlı, qayalı dağ vəfalıymış.

Nə toxa bel bağla, nə aca söykən,
Nə ada, şöhrətə, nə taca söykən.
Özün böyütdüyün ağaca söykən,
Bağbandan min dəfə bağ vəfalıymış.

Zəlimxan dilində min dürlü dastan,
Gah toydan söz açar, gah da ki yasdan.
Bahalı köynəkdən, əlvan libasdan,
Kəfən etibarlı, ağ vəfalıymış.

YARANIB

Sükutu duy, səsi anla,
demə daşlar lal yaranıb,
Gör bir başı nələr çəkib,
sərt qayalar sal yaranıb.

Hərəkəti olmayanın
bərəkəti ola bilməz.
Arı süzüb, ətir çəkib
çiçəklərdən, bal yaranıb.

Üfüqlər var uçmaq üçün,
ulduzlar var qucmaq üçün.
Dərədə ilan sürünür,
dağlara qartal yaranıb.

Yuvasına, yurduna bax,
baramanın qurduna bax.
Tut yarpağı sapa dönüb,
atlaz olub, şal yaranıb.

Ulu tanrı, nə yaxşı ki,
şairlərə ilham verib,
Xəyallara qanad taxıb,
qanadlı xəyal yaranıb.

2006, 10 aprel

ŞAİRİN

Diri-diri
dərisini soyarlar,
Əngəl olar
dil başına şairin.
Şimşək vurar,
dolu döyər, qar basar,
Oyun açar
sel başına şairin.

Sərt inadı
qayaları oynadan,
Təmiz eşqi
çeşmələri qaynadan.
Paltarını nimdaş
görüb, ey nadan,
Gül üstünə,
gül başına şairin.

Ruhumuzun kitabına
dönəcək,
Əzabkeşin əzabına
dönəcək.
Bir gün xalqın kitabına
dönəcək,
And içəndə
el başına şairin.

İşıq olub
ulduzlardan ələndi,
Çiçək olub
minbir rəngə bələndi.

Ey ağılsız,
peyğəmbərdən gələndi,
Ağıl qoyma,
gəl, başına şairin.

Parçalayar daş zindanı,
qəfəsi,
Haqq veribsə, şər batırmaz
bu səsi.
Yerdən çıxsa bulaq kimi
nəğməsi,
Göydən yağar gül başına
şairin.

Yazıqlaşıb qorxa-qorxa
dinirsə,
Bircə əsim sərt küləkdən
sönürsə,
Zirvəsindən bircə barmaq
enirsə,
Kül başına,
kül başına şairin.

2006, 2 may

ÇATDIRAR

Ulu tanrı xoş nəzərlə baxanda,
Vədəsində canı cana çatdırar.
Xoşbəxtliyi Allah özü göndərər,
Bir günə yox, bircə ana çatdırar.

Qəlbin dostu, könüllərin yarıdı,
Məhəbbətin meyvəsidi, barıdı.
Öz işində hər şair bir arıdı,
Uça-uça balı şana çatdırar.

Haqq yolunda ipə dönüm, incəlim,
Halal sözün havasında dincəlim.
Ay Zəlimxan, saf ürəyim, dinc əlim,
Bir gün məni yaradana çatdırar.

2006, 10 may

ÇƏKİLSİN DÜNYANIN QARANLIQLARI

İlahi, bağışla bədxahlarımı,
Döndər yavaş-yavaş, xeyirxah eylə.
Çəkilsin dünyanın qaranlıqları,
Hər tutqun gecəni bir sabah eylə.

Mələk qanadına aldır insanı,
Duru bir axara saldır insanı.
Çirkabın içindən qaldır insanı,
Yerini ən uca bir dərgah eylə.

Gizli sualların cavabını ver,
Ən dürüst haqqını-hesabını ver.
Bütün könüllərin savabını ver,
Bütün könüllərdə eşqi şah eylə.

2006, 26 iyun

İNSAN – DÜNYA

Çiçəyəm, meyvəyəm, kökəm, budağam,
Nuram, qığılcımam, odam, ocağam.
Atəşəm, Günəşəm, suyam, torpağam,
Cəhənnəm də məndə, cənnət də məndə.

Taleyəm, qismətəm, baxtam, ömürəm,
İstiyəm, tüstüyəm, közəm, kömürəm.
Qızılam, gümüşəm, daşam, dəmirəm,
Xəzinə də məndədi, sərvət də məndə.

Otağam, sarayam, daxmayam, damam,
Sevincəm, kədərəm, eşqəm, ilhamam.
Körpəyəm, qocayam, bişmişəm, xamam,
Sevgi də məndədi, nifrət də məndə.

Sürgünəm, zindanam, qışam, Sibirəm,
Dözüməm, inamam, dərdəm, səbirəm.
Beşiyəm, məzaram, evəm, qəbirəm,
Görüş də məndədi, həsrət də məndə.

Sünbüləm, zəmiyəm, dənəm, xırmanam,
Xəstəyəm, həkiməm, dərdəm, dərmanam.
Möhürəm, imzayam, qolam, fərmanam,
Millət də məndədi, dövlət də məndə.

2006, 30 iyun

BORC – VƏZİFƏ

Hər kəsin öz borcu, öz vəzifəsi,
Ordu əsgərini qorusun gərək.
Əlində silahı, canında eşqi,
Əsgər səngərini qorusun gərək.
Ağsaqqal nurunu, oğul adını,
İgid ləngərini qorusun gərək.
Rəhbər öz canını versin millətə,
Millət rəhbərini qorusun gərək.

2006, 8 iyul

GÖZÜMÜ ÖYRƏTDİM GÜLƏ-ÇİÇƏYƏ

Yoxuşlar yolumdu, yollar qismətim,
Eniş də məndədi, yoxuş da məndə.
Zirvə ucalığım, dağ yüksəkliyim,
Şimşək də məndədi, yağış da məndə.

Gözümü öyrətdim gülə-çiçəyə,
Üzümü öyrətdim çənə, çisəyə.
Döndüm göy çəməndə ağ kəpənəyə,
İlmə də məndədi, naxış da məndə.

Dolaşıq yollarda azar bir yolum,
Haqqın dastanını yazar bir yolum.
Beşik bir yolumdu, məzar bir yolum,
Alqış da məndədi, qarğış da məndə.

2006, 28 iyul

ULDUZLARIN YANINA

Uşaq ağlım qanadlana, qayıda,
Uçam, gedəm ulduzların yanına.
Üfüqlərin qapısına əl atam,
Açam, gedəm ulduzların yanına.

Göydə quram sarayımı, taxtımı,
Göylər verə taleyimi, baxtımı.
Ayla, günlə xoş keçirrəm vaxtımı,
Köçəm, gedəm ulduzların yanına.

Dərd gətirdi uçurum yolu, dağ yolu,
Yer üzündə heç görmədim sağ yolu.
Yolum ola kəhkəşanın ağ yolu,
Qaçam, gedəm ulduzların yanına.

2006, 5 avqust

BÖYÜKLƏR BİLƏR

Çayların sürətini
çayda axan sal bilər,
Bağı bağbandan soruş,
dağ nədi – qartal bilər.
Çiyinlər nə çəkirsə,
çəkilən yüklər bilər,
Böyüklərin qədrini
ancaq böyüklər bilər.

ALLAHIN İŞİNƏ QARIŞMA

Qəlbinə toxunma, dünya dağılar,
Ovutmaq çətindi küsən şairi.
Hər kövrək misranın, hər sətrin üstə,
Nanə yarpağı tək əsən şairi.

Haqqın, həqiqətin eşqinə çağır,
Şirin görüşlərin köşkünə çağır,
Ağır döyüşlərin məşqinə çağır,
Sözü qılınc kimi kəsən şairi.

Onun bostanına hər atılan daş,
Bir yıxılan evdi, bir kəsilən baş.
Qarışma Allahın işinə, qardaş,
Nə mən yaratmışam, nə sən şairi.

2006, 21 avqust

HALALLAR BİLƏR

Körpə doğuşudu şeirin doğuşu,
Halal doğulan var, bic doğulan var.
Hər halal doğuluş bir şahlıq quşu,
Haram toxumlardan gic doğulan var.

Göz görməz, dil dinməz, qulaq eşitməz,
Nə korlar, nə karlar, nə lallar bilər.
Şeirə haram qatdı haramzadalar,
Halalın qədrini halallar bilər.

2006, 28 sentyabr

GÜLÜMSƏDİ

Bir dünya gözəli çıxdı yollara,
Şehli dodağında gül gülümsədi.
Boylanıb baxanda duru sulara,
Ləpə pıçıldadı, göl gülümsədi.

Xoş xəbər yayıldı doğma ellərə,
Sevənin sevinci döndü sellərə.
Küləklər toxundu qara tellərə,
Meh bəxtəvər oldu, yel gülümsədi.

Dünya gözəlləşdi gözəl güləndə,
Gözəl danışanda, gözəl güləndə.
Əl üzə dəyəndə, üz-əl güləndə,
Nurlu təbəssümlə el gülümsədi.

2006, 19 noyabr

BÜLBÜL COŞUB BAĞA SIĞMIR

Üz allanır, dil ballanır,
Qızın gəlhagəl çağıdı.
Göz süzülür, baxış yanır,
Nazın gəlhagəl çağıdı.

Bir eşqin oduna düşüb,
Meyli bir qadına düşüb,
Gözəllər yadına düşüb,
Sazın gəlhagəl çağıdı.

Bülbül coşub, bağa sığmır,
Nəğmələr dodağa sığmır.
Qönçələr budağa sığmır,
Yazın gəlhagəl çağıdı.

2007, 14 mart

* * *

Bir tüfəngin lüləsindən,
çıxan güllədir,
Məzar adlı bir hədəfə
atılan ömrüm.
Acıdımı, şirindimi,
bilmirəm nədi,
Zəhərlərə, şərbətlərə
qatılan ömrüm.

2007, 15 mart

EŞİT MƏNİ, İLAHİ

Məni qoyma sınmağa,
Dözümü ver, tabı ver.
İnamla doldurulmuş
Sehrli bir qabı ver.
Göndər Cəbrayılını,
Oxut məni, oxuyum,
Müqəddəs kitabı ver,
Qırılmayan qələmi,
Susmayan rübabı ver.
Eşit məni, İlahi,
Yoxsa, mən dediklərim,
Al cənnəti əlimdən.
Sən bu şair oğluna,
Cəhənnəm əzabı ver!

2007, 20 mart

HƏRƏNİN
ÖZ HAQQI-SAYI

Arılar tər çiçəkləri,
Pərvanələr şamı sevər.
Piyalədi yar dodağı,
Hər aşiq bir camı sevər.

Hərənin öz haqqı-sayı,
Hərənin bir tale payı.
Kimi uca bir sarayı,
Kimi uçuq damı sevər.

Sevgidədir canlı-cansız,
Ömür gödək, vaxt amansız.
Hamını sevmək imkansız,
Hərə bir adamı sevər.

2007, aprel

İSTEDAD

İstedad – sevgili, vergili, butalı,
İstedad – arxalı, analı, atalı.
İstedad – yolunu tapanda gözəllik,
Yolundan çıxanda qorxulu, xatalı.

2007, aprel

HAQDAN GƏLİB HAQQA GEDƏN YORULMAZ

Nə umdumsa öz haqqımdan ummuşam,
Gərək məni haqq anlaya, haqq qana.
Haqqı dansam, canım ona halaldı,
Haqqım olsa, salmaz məni haqq qana.

Dəyişəmməz əfəndilər, qazılar,
Dəyişməzdi haqdan gələn yazılar.
Yer üzünün ədaləti pozular,
Qılınc kimi girsə əgər haqq qana.

İblislərin qanı heç vaxt durulmaz,
Şeytanların yıxdığı ev qurulmaz.
Haqdan gəlib haqqa gedən yorulmaz,
Haqq arxadı, haqq atadı, haqq ana.

2007, 27 aprel

BU DÜNYA ƏBƏDİ DİRİLƏRİNDİ

Zərrələr Günəşin, damlalar suyun,
Xırdalar həmişə irilərindi.
Çirkaba bulaşmaz əli, ətəyi,
Göylər mələklərin, hürülərindi.

Döş-döşə döyüşər dənizlə ada,
Dalğalar sükutu gətirməz yada.
Qartal üfüqdədi, ilan səhrada,
Çöllər çobanların, sürülərindi.

Baxmağa güzgüsü, aynası yoxdu,
Yüz il yaşasa da mənası yoxdu.
Diri ölülərin dünyası yoxdu,
Bu dünya əbədi dirilərindi.

2007, 8 may

ZƏLİMXAN SƏS VERİR HAQQIN SƏSİNƏ

Necə vurulmayım bu cəhcəhlərə,
Dünya, mən baharam, mən yazam, – deyir.
Hər süzülən sünbül, hər açan çiçək,
Mən ərkəm, sevgiyəm, mən nazam, – deyir.

Heyranlıq yaradan, heyran qalan var,
Gözəllik önündə seyrə dalan var.
Nə ki yer üzündə qanad çalan var,
Şahinəm, Şonqaram, Şahbazam, – deyir.

Allahın eşqiylə çağlayır bulaq,
Tanrı duasıyla tərpənir dodaq.
Kökünün üstünə əyilən budaq,
Torpağa qılınan namazam, – deyir.

Ucalır zilinə, enir pəsinə,
Haqq əli toxunur hər pərdəsinə.
Zəlimxan səs verir haqqın səsinə,
Mən taram, kamanam, mən sazam, – deyir.

2007, 15 may

BİZƏ DƏRK EYLƏMƏK QALIR

Hərdən mənə elə gəlir
Hər şey deyilib,
Hər şey yazılıb,
Hər şey oxunub.
Hansı mövzuya
toxunmaq lazımsa,
Allahın özü
o mövzunu işləyib,
O mövzuya toxunub.
Bizə ancaq
dərk eyləmək qalır –
Təbiətin hikmətini,
Tanrının qüdrətini,
Dünyanın təbiətini.

2007, 5 iyul

QİYAMƏT GÜNÜNÜN NİŞANƏSİYƏM

Bir səs qulağıma "hardasan?" – dedi,
"Ey səsin sahibi, burdayam", – dedim.
Torpaqda açılan güldə, çiçəkdə,
Göylərdə alışan nurdayam, – dedim.

Yerin damarında, göyün tağında,
Qəlbin işığında, gözün yağında,
Həzrət Məhəmmədlə Həra dağında,
Həzrət Musa ilə Turdayam, – dedim.

Sevincin ziliyəm, dərdin pəsiyəm.
Nahaqqın harayı, haqqın səsiyəm.
Qiyamət gününün nişanəsiyəm,
İsrafil çaldığı surdayam, – dedim.

2007, 11 iyul

TANRIDI

Səni nə zamandı görmürəm deyən,
Məni zərrə-zərə görən Tanrıdı.
Göyərdən, bitirən, gözəlləşdirən,
Şirin meyvə kimi dərən Tanrıdı.

Olmadım kimsənin haqqını danan,
Haqdı içərimdən qalxan, boylanan.
Gündüzlər Günəşdi gözümdə yanan,
Gecələr yuxuma girən Tanrıdı.

Urvata mindirər sözü, kəlməni,
Dərgaha qaldırar bir cüt əl məni.
Bu yolu, yoxuşu, bu yüksəlməni
Yazan Zəlimxandı, verən Tanrıdı.

2006, 17 iyul

AŞIQ ƏDALƏT DƏLİDAĞLIYA

Könül bazarında qızıl xırdala,
Ləl apar, ləl apar, ay Dəlidağlı.
Bağrımın başını dəli sazınla
Dəl apar, dəl apar, ay Dəlidağlı.

Gəl duraq döş-döşə, sinə-sinəyə,
Qataq səsimizi dağa-binəyə.
Qəlbimdə xəzinə var, o xəzinəyə
Əl apar, əl apar, ay Dəlidağlı.

Deyiş meydanında dillər döyüşər,
Dağın tufanında sellər döyüşər.
Döyüş meydanında kəllər döyüşər,
Kəl apar, kəl apar, ay Dəlidağlı.

Xəstənin dərdinə dərman vaxtıdı,
Padşahın hökmünə fərman vaxtıdı.
Sünbülü döyməyə xırman vaxtıdı,
Vəl apar, vəl apar, ay Dəlidağlı.

Çiçək çəmənindi, arı şairin,
Zəlimxan, eşqidi barı şairin.
Yarı aşığındı, yarı şairin,
Gəl apar, gəl apar, ay Dəlidağlı.

2007, 10 noyabr

QƏBİRDƏN GƏLƏN SƏS

Dünyada ən rahat yer
qəbir evidir, ancaq
Vardı bir can borcumuz
borcu verdik qayıtdıq.
Başımıza qaxmasın
xərcimizi çəkənlər,
Canımız bahasına
xərci verdik qayıtdıq.
Endik torpağın üstən,
düşdük torpaq altına,
Qalanı təslim etdik,
bürcü verdik qayıtdıq.

2007, 22 noyabr

MƏNİM ŞEİR,
SƏNƏT YOLUM

Səsli-küylü gündüzlərdən,
Sakit gecələrdən keçdi.
Qələmdəki mürəkkəbdən,
Alnımdakı tərdən keçdi,
Mənim şeir, sənət yolum.

Zildən keçdi, bəmdən keçdi,
Çox sevincdən, qəmdən keçdi.
Neçə cəhənnəmdən keçdi,
Cənnət ruhum, cənnət yolum.

Kim yarıya, kim yarıda,
Balımı tapdım arıda.
Məni qoymadı yarıda,
Güvəndiyim zəhmət yolum.

Anan andı, qanan qandı,
Sevən sevdi, danan dandı.
Borçalıdan qanadlandı,
Borçalıya həsrət yolum.

2008, 1 yanvar

SÖYLƏ GÖRÜM YAPDIĞINI

Şeytan girsə ürəyinə,
ora daha mələk gəlməz,
Özün düşün, özün anla,
haqq yolundan sapdığını.

Kara gələ bilməyəcək
nə bir tövbə, nə yalvarış,
Tanrım sənə göstərəndə
qiyamətin qopduğunu.

Allah nuru, haqq işığı,
əldən getsə, yazıq sənə.
İnsan bir də tapa bilməz,
yüz də gəzsin, tapdığını.

Şirin sözü əfsanədi,
Fərhad külüng çala bilməz.
Bir Allahın eşqi ilə
igid çapar çapdığını.

Hər insanın qarşısında
hər gün çətin sual durur.
Allah üçün nə yapmısan,
söylə görüm yapdığını.

2008, 10 mart
Almaniya,
Münhen ürək xəstəxanası

ÖLƏN DÜNYA KİMƏ GƏRƏK

Ölən dünya kimə gərək,
əzizim,
İnsaf ölü, iman ölü,
din ölü.
Yarımçıqlar ağır
yükdü varlığa,
Ürək qırıq, səs
yarımçıq, ün ölü.

Güllərini yellər
yolan xəstənin,
Ətri gedib, rəngi
solan xəstənin,
Kövrəldikcə gözü
dolan xəstənin
Gözlərində Ay pərişan,
gün ölü.

Düz halalla,
doğru haqla gözəldi,
Dünya ruhla,
kef-damaqla gözəldi.
Həyat ancaq yaşamaqla
gözəldi,
Bir dirini əvəz etməz
min ölü.

2008, 15 mart
Almaniya,
Münster şəhəri

ŞÜKÜR ALLAHA

Əzrayılla görüşdə
bu gün öldüm, dirildim,
Kəndir kimi eşildim,
kaman kimi gərildim.
Daha heç məndən ötrü
ölüm qorxulu deyil,
Şükür Allaha, ürəyim
qorxunun qulu deyil.

ŞAİR DAĞLARINDI, DAĞLAR ŞAİRİN

Torpağı alışıb, yurdu talansa,
Çəkilər qəlbinə dağlar şairin.
Həsrətdə qovrulub, qürbətdə yansa,
Buludlar üstündə ağlar şairin.

Bitər kökü üstə ağac yerinə,
Toxunar ərişlə arğac yerinə.
Dərman əvəzinə, əlac yerinə,
Torpaq yarasını sağlar şairin.

Qarşıdan yaz gəlir, səməni varsa,
Arı bal çəkəcək, çəməni varsa.
İtkisiz, zədəsiz Vətəni varsa,
Şair dağlarındı, dağlar şairin.

GÖZÜMÜZ ÜSTÜNDƏ MEHMAN ƏYLƏŞİB

Söz bizi çıxardır şahlıq taxtına,
Saçar işığını Ay taxtımızda,
Çapırdar atını belədən-belə,
Allahın verdiyi pay taxtımızda.

Qədimdən qədimdi, uludan ulu,
Dənizi dalğalı, çeşməsi sulu.
Söz mənim bəyimdi, mən onun qulu,
Qoy rahat əyləşsin bəy taxtımızda.

Gözümüz üstündə mehman əyləşib,
Mehmana canımız qurban, əyləşib.
Nə yaxşı söz adlı sultan əyləşib,
Bizim könül adlı paytaxtımızda.

GƏLİRƏM, VƏTƏN, GƏLİRƏM!

Bir ah çəkdim, buz əritdim,
Can kürəmdə söz əritdim,
Gözləməkdən göz əritdim,
Tapılmır itən, gəlirəm!
Gəlirəm, Vətən, gəlirəm!

Qəddi əymək vaxtı deyil,
Gözün döymək vaxtı deyil,
Paltar geymək vaxtı deyil,
Geyinib kəfən, gəlirəm!
Gəlirəm, Vətən, gəlirəm!

Qayaları dizi bilsin,
Bulaqları gözü bilsin,
Kim gəlməsə, özü bilsin,
Səfərdəyəm mən, gəlirəm!
Gəlirəm, Vətən, gəlirəm!

Daş üzlərin şilləsiyəm,
Key başların gülləsiyəm,
Son qələbə pilləsiyəm,
Qalxıb haqqa tən, gəlirəm!
Gəlirəm, Vətən, gəlirəm!

Sinəmin üstə silahım,
Başımın üstə Allahım,
Açıl, ey qalib sabahım,
Olub tunc bədən, gəlirəm!
Gəlirəm, Vətən, gəlirəm!

GÖZƏLLƏŞİRƏM

Mənim gözəlliyim şeirimə bağlı,
Kim onu öyəndə gözəlləşirəm.
Yaşıl misralardan yaşıl don biçib,
Gözəllər geyəndə gözəlləşirəm.

Məni danışdırır ilham yar kimi,
Dinirəm ən şirin havalar kimi.
Dolu misralarım yetkin bar kimi,
Budağı əyəndə gözəlləşirəm.

Bürünür ipəyə, zərə bir cürə,
Dağ bir cür gözəldi, dərə bir cürə.
Bir cür gözəlləşir, hərə bir cürə,
Mən şeir deyəndə gözəlləşirəm.

ŞAHLARI ŞAİR TANIYAR

Bir ömürdə nələr çəkdim,
Mən çəkdiyim ahlar bilər.
Qar saçıma niyə yağdı,
Tutduğum günahlar bilər.

Haqqı bilən bir tanıyar,
Bir tanıyan pir tanıyar.
Şahları şair tanıyar,
Şair kimdi, şahlar bilər.

Cavan gəldim, qoca keçdim,
Zülmət yardım, gecə keçdim.
Necə gəldim, necə keçdim,
Açılan sabahlar bilər.

ÖMRÜM

Gün yandırıb qızardıb,
Külək vurub bozardıb,
Bir ovuc qumdu ömrüm.

Döyüb dolu, ildırım,
Açıb min yerdən şırım,
Qapqara şumdu ömrüm.

Daşların arasında,
Torpağın qarasında
İtən toxumdu ömrüm.

Nur olub yayılmaram,
Say olub sayılmaram,
Yatdımsa, ayılmaram,
Şirin yuxumdu ömrüm.

2006, 23 fevral

XATASIZ ÖTÜŞMÜR
XATALI ŞÖHRƏT

Odlarda, sularda verilir bizə,
Odlu duyğularda verilir bizə,
Rahatlıq gətirib baş sığallamır,
Sonsuz qayğılarda verilir bizə,
Dərviş əllərində qızıl almadı,
Şirin yuxularda verilir bizə
Vergili, ilhamlı, butalı şöhrət.

Ən çətin sorğudan, sualdan gəlir,
Arzudan, istəkdən, xəyaldan gəlir,
Bir başı bağlanır ayrılıqlara,
Bir başı şipşirin vüsaldan gəlir.
Gödək ömürlüsü haram tikədən,
Uzunömürlüsü halaldan gəlir.
Tarixdi, yaddaşdı, süddü, sümükdü,
Çətinə düşəndə yandırmaq üçün
Səməndər quşunun verdiyi tükdü,
Arxalı, analı, atalı şöhrət.

Allah vergisinə ağıl verməyə
"Ağıllılar" artır, "ağıllar" artır.
Bir-bir ayaq açır dedi-qodular,
Uydurma söhbətlər, nağıllar artır.
Zaman paxırları üzə çıxardır,
Paxırlar görünür, paxıllar artır.
Kişi papağını yerə vurmağa
"Papaqlar altında oğullar" artır.
Hazıra nazirtək göydən enməyib,
Min dəfə əjdaha ağzından çıxıb,
Gəlib bu günlərə çatalı şöhrət.

Odla oynamaqdı, suyla qaynamaq,
Xatasız ötüşmür xatalı şöhrət.
Allahın işidi, bəndəlik deyil,
Var olsun sevgili, butalı şöhrət.

TƏKLİK TƏNHALIQ DEYİL

Heç vaxt tənhalığa təklənmək demə,
Yalançı hay-küydən sovuşmaqdı bu.
Bağlanıb qəlb adlı dosta, həmdəmə,
Böyük yaradana qovuşmaqdı bu.

Əl üzü tək qoymaz, düşüncə başı,
Əllər çənənindi, fikir başındı.
Kitabtək varaqla ruhu, yaddaşı,
Fikirlər hamısı yar-yoldaşındı.

Özünə çəkilən haqqa çəkilər,
Heç zaman heç kəsə yük olmaz insan.
Tanrını qəlbinə dost-tanış bilər,
Tək olmaz, tək olmaz, tək olmaz insan.

Şairin dostu var xəyal adında,
Bir qələm, bir dəftər varsa bəsidir.
Fikir meydanında, xəyal atında,
Uzağa bir səfər varsa, bəsidir.

Heç vaxt tək otağa dörd divar demə,
Dörd divar Nazimi Hikmət eylədi.
Bir dastan bağladı sevincə, qəmə,
Dünya türk oğluna heyrət eylədi.

Təklik bostanındı, tənhalıq bağın,
Təki inam adlı silahın olsun.
Ayağın altında ana torpağın,
Başının üstündə Allahın olsun.

Heç zaman kəm baxmaz yaratdığına,
Gövdənin, budağın, kökün Allahı.
Gərək hər sığınan haqqa sığına,
Allahın təki var, təkin Allahı.

2006, 26 fevral

ÖZÜNÜ ÖLDÜRMƏK İSTƏYƏN ADAM

Cahillə alimin arasındadı,
Zülümlə zalımın arasındadı,
Ölümlə qalımın arasındadı
Özünü öldürmək istəyən adam.

Beynində dumanlı səhər gəzdirir,
Qəlbində qəm çəkir, qəhər gəzdirir,
Cibində xəlvəti zəhər gəzdirir
Özünü öldürmək istəyən adam.

Qara qış gətirir yaşıl yazına,
Dözmür, ağrıların dözmür nazına.
Bir kəndirə baxır, bir boğazına
Özünü öldürmək istəyən adam.

Çəkir əllərini yar ağacından,
Üzür ümidini bar ağacından.
Qurtuluş gözləyir dar ağacından
Özünü öldürmək istəyən adam.

Dünya nə, karvan nə, köç nə, istəmir,
Günah nə, savab nə, suç nə, istəmir.
Ölümdən savayı heç nə istəmir
Özünü öldürmək istəyən adam.

Yıxır küməsini, yıxır damını,
Yandırmaq istəmir sönən şamını.
Özü hazırlayır öz edamını
Özünü öldürmək istəyən adam.

Ağlar ürəyini güldürə bilmir,
Dərdini heç kəsə bildirə bilmir,
Öldürüm desə də, öldürə bilmir
Özünü öldürmək istəyən adam.

2006, 2 mart

ÜRƏYİN ÖMRÜNÜ UZATDIM BİR AZ

O mənim nazımla çox oynamışdı,
Bir az əvəzini qaytara bildim.
Siyasət, rəyasət qalmaqalından
Sakit bir guşəyə apara bildim, –
Ürəyin ömrünü uzatdım bir az.

Çiyin ağırlaşır, beyin yorulur,
Ürək daşıdığı yükdən asılı.
Qırıla bilərdi, düşə bilərdi,
Qalmışdı taleyi tükdən asılı, –
Ürəyin ömrünü uzatdım bir az.

Hər nəfəs dərimi bir çəmən ətri,
Torpaqdan güc aldım, yarpaqdan hava.
Öpüşdüm günəşin şəfəqləriylə,
İsindi sinəmdə üşüyən yuva, –
Ürəyin ömrünü uzatdım bir az.

Təbiət sevinir şair görəndə,
Bilir ki, sevəni, duyanı gəlir.
Qarlı zirvələrin, gur bulaqların
Həmdəmi, sirdaşı, həyanı gəlir.
Məni görən kimi dodağı qaçdı,
İncə təbəssümlə gülümsədi yaz, –
Ürəyin ömrünü uzatdım bir az.

2006, 3 mart

SƏNİ MƏNƏ ALLAH ÖZÜ GÖNDƏRİB

Səni mənə Allah özü göndərib,
Qələmim gəl, dəftərim gəl, sazım, gəl.
Saz çiçəyim, söz baharım, səs yazım,
Çiçəyim gəl, baharım gəl, yazım, gəl.

Haqq sevgisi özgə səmtə yozulmaz,
Tanrı yazan boş-boşuna yazılmaz.
Yağış yağsa, külək döysə pozulmaz,
Yazdığımı yaddaşlara yazım, gəl.

Ocaq-ocaq sözüm çatsın göylərə,
Ünüm düşsün kamanlara, neylərə.
Qadir Allah, qaldır məni göylərə,
Gör nə deyir alnımdakı yazım, gəl.

2006, 4 may

GEDƏSİDİ

Ah çəksəm, canımdan tüstü qalxacaq,
Ağlasam, gözümdən yaş gedəsidi.
Sellərə döndüsə gözümün yaşı,
Önündə dağ uçub, daş gedəsidi.

Ruh kimi ucadı Haqqa baş əyən,
Şeytandı ürəyin xətrinə dəyən.
Dünyaya ürəyi dolu gəlməyən,
Dünyadan ürəyi boş gedəsidi.

Bu dünya həmişə qan-yaş meydanı,
Vuruşma, çarpışma, savaş meydanı.
Əlindən verdinsə bu baş meydanı,
Bədənin üstündən baş gedəsidi.

2006, 12 may

HEYİF

Heyif o ömürlərə,
heyif o günlərə,
Heyif o çal-çağırlı
toy-düyünlərə.
Hər qoca əlinə
bir əsa bağlı,
Hər toyun axırı
bir yasa bağlı.
Beşiklə məzarın
arası heç nə,
Bu şirin dünyanın,
gözəl həyatın,
Əvvəli hər şeydi,
sonrası heç nə!

2006, 27 iyun

BADALAQMIŞ

Bir qızılbalığa atdılar toru,
Balıq nə bilsin ki, tor badalaqmış.
Od olub insanı yandırmaq üçün
Kül altda gizlənən qor badalaqmış.

Fikrim gecə-gündüz nəğmədə, səsdə,
Gah zildə dil açdım, gah da ki, pəsdə.
Xalqı ovudanda muğam, şikəstə,
Mənimçün oxunan xor badalaqmış.

Sirrini, sözünü açma heç kəsə,
Dərdi yaman dillər salacaq səsə.
Yalandı, xəyanət ölmüşəm desə,
Onun uydurduğu gor badalaqmış.

2006, 22 iyul

UCUZ ADAMLARIN NAZINI ÇƏKDİM

Xırmanım daşındı,
dənim talandı,
Qəfil hücum çəkdi
oğrular mənə.
Sayı çoxaldıqca
ağ yalanların,
Şübhəylə yanaşdı
doğrular mənə.

Qırıldı qəlbimdə
dil-dil ötən sim,
Dərdi torpaq kimi
şumladım, əkdim.
Ucuz adamların
nazını çəkdim,
Baha başa gəldi
ağrılar mənə.

2006, 30 iyul

AĞRIYA SÖZÜM

Hələ ki, meydanı sənə vermişəm,
Qəm çilə,
qəm çilə,
qəm çilə görək.

Yağdır başım üstə göz yaşlarını,
Nəm çilə,
nəm çilə,
nəm çilə görək.

Ağrılar əlində üzüləndə can,
Nə axşam qəlb açır, nə sökülən dan,
Damcıla,
damcıla,
damcıla görək.

Ögey övlad kimi at məni döşə,
Döşə, əllərindən nə gəlir döşə.
Mən çılpaq bədənəm, sən yağlı köşə,
Qamçıla,
qamçıla,
qamçıla görək.

2006, 8 avqust

BU ŞİRİN QƏMLƏRİN ƏVƏZİ YOXDUR

Ey duman fikirlər, ey dəvə dərdlər,
Bu şirin qəmlərin əvəzi yoxdur.
Qəfəsə salsa da dünya şairi,
Fikrin, düşüncənin qəfəsi yoxdur.

Ayağında çarıq, əlində əsa,
Gəlir insan oğlu yol basa-basa.
Kimi qəm sızladıb, yas ağlatmasa,
Quru bir cəsəddi, nəfəsi yoxdur.

Durmaq artıq şeydi, duruşa dəyməz,
Ölümlə, həyatla vuruşa dəyməz.
Beş qara qəpiyə, quruşa dəyməz,
Kimin dərd adlanan dəvəsi yoxsa.

2006, 9 avqust

OXU MƏNİM ŞEİRİMİ

Yaman ağırlaşmısan,
Oxu mənim şeirimi,
oxu, yüngülləş bir az.
Sellərlə qol-boyun ol,
çaylarla güləş bir az.
Yaman ruhdan düşmüsən,
At beynindən, başından
bu qaragüruhları.
Orda tanıyacaqsan
Səni ruha gətirən
ən müqəddəs ruhları.
Çox həvəsdən düşmüsən,
oxu mənim şeirimi,
Havalan, həvəsə gəl.
Səslər eşidəcəksən
Hər sözün ürəyindən,
Ona səs ver, səsə gəl.
Yaman ölgünləşmisən,
Oxu mənim şeirimi,
Duyub anlayacaqsan
vaxt hardadı ölməyə,
Qaçacaqsan sevimli
dostlarının yanına
Sevincini bölməyə,
kədərini bölməyə.
Yaman ölüb ümidin;
Oxu mənim şeirimi,
Əqidədən, inamdan
cüt qanad taxacaqsan.
Səni sıxan dünyaya
eşqin, nurun, sevginin
gözüylə baxacaqsan!

2006, 10 avqust

GƏL

Gözüm yollarda qaldı,
Səbrim daralmamış gəl.
Aydınlığı sevirsən,
Hava qaralmamış gəl.

Oxuyub ozan ollam,
Bəxtini yazan ollam.
Gec gəlsən, xəzan ollam,
Rəngim saralmamış gəl.

İşıq olum rənginə,
Səs olum ahənginə.
Əcəl çəkib cənginə,
Məni yer almamış gəl.

2006, 22 avqust

DƏRDƏ DEYİN

Aman ağrı, ayaq saxla,
sən tutduğun Allahsız iş,
Ürəyimdən qan axıdıb,
gözlərimi nəmləməsin.

Nə mən dənəm, nə dərd toyuq,
ağlını yığsın başına,
Mənim ruhum hesabına
ruhsuzları yemləməsin.

Nolar şair ürəyinin
açıq olanda qapısı,
Qəm üstünə qəm gətirib
qəlbi belə qəmləməsin.

Nə topum var, nə topxanam,
silah ancaq qələmimdi,
Üstümə qoşun yeridib
ordusunu cəmləməsin.

Üz verdim, astar istədi,
yağış verdim, qar istədi,
Dərdə deyin, həddi aşıb,
bir belə sərsəmləməsin!

2006, 1 oktyabr

MÜŞFİQƏ BİR GÜLLƏ DƏYDİ

Müşfiqə bir güllə dəydi,
ona dəyən bu güllədən,
Yer alışdı, göy qovruldu,
səs hönkürdü, ün ağladı.

Qaraqaşlı, qaragözlü,
qara bəxtli bir şairin
Zəmisi, tarlası yandı,
sünbülündə dən ağladı.

Bu, İsanın çarmıxıydı,
Məhəmmədin daşqalağı,
İnsaf itdi, mürvət öldü,
iman susdu, din ağladı.

Tətik çəkən barmaqları
Tanrı niyə qurutmadı.
Bəd xəbərdən göy üzündə
Ay tutuldu, gün ağladı.

Hansı barıt, hansı güllə,
hansı silah tökdü qanı,
Yoldu ağaclar saçını,
bir hönkürdü, min ağladı.

Qan gölündə çimdi çıxdı,
tarın bütün pərdələri,
Qəlbimizdə qəmli tellər,
saçımızda dən ağladı.

Nə çığırmaq, nə bağırmaq,
nə çağırmaq mümkün idi,
İçimizdə batan səsə
dağ başında çən ağladı.

Allah özü yaş axıtdı
bir güllənin dəhşətinə,
Şair haqqı tək qoymadı,
Allah ilə tən ağladı.

2006, 9 oktyabr

OZAN YOXDU, OZAN YOX

Mən deyəni ipə-sapa düzməyə,
Yazan yoxdu, yazan yoxdu, yazan yox.
Yuxularım müəmmalı, düyünlü,
Yozan yoxdu, yozan yoxdu, yozan yox.

Üstümüzdə qadağalar, hədələr,
Bağrımızda sızıltılar, zədələr.
Dərd açmağa çoxdan ölüb Dədələr,
Ozan yoxdu, ozan yoxdu, ozan yox.

Bir yetim var, çəkən yoxdu nazını,
Bir qərib var, sındırıblar sazını.
Yazan kişi tərsə yazıb yazını,
Pozan yoxdu, pozan yoxdu, pozan yox.

2006, 25 noyabr

İLHAM

Oxucularla görüşlərin birində mənə
belə bir sual verdilər:"İlham sizin üçün nə deməkdir?"
Cavabım aşağıdakı misralar oldu.

Dəli tufanlara sinə gərənim,
Ulu misralara ömür verənim,
Haqdan danışanım, haqqı görənim,
Çəmənlər qoynundan çiçək dərənim,
Dəryalar dibindən ləl çəkənimdi!

Oğuzum, qopuzum, sazım, ozanım,
Yolu göstərənim, yuxu yozanım,
Tanrıtanımazım, Halaypozanım,
"Allahu-əkbərim", sübhüm, əzanım,
Doğru danışanım, doğru yazanım,
Bəndədən Allaha yol çəkənimdi!

Dağdan süzülənim, daşdan qopanım,
Qəlbə yayılanım, cana hopanım,
Halal yoğuranım, hazır yapanım,
Zərrənin içində dünya tapanım,
Güllərin gözündən bal çəkənimdi!

Döyüşdə əsgərdi, torpaqda səngər,
Dənizdə tufandı, dalğada ləngər.
Qələmdə əsərdi, səngərdə əsgər,
Haqqın pərvanəsi, haqqın vurğunu,
Nahaqqın gözünə mil çəkənimdi!

YARATDI

Əllərimin içindədir gözümün yaşı,
Tanrı məni yaradanda kövrək yaratdı.
Dərdə yuva, qəmə beşik, həsrətə məskən,
Sinəm altda bir narahat ürək yaratdı.

Mən dünyanın dəmindən çox qəmini gördüm,
Mən taleyin neçə bəxti kəmini gördüm,
Kirpiyimdə neçə yasın nəmini gördüm,
Baxışımda çən yaratdı, çisək yaratdı.

Ağrıları, acıları qat-qat eylədi,
Gah yandırdı, gah dondurdu, gah mat eylədi.
Qardaş, mənə neyləsə həyat eylədi,
Baxışımda od yaratdı, şimşək yaratdı.

Dönəmmədim bu yollarda bərkə, mətinə,
Yağış oydu, dolu döydü, düşdüm çətinə.
Mən nə deyim təbiətin bu qismətinə,
Məni qaya yaratmadı, çiçək yaratdı.

Küsmüşəmsə, necə deyim barışammaram,
Tanrı olub tanrılarla yarışammaram,
Mən Allahın işlərinə qarışammaram,
Nə qurdusa Allah qurdu, fələk yaratdı!

APARANDA

Yaylığım gözümdən betər ağlayır,
İnsan gözlərini yaş aparanda.
Çimir kirpiklərim duzlu sularda,
Dizimi dağ yeyib, daş aparanda.

Yanan ürəyini soyuda bilmir,
Yatmış taleyini oyada bilmir,
Allahın yoluna qayıda bilmir,
Şeytan azdıranda, çaş aparanda.

Haqdı danışdıran haqqa tən dili,
O, millət dilidi, o, Vətən dili.
Ya başı kəsilir, ya ötən dili,
Şairlər bir azca baş aparanda.

2006, 31 dekabr

LÖVHƏ

Qapqara torpağın qadasın alım,
Səpdiyim toxumlar yamyaşıl oldu.
Yarımçıq qoymadı işini bahar,
Dünya başdan-başa tam yaşıl oldu.

2006, 20 fevral

ŞAİR GÖZLƏRİNDƏN YUXU QAÇANDA

Torpaq ayağının altından qaçır,
Üfüqlər başının üstündən qaçır.
Elə bil kim isə doğma yerindən,
Kim isə ən əziz dostundan qaçır,
Şair gözlərindən yuxu qaçanda.

Bir az havasını kökləyə bilmir,
Əlinin altından gümüş sim qaçır.
Kiminsə ürəyi qubar bağlayır,
Solmuş dodağından təbəssüm qaçır,
Şair gözlərindən yuxu qaçanda.

Yerə də, göyə də salır vəlvələ,
Dənizdə qasırğa, dağda zəlzələ.
Körpülər qorxulu, keçidlər çətin,
Kiməsə pusqu var, kiməsə tələ,
Şair gözlərindən yuxu qaçanda.

Yetimtək boynunu burub gözləyir,
Qürbət yollarında qərib gözləyir.
Kiminsə həsrəti vüsala dönmür,
Kiminsə ömrünü qürub gözləyir,
Şair gözlərindən yuxu qaçanda.

Ən xoşbəxt anını itirib, demək,
Xəstə dərmanını itirib, demək.
Əyilib tərəzi, pozulub nizam,
Dünya sahmanını itirib, demək,
Şair gözlərindən yuxu qaçanda.

ŞƏRƏF

Dünyaya gəlmək – şərəf,
Bu yurd üçün ağlayıb,
Yurd üçün gülmək – şərəf.
Ümid yerinə dönüb,
Gözyaşı silmək – şərəf.
Bu yurdda hər zərrənin
Qədrini bilmək – şərəf.
Dərdsiz insan olarmı,
Yarasız xalq olarmı,
Dərdi də, sevinci də
Paylamaq, bölmək – şərəf.
Döyüşdə əsgər olmaq,
Torpaqda səngər olmaq,
Millət üçün ağlayıb,
Xalq üçün ölmək – şərəf!

2006, 2 aprel

ÜRƏK–PALID

Heç kəsin namərdliyi
qorxuda bilməz məni,
Bircə sən namərd çıxma,
göstər əsl mərdliyi.
Sən elə duruş gətir
tufanların önündə,
Sənə həsəd aparsın
Palıdların duruşu,
qayaların sərtliyi.

Mən bir palıd görmüşdüm,
otuz il bundan qabaq,
Şimşək çaxdı başında,
bürüşüb yıxılmadı.
Tufan yıxmaq istədi,
alov yıxmaq istədi,
Nəhəng gövdə, şax bədən
Yerindən oynasa da,
kökündən yıxılmadı.

Çəkildi qara bulud,
bulud altdan çıxdı gün,
Çaxıb getmişdi şimşək,
palıd yerində idi.
Niyə yıxa bilmədi
tufanlar o nəhəngi,
Eşqi Tanrı yanında,
kökü dərində idi.

O şax palıda bənzə,
mənim qaynar ürəyim,
Təngnəfəsəm deyib
parçalanma, sıxılma.
Düşmənim qəh-qəh çəkər,
dostum yas tutub ağlar,
Sənə yıxılmaq olmaz,
sən möhkəm ol, yıxılma!

2006, 2 aprel

KÖÇAKÖÇ

Köçaköç başlanıb çöldən, çəməndən,
Güllər ürəyinə köçür şairin.
Sular zümzümədə, çaylar harayda,
Sellər ürəyinə köçür şairin.

Toxumu tutarlı, meyvəsi dadlı,
Vurğunu, heyranı piyada, atlı.
Sünbüllü, zəmili, bağlı-bağatlı,
Çöllər ürəyinə köçür şairin.

Gözəllər utancaq, mən açıq-saçıq,
Açıqlıq Allaha gəlməsin acıq.
Qəlbin qapıları taybatay açıq,
Ellər ürəyinə köçür şairin.

Dağ yolu, bağ yolu, təbiət yolu,
Eşq yolu, pir yolu, mərhəmət yolu,
Bir sevda uğrunda min zəhmət yolu,
Yollar ürəyinə köçür şairin.

2006, 3 iyun

SÖZ

Məni susdurammaz düşmən gülləsi,
Məlhəmdi qəlbimin yarasında söz.
Qüdrətdi dilimin şah damarında,
İşıqdı gözümün qarasında söz.

Söz üçün ən ulu dərgaha vardım,
Mən sözün eşqinə sinəmi yardım.
Axtara-axtara gedib tapardım,
Olsaydı dünyanın harasında söz.

"Ol!" – dedi, dünyanı sözdən yaratdı,
Tanrı da söz ilə şöhrətə çatdı.
Dağılmaz, yıxılmaz körpülər atdı,
Ağılla ürəyin arasında söz.

2006, 19 iyun

MÜBARİZƏ

Siz mənim ruhumu
qıra bilməzsiniz,
Qəlbimi sındıra
bilməzsiniz.
Kitabımı yandıra bilərsiniz,
Qəlbimin kitabında
Bircə varağı
cıra bilməzsiniz!

2006, 19 aprel

DOST ÜÇÜNDÜ ŞEİRİM, SÖZÜM, DASTANIM

Nə yaxşı ki, həmdərdi var dərdimin,
Dost zamanım, dost saatım, dost anım.
Dostlar məni qala kimi qorudu,
Yad tərəfdən daşlananda bostanım.

Biri dəftər, biri qələm gətirdi,
Biri sarğı, biri məlhəm gətirdi,
Ruha sirdaş, qəlbə həmdəm gətirdi,
Dost səhərim, dost axşamım, dost danım.

Elin qəlbi bir dünyadır, bir cahan,
Şair üçün cahan sirdi, sirr cahan.
El sevgisi qoymadı ki, bircə an,
Yalqız qalım, yasa batım, yaslanım.

Heç bir kəsə üzqarası deyiləm,
Heç bir qəlbə söz yarası deyiləm,
O dünyaya aparası deyiləm,
Dost üçündü şeirim, sözüm, dastanım.

2006, 20 iyun

MƏNDƏDİ

Dərdimə dərman axtarma,
Dərd məndə, dərman məndədi.
Ərzimi şaha söyləmə,
Güc məndə, fərman məndədi.

Köhnə dünyanın qəmiyəm,
Bütün qəmlərin cəmiyəm.
Sünbül dolu bir zəmiyəm,
Dən məndə, xırman məndədi.

Damarda qan ölür, ölsün,
Cismimdə can ölür, ölsün.
Bir Zəlimxan ölür, ölsün,
Neçə Zəlimxan məndədi.

2006, 25 iyun

NƏVƏM YUSİFƏ

Min şükür, qədəmin dəydi torpağa,
Təzə ayaq açıb yeriyən nəvəm.
Öpəndə gül kimi yanaqlarından,
Bal kimi süzülən, əriyən nəvəm.

Mən sənə atamın adını verdim,
Mən sənə ruhumun dadını verdim,
Mən sənə qəlbimin odunu verdim,
Sevinci dünyanı bürüyən nəvəm.

Yusif, Zəlimxanın ürəyi, canı,
Dan yeri, sabahı, dini-imanı.
Axır damarında şairin qanı,
Sazım dinən kimi kiriyən nəvəm.

2006, 27 iyun

BU NƏHƏNG AĞACI KİM KƏSİB GÖRƏN

Budaqlar günəşin zərində idi,
Kökləri neçə qat dərində idi,
Dünyanın ən gözəl yerində idi,
Bu nəhəng ağacı kim kəsib görən?

Becərmək, bəsləmək, yetirmək olmur,
Həmişə dünyaya gətirmək olmur,
İtirmək asandı, bitirmək olmur,
Bu nəhəng ağacı kim kəsib görən?

Suyunu kəsdilər qurutmaq üçün,
Sərdilər torpağa, çürütmək üçün,
Acgöz mədələrdə əritmək üçün,
Bu nəhəng ağacı kim kəsib görən?

Başıma min cürə xəyallar gəlir,
Yadıma haramlar, halallar gəlir.
Suallar dalınca suallar gəlir,
Bu nəhəng ağacı kim kəsib görən?

Çalmağa öyrənmiş ilanlar desin,
Talançılar desin, talanlar desin,
Sapı özümüzdən olanlar desin,
Bu nəhəng ağacı kim kəsib görən?

Dağlardan şığıyan tufan yıxmadı,
Torpaqdan qabaran vulkan yıxmadı,
Onu insan yıxdı, heyvan yıxmadı,
Bu nəhəng ağacı kim kəsib görən?
Bu nəhəng ağacı kim kəsib görən?

2006, 27 iyun

XƏYAL–XATİRƏ

Ürəyim nə istəyir;
Budaqları yuvalı,
Yuvaları havalı
Yaşıllıqlar ölkəsi.
Yanında qaynar bulaq,
Yaşıl ağac kölgəsi.

Ürəyim nə istəyir;
O sərin kölgəlikdə
Bir cüt qız baxışları.

Ürəyim nə istəyir;
Saçımızı isladan
Narın yaz yağışları.

Ürəyim nə istəyir;
Uçurumdan, aşırımdan
Keçən ara yolları.
Bülbüllərlə öpüşən,
Yaylaqlara yetişən
Kəndin qara yolları.

Ürəyim nə istəyir;
Qızıl yallı köhlən at,
Dəli bir igid ömrü,
At üstə keçən həyat.

Ürəyim nə istəyir;
Analı günlərimi,
Atalı günlərimi.

Sevgidən haşiyəli,
Butalı günlərimi.

Ürəyim nə istəyir;
Məni dağa qaldıran,
Məni dağdan endirən,
Aşıq kimi oxudan,
Şair kimi dindirən
Dağ ola, aran ola.
Bir möcüzə baş verə,
Məni o günlərimə
Alıb qaytaran ola.

Ürək çox şey istəyir;
Verəni göstər mənə.
Qəlbindən keçənləri
Görəni göstər mənə.
Kimin gücü çatar ki,
Keçmişini qaytarıb
Bu günlərə gətirə.
Yüz də öldür özünü –
Sabahımız xəyaldı,
Dünənimiz xatirə.

2006, 8 avqust

DİRİLİK SUYUDUR MƏNİMÇÜN HƏYAT

Nə vaxt bu çeşmənin gözündən içdim,
Nə zaman tuş gəldim suya, bilmirəm.
Neyçün tanrı məni şair yaratdı,
Mən hələ bu sirri duya bilmirəm.

Göydə ulduz nədi, yerdə çiçək nə,
Yerdə insan nədi, göydə mələk nə,
Bu qədər sevgi nə, sevən ürək nə,
Saydıqca sayıram, saya bilmirəm.

Qəzəbi qaynadır, hirsi daşdırır,
Dünya düz yollarda yolu çaşdırır.
O məni özündən uzaqlaşdırır,
Mən onu gözümdən qoya bilmirəm.

Ağrısı, əzabı olsa da qat-qat,
Könül, bu sevginin laylasına yat.
Dirilik suyudur mənimçün həyat,
İçdikcə içirəm, doya bilmirəm.

2006, 9 avqust

QURBANAM, TÜRKƏ QURBAN

Tanrının əsəridi,
Tanrılara tən gəlib.
Çırpıb qanadlarını,
Enib göylərdən gəlib,
Qurbanam, Türkə qurban!

Allah özü güc verib,
Qoluna, qanadına.
Bir mələk pıçıltısı
Türk söyləyib adına,
Qurbanam, Türkə qurban!

Dəliləri dəlimdi,
Haqqa çatan əlimdi.
İlkimdi, əvvəlimdi,
Əvvələ, ilkə qurban,
Qurbanam, Türkə qurban!

Dərd bağlanıb yükünə,
Budağına, kökünə.
Türkün bircə tükünə
Min Oğuz, Bilgə qurban,
Qurbanam, Türkə qurban!

Haqqın yolu deyiləm,
Haqla dolu deyiləm.
Anadolu deyilən
Görkəmə, görkə qurban,
Qurbanam, Türkə qurban!

Can içində can nədi,
Damardakı qan nədi,
Altay, Türküstan nədi,
Bu sirri dərkə qurban,
Qurbanam, Türkə qurban!

Gülşənimdi, lalamdı,
Balası öz balamdı.
Şəhərimdi, qalamdı,
Təbrizə, Ərkə qurban,
Qurbanam, Türkə qurban!

Bir nəfəri qalınca,
Gedər Haqqın dalınca.
Qurşadığı qılınca,
Qoyduğu börkə qurban,
Qurbanam, Türkə qurban!

Təmiz, sağlam niyyətə,
Ulu mədəniyyətə,
Bir böyük həqiqətə
Min cürə bəlkə qurban,
Qurbanam, Türkə qurban!

Arxalanıb qeyrətə,
Gedir əbədiyyətə.
Yaratdığı cənnətə,
Saldığı mülkə qurban,
Qurbanam, Türkə qurban!

Mən Türkün nəfəsiyəm,
Mən Türkün nəvəsiyəm.
Atillalar, Metelər,
Manaslar əvəziyəm.
Bu işıqlı həvəsə,
Bu tükənməz nəfəsə
Yer-göy, varlıq, Kainat,
Gün qurban, kölgə qurban!
Qurbanam, Türkə qurban!!!

2006, 10 avqust

AŞIQ HÜSEYN SARAÇLI DASTANI

Məhlə aşığı deyil,
yurd-mahal aşığıydı,
Bal dilli millətimin
dili bal aşığıydı.
Meydanda Qoç Koroğlu,
Rüstəm-Zal aşığıydı, –
Aşıq Hüseyn Saraçlı.

Allah sözü-söhbəti
tökərdi bacasından,
Almışdı öz dərsini
xocalar xocasından,
Doluydu, müdrik idi
min ilin qocasından, –
Aşıq Hüseyn Saraçlı.

İncə bel, enli kürək,
eşmə bığ, meydan sinə,
Gözündə güllü yaylaq,
xəyalında dağ-binə,
Qartal kimi qonardı
dağların zirvəsinə, –
Aşıq Hüseyn Saraçlı.

Beldə gümüşü kəmər,
başda buxara papaq,
Göz sevgi sultanlığı,
sinə alışan ocaq,
Doğulmuşdu elə bil
min il bizlərdən qabaq, –
Aşıq Hüseyn Saraçlı.

Bir köhlən at varıydı –
ər oğlu ər minərdi,
Hər axşam sığal çəkib,
qalxıb səhər minərdi,
Bədöy atlar seçərdi,
qaşqa kəhər minərdi, –
Aşıq Hüseyn Saraçlı.

Ayaqları öpərdi
gümüşü üzəngini,
Qartal qanad salardı
oxuyanda "Cəngi"ni,
Qatardı söhbətinə
yerin, göyün rəngini, –
Aşıq Hüseyn Saraçlı.

Sazının laylasında
neçə aşıq böyütdü,
Neçə şairi xalqa
yar-yaraşıq böyütdü.
Bizdə bir sənət adlı
sönməz işıq böyütdü, –
Aşıq Hüseyn Saraçlı.

Təbriz, Dərbənd, Borçalı,
Göyçə, Naxçıvan oldu,
Ömrün yetmişində də
oğlantək cavan oldu.
Söz-söhbəti axarlı,
ləhcəsi rəvan oldu, –
Aşıq Hüseyn Saraçlı.

Seçərdi deyimlərin
yaxşısından, eyindən,
Sözü candan gələrdi,
səsi başdan, beyindən,
Od almışdı Tanrının
kamanından, neyindən, –
Aşıq Hüseyn Saraçlı.

Naləsiydi "Mansırı",
fəryadıydı "Bəhmanı",
Bir ozan geyimiydi
səliqəsi, sahmanı,
Ürəklərin dostuydu,
könüllərin mehmanı, –
Aşıq Hüseyn Saraçlı.

Dilinin şah damarı
Şenlik, Şair Nəbiydi,
Onun qoşa qanadı
elmiydi, ədəbiydi.
Çayların axarıydı,
çeşmələrin təbiydi, –
Aşıq Hüseyn Saraçlı.

"Atüstü" havasına
çəkəndə bayatını,
At üstündə görərdi
hər kəs öz həyatını.
Saz ilə tanıdardı
hər kəsə öz zatını, –
Aşıq Hüseyn Saraçlı.

Gözlərini açanda
qan gördü, qada gördü,
Dərdi dərin bir dəniz,
özünü ada gördü,
Bəxtini Tahir kimi
qanlı dəryada gördü, –
Aşıq Hüseyn Saraçlı.

Xalları seçilərdi
şirin xallar içində,
Başdadı daim yeri
əhli-hallar içində,
Gəzdi qəmli fikirlər,
xoş xəyallar içində, –
Aşıq Hüseyn Saraçlı.

Nəfsi halala qondu,
halaldan safa çatdı,
Səsi Ağrıya yetdi,
Ağrıdan Qafa çatdı,
Naxçıvana yetişdi,
Qasım Sərrafa çatdı, –
Aşıq Hüseyn Saraçlı.

Çox yerdə qərar tutub,
bilən bilir kimdədi,
Sazdadı, mizrabdadı,
pərdədədi, simdədi,
Dörd ünsürün cəmində,
on iki iqlimdədi, –
Aşıq Hüseyn Saraçlı.

Onu sazdan yaratdı,
sözdən doğdu anası,
Ozan ömrü, saz ömrü
həyatının mənası.
O mənim Şəmsim oldu,
mən onun Mövlanası, –
Aşıq Hüseyn Saraçlı.

Can dedi, can eşitdi,
eşqi bir cahan oldu,
Məclisindən doymadıq,
sübh açıldı, dan oldu.
Bir dastan aşığıydı,
dillərdə dastan oldu, –
Aşıq Hüseyn Saraçlı.

Gözdədi, könüldədi,
nəfəsdədi, candadı,
Düşüncədə, fikirdə,
ilikdədi, qandadı,
Toxumla torpaq kimi
hər gün Zəlimxandadı, –
Aşıq Hüseyn Saraçlı.

2006, sentyabr–noyabr
Bakı–Kislovodsk

NƏYİ SƏPİRSƏNSƏ, O VERƏCƏK DƏN

Könül bağçasında budağı əyə,
Şirin meyvələri ariflər dərə.
Kobud adamların əli dəyməyə,
Zərif çiçəkləri zəriflər dərə.

Nəyi səpirsənsə o verəcək dən,
Qanqalın yerində qanqaldır bitən.
Bu qoca dünyada heç görmədim mən,
Təhqirlər yağdıran təriflər dərə.

2006, 12 avqust

USTAD ŞƏHRİYAR OXUYUR

Azərbaycan Dövlət Televiziyasında Şəhriyara həsr olunmuş veriliş gedirdi. Şəhriyarın həyatından canlı, maraqlı görüntülər göstərirdilər. Təbrizi, Heydərbabanı, Xoşginabı qoca yaşında seyrə çıxan ustad öz şeirlərini muğam üstündə oxuyurdu.

Səsin ömrü tükənməzdi,
getdikcə yol gedər bəndə.
"Ləhni-Davud" avazı var,
enər şəhrə, düşər kəndə.
Bu səs Haqdan gəlir, Tanrım,
nə aşıqdı, nə xanəndə,
Bu avazdan coşa gəlib
zirvələrdə qar oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Məcnuna bax, Leyli deyib
min ildi səhrada yatır,
Sirrimiz ərzi-ələda,
dərdimiz dəryada yatır,
Qırx yaşında el gözəli
Behişti-Zəhrada yatır,
Əzizəsi vaxtsız köçən
yanğıyla "yar-yar" oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Udmaq olmur, çəkmək olmur
zalımlardan gələn dərdi,
Hələ ki, ağladammırıq
üstümüzə gülən dərdi.
"Segah" ilə ovundurur
yurdumuzu bölən dərdi,
Tufarqanlı Abbas kimi
ağlayır zar-zar oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Ayrılığın nəfəs kəsən,
zərbə vuran pəncəsi var,
Bir görüşə gələn yolun
min cürə işgəncəsi var.
Bir-birinə həsrət qalan
Ərdəbili, Gəncəsi var.
Bakı-Təbriz dərdlərini
çəkib xalqa car, oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Şirin layla, oxşamadı,
arı səsi, bal səsidi,
Əl yetməyən bir arzudu,
şirin bir xəyal səsidi.
Mənim üçün elə bildim
Xan səsi, İqbal səsidi1,
Şairlə baş-başa verib
kaman dinir, tar oxuyur,
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Tanrı ona bir ah verib,
hey qaldırar ah dağına,
Qaradağdan Qarabağa,
Savalandan Şahdağına,
Keçir "Şur" ilə "Şahnaz"ı,
qalxır Cahargah dağına.
Bir səslə Şəhriyar deyib,
bu gün hər diyar oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Bu səsdə tək gözyaşı yox,
döyüş də var, cəngi də var,
Səttərxanın nərəsi də,
Arazın ahəngi də var,
Hər muğamın öz təsnifi,
hər təsnifin rəngi də var,
Bir millətin damarında
qeyrət dinir, ar oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Sözü peyğəmbər məqamı,
eşqi mələk mərtəbəsi,
Şeirin şahı, haqqın qulu,
taxtı fələk mərtəbəsi,
Ətri, rəngi, təravəti
gül və çiçək mərtəbəsi,
Bağban açıb qucağını,
ağac gülür, bar oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

"Heydərbaba" sətirləri
dağa hopur, daşda qalır,
Köçür zamandan zamana,
könüldə, yaddaşda qalır,
Qoca dünya qocalsa da,
şair eyni yaşda qalır.
Yaradanın sirlərindən
olur xəbərdar, oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

Bu səs mənə Vurğun deyir,
Süleyman, Bəxtiyar deyir,
O tay-bu tay hər oylağı
gəzək diyar-diyar deyir,
Zəlimxana Vətən üçün
yaz-yarat hər nə var deyir,
"Vətən" adlı bir nəğməni
min dəfə təkrar oxuyur, –
Sus, oxuma, sus, ey bülbül,
ustad Şəhriyar oxuyur.

2006, 20 avqust

BU ALƏMDƏN GÖZƏL BİR ALƏMİM YOX

Məni aləmimdən ayırma, qardaş,
Bu aləmdən gözəl bir aləmim yox.
Yaratmaqdan başqa, yazmaqdan özgə,
Bir dərdim, sevincim, bir ələmim yox.

Əridim, hər dəfə əriyəndə şam,
Yandım da, bişdim də, yaşamadım xam.
Sərvətim bir sazdı, bir halal ilham,
İtən karvanım yox, batan gəmim yox.

Nə bərkdə təntiyər, nə boşda azar,
Onu udmaz ölüm, çürütməz məzar.
Nə yazsa haqq yazar, həqiqət yazar,
Boş yazan, çaş yazan, bil, qələmim yox.

2006, 13 avqust

YAZ AXŞAMI

Gəl, ey dünyanın gözəli,
Gəl, gəzək bu yaz axşamı.
Ruhumuzun yaşıl vaxtı,
Ömrümüzün saz axşamı.

Ortaya qəm gətirməyək,
Dərd yük olsa, götürməyək.
Boş-boşuna ötürməyək,
Bəxtə düşən az axşamı.

Bir yaram var, məlhəm eylə,
Zəlimxanı Kərəm eylə,
Barmağını qələm eylə,
Bəxtimizə yaz axşamı.

2006, 23 avqust

TANRININ ÖZÜDÜ YAŞADAN MƏNİ

Dünyaya birgünlük gəlməmişəm mən,
İllərin yüzüdü yaşadan məni.
Dənizin laylası, torpağın eşqi,
Göylərin üzüdü yaşadan məni.

Yaxşı nə verəcək qeyrilər mənə,
Ayrılıq gətirər ayrılar mənə.
Qoy yaxın gəlməsin əyrilər mənə,
Düzlərin düzüdü yaşadan məni.

Bir nadan üstümə bir qab atanda,
Zir-zibil doldurub, çirkab atanda,
Xarab əl sahibi xarab atanda,
Çeşmənin gözüdü yaşadan məni.

Şər-böhtan qan tökər, silah qaldırar,
Tamahın üstünə tamah qaldırar.
Bəndə "yıxdım" deyər, Allah qaldırar,
Tanrının özüdü yaşadan məni.

2006, 7 sentyabr

İLDIRIM

Min bir yerdən yarğan açdı,
Torpağa hopan ildırım.
Yardı yerin sinəsini,
Buluddan qopan ildırım.

Yaxınları araladı,
Bütövləri paraladı.
Neçə palıd yaraladı,
Qayadan sapan ildırım.

Gecə ötdü, dan oxudu,
Havası qan-qan oxudu.
Dağlara meydan oxudu,
Daşları çapan ildırım.

Canımda bir qorxulu ah,
Açılmaq bilmir sabah.
Heç kəsi vurmasın, Allah,
Şairi tapan ildırım.

2006, 11 noyabr

ÜRƏKAÇAN YOL GEDƏSƏN

Ürəkaçan yol gedəsən,
Dərdin-azarın olmaya.
Allah yolundan savayı,
Başqa güzarın olmaya.

İtməyə yerin-yerişin,
Haqqınan ola hər işin.
Dünyayla alış-verişin,
Behin-bazarın olmaya.

Çəmən anan, çiçək bacın,
Başın üstə günəş tacın.
Qürbətdə bir ağrın-acın,
Qərib məzarın olmaya.

2006, 12 avqust

GƏLLƏM

Nə hündür, nə uca dağlara çıxdım,
Enib bu dağların düzünə gəlləm.
Gözümdə gözəllik, başımda hava,
Qəlbimdə eşq adlı xəzinə gəlləm.

Duyğular müqəddəs, fikirlər dərin,
Duydum mənasını xeyirin-şərin.
Yolundan çıxdığım həqiqətlərin
Qayıdıb yoluna, izinə gəlləm.

Zirvələr tutqundu, yollar dumandı,
Kədər əbədidi, sevinc bir andı.
Yaman adamların üzü yamandı,
Yaxşı adamların üzünə gəlləm.

Şimşəklər od salar, tufanlar dava,
Durular, bulanar, qarışar hava.
Qoynuna çağırar məni yurd-yuva,
Duru bulaqların gözünə gəlləm.

Qocalıq dilində dinmək vaxtıdı,
Budaqdan köklərə dönmək vaxtıdı,
Göylərdən yerlərə enmək vaxtıdı,
Baş qoyub anamın dizinə gəlləm.

2006, 25 mart

ALLAH KƏSSİN QÜRBƏTİ

Bir qəribin dilindən

Allah kəssin qürbəti,
Ara yerdə öləni,
Atılıb itəni var.
Qərib torpaq, yad toxum,
Nə sağlam böyüyəni,
Nə sağlam bitəni var.
Ağrıyıb sızlayanda
Nə dada çatanı var,
Nə haya yetəni var.
Ömrü boyu qəribi
Bircə fikir göynədir:
Ölüm gəlib çatanda
Rahat uyumaq üçün
Desinlər torpağı var,
Desinlər Vətəni var.

2006, 9 avqust

HƏMİŞƏ BEŞİKDƏN GƏLƏCƏK SƏSİ

Alınmaz qalamdı, yıxılmaz dağım,
Təmkində, dözümdə, səbirdə şeirim.
Üstə şeh çilənmiş gül yarpağıdı,
İsmətdə, həyada, abırda şeirim.

Ruhunda yurdumun dağı, dərəsi,
Ellər arxasıdı, sellər nərəsi.
Həmişə beşikdən gələcək səsi,
Heç vaxt yatmayacaq qəbirdə şeirim.

Yerdə də, göydə də qol-qanadı var,
Ətri var, rəngi var, sehri, dadı var.
Özü bir olanın minbir adı var,
Var oldu o Mində, o Birdə şeirim!

2006, 17 avqust

SAFLIQ – GÖZƏLLİK

Nə bayquş var, nə bayquşun nəfəsi,
Nə zindan var, nə zindanın qəfəsi.
Cənnətim var, min cənnətin əvəzi,
Dumduruyam,
dumduruyam,
dumduru.

Nə şeytan var, nə şeytanın səsi var,
Nə xəcalət, nə də onun təri var.
Qəlbimdə bir ilham adlı pəri var,
Dumduruyam,
dumduruyam,
dumduru.

Gül də mənəm, gül şəhdini əmən də,
Şeh də mənəm, şeh nurunda çimən də.
Çiçək də mən, çeşmə də mən, çəmən də,
Dumduruyam,
dumduruyam,
dumduru.

Dağ da mənəm, zirvə də mən, ətək də,
Bal da mənəm, arı da mən, pətək də.
Ney də mənəm, saz da mənəm, tütək də,
Dumduruyam,
dumduruyam,
dumduru.

Ölüm gözəl, ömür gözəl, gün gözəl,
İnsaf gözəl, iman gözəl, din gözəl.
Dünya gözəl, həyat gözəl, mən gözəl,
Dumduruyam,
dumduruyam,
dumduru.

2006, 11 iyul

HAZIRLIQ

Qış gələndə sərt gələcək,
Qışa hazırlıq görürəm.
Ölümə də, həyata da,
Qoşa hazırlıq görürəm.

Kimi aşır, kimi daşır,
Kim düz deyir, kimi çaşır.
Altmışa yaxınlaşır,
Yaşa hazırlıq görürəm.

Sevgi bağrımın parası,
Ağrı qəlbimin yarası.
Ehsan üçün aşqarası,
Aşa hazırlıq görürəm.

Biryolluq gedən olacaq,
Ruhsuz bir bədən olacaq.
Başdaşım nədən olacaq,
Daşa hazırlıq görürəm.

Çovğununda, qışındayam,
Bəlaların başındayam,
Lap yarğanın qaşındayam,
Qışa hazırlıq görürəm.

2006, 18 avqust

QOCA DÜNYA

Dolanır həftələr, günlər,
Ötən ayların içində.
Bulaqlar gəlir görüşür,
Dəli çayların içində.

Vaxt yetişdi, vədə yetdi,
Etdiyini zaman etdi.
Kimlər gəldi, kimlər getdi,
Saysız sayların içində.

Baxmır toxa, aca dünya,
Baxmır taxta-taca dünya.
Dövr eyləyir qoca dünya,
Gələn toyların içində,
Gedən vayların içində.

2006, 21 avqust

YOXDUSA

İnsan oğlu vaxtsız getməz həyatdan,
Bir qəzası, bir qədəri yoxdusa.
Xoşbəxtlərin xoşbəxtidi dünyada,
Yurd sarıdan dərdi-səri yoxdusa.

Ocaq keçər, könül küldən qor ummaz,
Qərib düşən qürbət eldən gor ummaz.
O dağlarda adətimiz qorunmaz,
Oğul toyu, qız nəməri yoxdusa.

Ceyran bulaq sinəm üstən car olmur,
Başı üstə saz dillənmir, tar olmur.
Niyə mənim qulaqlarım kar olmur,
Dəlidağdan bir xəbəri yoxdusa.

Vaxtsız solub tökülməzdi xəzəli,
Bu torpağın öz başıydı, öz əli.
Necə gəzsin Azərbaycan gözəli,
Tərtər kimi bel kəməri yoxdusa.

Bir canı var hər yaranan dastanın,
Ruhu yoxsa, izi yoxdur insanın.
Qan-yaş tökər, Ağadabanlı Qurbanın
Qonaq gələn Ələsgəri yoxdusa.

Söz özüydü, saz özüydü, səs özü,
Bir dünyaydı, bu dünyaya bəs özü.
Zəlimxanın nə özü var, nə sözü,
Ana yurdun Kəlbəcəri yoxdusa.

2006, 3 aprel

DƏYİŞMƏZ

Hər zaman çalsa da öz havasını,
Heç vaxt sənətkara rəğbət dəyişməz.
Dünya dəyişər də, dəyişilər də,
Əqidə dəyişməz, sifət dəyişməz.

Kim südü çürüksə, o saxta çıxar,
Kim şah olacaqsa, o taxta çıxar.
Alına nə yazılıb, o baxta çıxar,
Allahın verdiyi qismət dəyişməz.

Yazdığın yazıdan, əsərdən yapış,
Sözün gücündəki kəsərdən yapış.
Zəlimxan, qələmdən, dəftərdən yapış,
Siyasət dəyişər, sənət dəyişməz.

2006, 2 iyun

MƏNİM SAZIM SINDIRILAN SAZ DEYİL

"Zəlimxan Yaqubun sazında bir tel qırılıb".
"Azadlıq" qəzetində dərc
olunan bir yazıdan

Onu qırmaq istəyənlər az deyil,
Mənim sazım sındırılan saz deyil.
Öldürsələr, ruhum saza dönəcək,
Yandırsalar, ahım saza dönəcək.
İşıq alıb Qurandakı ayədən,
Rəhman ilə rəhim saza dönəcək.
Şeyx oğluna səsim gedib çatanda,
Təpə-dırnaq şahım saza dönəcək,
Mənim sazım sındırılan saz deyil.

Sinəm onun sipəridi, sipəri,
Bir telinə toxunmağa qoymaram.
Kirpiklərim çəpəridi, çəpəri,
Qan yerinə damarımdan saz axar,
Qan qaynadan təpəri var, təpəri.
Bu pərdədən, bu çanaxdan, bu qoldan
İlahinin xəbəri var, xəbəri,
Mənim sazım sındırılan saz deyil.

Qaya uçar, qala çökər, daş sınar,
Hər daş üstə neçə-neçə baş sınar.
Nadanların atdığı daş iş görər,
Neçə-neçə göz tökülər, qaş sınar.
Yerli-yersiz zərbələrə tuş gələr,
Qol qırılar, baş kəsilər, dil sınar,
Mənim sazım sındırılan saz deyil.

Yer ayağı, göy dayağı, səs canı,
Ulu kökdü, təzə qalxan pöhrədi.
Həm Məcnundu, həm Leylidi, həm Kərəm,
Həm Qəribdi, həm Tahirdi, Zöhrədi.
Sinəsində dəryaları çalxadan,
Buludları çalxalayan nəhrədi.
Dalğaları şahə qalxan dənizdi,
Qumsalları od püskürən səhradı.
Çürük deyil oxalanan sim ola,
Çör-çöp deyil küləklərə yem ola,
Mənim sazım sındırılan saz deyil.

Yerin-göyün görkəmidi, görküdü,
Təbiətin sevgisidi, ərkidi.
Yaxşılığa dəvətidi dünyanın,
Yamanlığın birdəfəlik tərkidi.
Dodağında Türk adlanan millətin
Şirin səsdi, xoş avazdı, türküdü.
Bəndəsindən Allahına yol gedər,
Yaranmışın yaradanı dərkidi,
Mənim sazım sındırılan saz deyil.

2006, 24 iyul

BAŞ YASTIĞA GƏLƏNDƏ

Səs qınına çəkilər,
Otaqda sükut gəzər.
Gələr, gedər, çəkilər,
Baxışda bulud gəzər.
Xəstənin ürəyində,
Dəli bir umud gəzər,
Baş yastığa gələndə.

Damaqda dada gəlməz,
Alma, heyva, nar payı.
Gözlərinə görünməz,
Dost sovqatı, yar payı.
Əjdahaya çevrilər,
Yorğan-döşək, çarpayı,
Baş yastığa gələndə.

Damcılar təsbeh kimi,
Kirpiklərə düzülər.
Durar göz qapaqları,
Gözlər axar, süzülər.
Əl göydən, göz tavandan,
Ayaq yerdən üzülər,
Baş yastığa gələndə.

Qaçaq düşər sevincin,
Qol açarsan dərdə sən.
Tanıyarsan ölümü,
Alnındakı tərdə sən.
Həmsöhbət olarsınız,
Göydə Allah, yerdə sən,
Baş yastığa gələndə.

Ağı deyən analar,
Ağısını hazırlar.
Fələk Əzrayıl adlı,
Yağısını hazırlar.
Möhür basan, qol çəkən,
Kağızını hazırlar,
Baş yastığa gələndə.

Mələklər qanadında
Tanrı kəlamı gələr.
Bəndənin hüzuruna
Haqqın salamı gələr.
Əcəlin vahiməsi,
Ölümün tamı gələr,
Baş yastığa gələndə.

2006, 9 avqust

MƏNDƏN QORXUNUZ OLMASIN

Büdrəmək var, yıxılmaq yox,
Məndən qorxunuz olmasın.
Əyilmək yox, sıxılmaq yox,
Məndən qorxunuz olmasın.

Yoxdu içərimin xıltı,
Nə zülmətəm, nə qaraltı.
Mənimdi göylərin altı,
Məndən qorxunuz olmasın.

Nə itənəm, nə batanam,
Nə alanam, nə satanam.
Tanrı taxtına çatanam,
Məndən qorxunuz olmasın.

Əldə dürüst qələm varsa,
Qələmdə bir aləm varsa,
Millət adlı Lələm varsa,
Məndən qorxunuz olmasın.

Cavandayam, qocadayam,
Bəzirganda, xocadayam.
Ucalardan ucadayam,
Məndən qorxunuz olmasın.

"Ol!" deyilən həmən "Ol"am,
Üfüqləri qucan qolam,
Sonsuzluğa gedən yolam,
Məndən qorxunuz olmasın.

Dağ qamətim, zirvə başım,
Tarix ömrüm, zaman yaşım.
Qaya gücüm, daş yaddaşım,
Məndən qorxunuz olmasın.

Çayı nədir, arxı nədir,
Bu fələyin çarxı nədir.
Mən varamsa, qorxu nədir,
Məndən qorxunuz olmasın.

2006, 9 avqust

O QUŞ MƏNİM QƏLBİMİ AÇMAQ ÜÇÜN OXUYUR

Quş quşluğunnan bilir
tutqunam, dumanlıyam,
O quş mənim qəlbimi
açmaq üçün oxuyur.
Bilir ki, daş atıblar
qəlbimin aynasına,
O quş mənim qəlbimi
açmaq üçün oxuyur.

O yuva o budağın,
budaq quşun qisməti,
Qurulan hər nə varsa,
quruluşun qisməti.
Bu nəğmələr ürəyin,
ağlın, huşun qisməti,
O quş mənim qəlbimi
açmaq üçün oxuyur.

Çən-dumanı başımdan
dağıdan meh – küləkdi,
Ruhumun bağçasında
toxum saldı, gül əkdi.
Bəlkə, quş libasında
xilaskar bir mələkdi,
O quş mənim qəlbimi
açmaq üçün oxuyur.

Bir dünya var zilində,
bir dünya var pəsində,
Yerin, göyün, varlığın
cilvəsi var səsində.
Bəlkə, Allah göndərib,
Davudun ləhcəsində
O quş mənim qəlbimi
açmaq üçün oxuyur.

Hər ürəyin içində ötən
qumru var, qu var,
Hər səsdə açan çiçək,
dumduru axan su var.
Məni də özü kimi
oxutmaq arzusu var,
O quş mənim qəlbimi
açmaq üçün oxuyur.

2006, 10 avqust

QƏBRİSTANLIQ DÜŞÜNCƏLƏRİ

Hara baxsan daşdı, daş,
qəbristanlıq daşları,
Gedənlər bu daş kimi
laxladılar getdilər.
Ölənlər öldü getdi,
qurtardı öz canını,
Dərdi-qəmi bizlərə
saxladılar getdilər.

Gülüşdən gülüstanı,
gözyaşından dəryası,
Gördülər, yaşadılar
hər bayramı, hər yası.
Hər insan övladının
bir toyu var, bir yası,
Sevindilər, güldülər,
ağladılar getdilər.

Ölüm varsa, nə fərqi,
kim nədən öldü, nədən,
Göylərə ucaldı ruh,
torpaqda yatdı bədən.
Dirilər qara geydi,
ölülərsə ağ kəfən,
Gedəni ağa büküb
ağladılar getdilər.

Yerə-göyə sığmadı
işvələri, nazları,
Aşıq olan kəslərin
dil-dil ötdü sazları.
İgid-igid oğullar
gözəl-gözəl qızları
İylədilər, dərdilər,
qoxladılar getdilər.

Dərman tapan oldumu
dərdinə, azarına,
Ümid varmı dünyanın
behinə, bazarına.
Saraylardan çəkildi
hər kəs öz məzarına,
Əbədi yuxu tapıb
yuxuladılar getdilər.

2006, 23 avqust

SAXTA SEVGİ

Səndən çəkdiyimi çəkdim dünyada,
Rədd ol saxta sevgi, saxta məhəbbət.
Bir də o günləri salmaram yada,
Rədd ol saxta sevgi, saxta məhəbbət.

Ayağı sürüşkən, yaxası cırıq,
Quyusu badalaq, kəndiri qırıq.
Yalançı təbəssüm, yersiz qışqırıq,
Rədd ol saxta sevgi, saxta məhəbbət.

Qəlbində şübhə var, üzündə boya,
Dilində yalan var, gözündə riya.
Ayaqlar altına düşməsin həya,
Rədd ol saxta sevgi, saxta məhəbbət.

Tanıdım rəngləri ağ nə, qara nə,
Bildim bütöv nədir, gördüm para nə.
Səndən yadlara nə, doğmalara nə,
Rədd ol saxta sevgi, saxta məhəbbət.

Sənin övladındı bic doğulanlar,
Sərsəri, yaramaz, gic doğulanlar.
Var olsun sevgiyə tac doğulanlar,
Rədd ol saxta sevgi, saxta məhəbbət.

2006, 8 sentyabr

QABALDA BİR GECƏ

(Bir gecənin duyğuları)

Yağış yağa, şimşək çaxa, göz baxa,
Buludların savaşına baxasan.
Kür atını oynadanda küləklər
Yeyininə, yavaşına baxasan.

Oda dönə köz baxışlar, köz əllər,
İtkiləri ovsunlaya gözəllər.
Payız vaxtı töküləndə xəzəllər,
Yarpaqların savaşına baxasan.

Göylərə bax, ulduzlanıb, aylanıb,
Yerlərə bax, çeşmələnib, çaylanıb.
Üfüqlərin bu başında dayanıb,
Heyran-heyran o başına baxasan.

Sellər coşub dağı-daşı udanda,
Qayaları pambıq kimi atanda,
Təbiətin dəliliyi tutanda,
Nə ağlına, nə yaşına baxasan.

2006, 11 oktyabr

GÖTÜRDÜM

Bir "İldırım" şeiri yazdım Qabalda,
Mayasını ildırımdan götürdüm.
Şimşək vurub dağıtmışdı torpağa,
Hər sətrini bir şırımdan götürdüm.

Görünmürdü göy üzünün günəşi,
Buludlarla özüm tutdum güləşi.
Ürəyimdə alovlanan atəşi,
Bir çınqıdan, bir qırımdan götürdüm.

Qara yelə pay vermədim tükümü,
Palıd kimi dağa atdım kökümü.
Şeir adlı barxanamı, yükümü
Uçurumdan, sıldırımdan götürdüm.

2006, 11 oktyabr

DEYƏNDƏ

Ölərmi, itərmi, batarmı şair,
Təbiət şairə gəl-gəl deyəndə.
Yumub gözlərini yatarmı şair,
Həqiqət şairə gəl-gəl deyəndə.

Fikri çiçək olar, cənnət qoxuyar,
İlahi sözlərdən xalı toxuyar.
Şeiri Quran kimi əzbər oxuyar,
Ləyaqət şairə gəl-gəl deyəndə.

Qara böhtanları almaz eyninə,
İşıqlı göyləri geyər əyninə.
Gülüzlü mələklər qonar çiyninə,
Təravət şairə gəl-gəl deyəndə.

Qılıncın ağzıdı, silahın gücü,
Bu günün səsidi, sabahın gücü.
Gücün Allahıdı, Allahın gücü,
Cəsarət şairə gəl-gəl deyəndə.

Nə olsun vaxt azdı, ömrü az olur,
Qəlbi saf, gözü tox, eşqi saz olur.
Şair ölməz olur, basılmaz olur,
Məhəbbət şairə gəl-gəl deyəndə.

2006, 11 oktyabr

GÜRCÜCƏ OXUYAN AŞIQ

(Turşməzə şeir)

Qabalda bir aşıq gördüm,
Gürcücə oxuyan aşıq.
Məclislərin məzəsiydi,
Gürcücə oxuyan aşıq.

Cərgə-cərgə yardı bizi,
Oynatmaqdan yordu bizi.
Güldürməkdən qırdı bizi,
Gürcücə oxuyan aşıq.

Qoçtək döyüşmək istədi,
Mənlə deyişmək istədi.
Tarixə düşmək istədi,
Gürcücə oxuyan aşıq.

Nə kökdü, nə də arıqdı,
Bir azca boydan qırıqdı.
Zarafatda fısqırıqdı,
Gürcücə oxuyan aşıq.

Gözü gözəldə, xaldadı,
Həngamə hələ daldadı.
Kim axtarsa, Qabaldadı
Gürcücə oxuyan aşıq.

Şirin cana qəsd eylədi,
Məzələndi, məst eylədi.
İki xalqı dost eylədi,
Gürcücə oxuyan aşıq.

Söhbət açdı obasından,
Şeir dedi babasından.
Coşdu sazın havasından
Gürcücə oxuyan aşıq.

"Ekvsi qoqos erti Eteri,
Titon lamaziya qarqiya peri" .
Yandırırdı göyü, yeri
Gürcücə oxuyan aşıq.

"Ekvsi qoqo" , – deyə-deyə,
Ün salmışdı yerə-göyə.
Bənzəyirdi təzə bəyə
Gürcücə oxuyan aşıq.

"Modi, modi çemtan ninazi"
Deyib çağırdı Ednazı.
Zilə çəkdi telli sazı
Gürcücə oxuyan aşıq.

Dağ çiçəyi qoxuyurdu,
Söz xalısı toxuyurdu.
Gözəllərdən oxuyurdu
Gürcücə oxuyan aşıq.

Sevgi yolunda yorğundu,
Qızların üstə qırğındı.
Gürcü qızına vurğundu
Gürcücə oxuyan aşıq.

Hər sözü can, canan olub,
Güldən gülə qonan olub,
Dönüb şeyx Sənan olub
Gürcücə oxuyan aşıq.

Zəlimxanı alqışladı,
Söhbətini naxışladı,
Bizə dünya bağışladı
Gürcücə oxuyan aşıq.

2006, 11 oktyabr

GETDİ

Günəş bir öpüş aldı,
Buzlar əridi getdi.
Baxışların odunda
Nazlar əridi getdi.

Gözdə od, kirpikdə nəm,
Canda dərd, ürəkdə qəm,
Yandırdı "Yanıq Kərəm",
Sazlar əridi getdi.

Gün doğdu, yaza baxdı,
Aşiqlər saza baxdı.
Oğlanlar qıza baxdı,
Qızlar əridi getdi.

2006, 16 oktyabr

BAXIŞLAR

Allah, Allah, bu yanan gözlərə bax,
Çayların, çeşmələrin rəngidi bu.

O baxışdan bu canım yanmadısa,
Dağ deyil, dağların nəhəngidi bu.

Qan-qan deyərək məni meydana çəkir,
Qan tökən bir döyüşdü, cəngidi bu.

Niyə yandım, niyə öldüm, əridim,
Göz deyil, gözlərin qəşəngidi bu.

Ruha güc, qəlbə qanad, canlı həyat,
Ürəyin ritmidi, ahəngidi bu.

2006, 23 oktyabr
Kislovodsk

BU DA PAYIZ FƏSLİ

Bu da payız fəsli, bu da son bahar,
Nərəsi səngiyir dəli çayların.
Ana təbiətdə bir sozalma var,
Dənizdən üzülür əli çayların.

Daha ağrıların yönü bəridi,
Çeşidi çoxalır əzablarımın.
Saralan yarpaqlar nöqtələridi,
Varağı saralmış kitablarımın.

2006, 25 oktyabr
Kislovodsk

YUVASI DAĞILAN QUŞ

Yuvasını dağıtdılar,
O quş yuva dərdi çəkir.
Neçə günün xəstəsidi,
Dərman-dəva dərdi çəkir.

Uçub beçə, qaçıb fərə,
Öz başına qalıb hərə.
Qalxa bilmir zirvələrə,
Təmiz hava dərdi çəkir.

Son qazancı qəm olacaq,
Ömrü-günü kəm olacaq.
Görən kimə yem olacaq,
Döyüş, dava dərdi çəkir.

2006, 25 oktyabr
Kislovodsk

NƏĞMƏ DEYİB ÖTƏN QUŞLAR

Nəğmə deyib ötən quşlar,
Canım qurban bəstənizə.
Cəh-cəh vurun, qoy yayılsın
Səs bu dağa, səs dənizə.

Titrədi qəlbimin səsi,
Dindirdi yeddi iqlimi.
Eşqinizi duyan kimi,
Döndüm sizin xəstənizə.

Dərdə-qəmə bürünmüşəm,
Tutqun, qəmli görünmüşəm.
Heç vaxt yerdə sürünmərəm,
Qoşulmuşam dəstənizə.

2006, 27 oktyabr

ALLAHIN ALTI GENİŞ, ZAMANIN SƏBRİ BÖYÜK

Şeirin, sözün rəsmini
sən öz əllərinlə çək,
Uca dur, yüksəkdə qal,
tanrının varlığıtək.
Qoy səni qorxutmasın
nə fırtına, nə şimşək,
Sellərin qabağını
kəsə bilməz kör-kötük,
Allahın altı geniş,
zamanın səbri böyük.

Hər gün qarşılaşmışıq
mərd ilə, namərd ilə,
Yumşaqla yumşalmışıq,
sərt olmuşuq sərt ilə.
İnsanıq, doğulmuşuq
sevinc ilə, dərd ilə,
Çəkib aparmalıyıq
ağır olsa da bu yük,
Allahın altı geniş,
zamanın səbri böyük.

Nə təntiyib tələsməz,
nə gecikib ləngiməz,
Sərt yoxuşlar çıxanda
gur nəfəsi təngiməz.
Əbədiyyət yolçusu
daim yanar, səngiməz,
Xırdalar, xırdalıqlar
od ağzında yanan tük,
Allahın altı geniş,
zamanın səbri böyük.

2006, 6 noyabr

UNUTMA, GƏL

İşıq kimi, nur kimi,
Torpağa gəl, nura gəl!
Görsən ki, səhradayam,
Çevril qızıl quma, gəl!

Yer gün kimi parlaya,
Meh yeri tumarlaya.
Səpilən bu tarlaya,
Əkilən bu şuma gəl!

Yetmiş yeddi qatım ol,
Əslim, köküm, zatım ol.
Gündüzlər həyatım ol,
Gecələr yuxuma gəl!

2006 , 10 noyabr

SEVGİYƏM TƏPƏDƏN DIRNAĞA KİMİ

Cənnətdə Adəməm, Ağrıda Nuham,
Tanrıdan torpağa enən bir ruham.
Yer mənim varlığım, göy mənim düham,
Gəlmişəm o çağdan bu çağa kimi,
Sevgiyəm təpədən dırnağa kimi.

Ay məndə gecələr, gün məndən doğar,
Dan məndə sökülər, gün məndən doğar.
Şair dünyasına dünyalar sığar,
Doluyam puçurdan yarpağa kimi,
Sevgiyəm təpədən dırnağa kimi.

Bu gülün zərifi, incəsi nağıl,
Bu yazın düyməsi, qönçəsi nağıl.
Bu düzün Novruzu, xonçası nağıl,
Süzülür qələmdən varağa kimi,
Sevgiyəm təpədən dırnağa kimi.

Allahın töhfəsi işıqlı, nurlu,
Yoxuşda qüvvətdi, yolda uğurdu.
Könlüm söz eşqinə səcdəyə durdu,
Yol gəldim toxumdan torpağa kimi,
Sevgiyəm təpədən dırnağa kimi.

Çəməntək yaşılam, qar kimi ağam,
Zirvəsi buluddan nəm çəkən dağam.
Diriyəm, duruyam, təmizəm, sağam,
Hopub zərrə-zərrə damarlarıma,
Kökdən qığılcıma, ocağa kimi,
Sevgiyəm təpədən dırnağa kimi.

2006, 23 mart

VAXT

Sularda üzdün, yetər,
Göylərdə süzdün, yetər.
Torpaqda gəzdin, yetər,
Könül, getmək vaxtıdır.

Yol uzun, ömür gödək,
Olma heç kəsə yedək.
Gedək, ey könül, gedək,
Daha getmək vaxtıdır.

Bürün beş arşın ağı,
Kəsmə Tanrıdan bağı.
Allaha qovuşmağı
Qəbul etmək vaxtıdır.

2011, 9 may
Almaniya, Hannover

BİZƏ ŞÜKÜR, İLAHİ

Hər insanın öz yolu var,
öz cığırı, öz izi,
Düz seçilən yola şükür,
izə şükür, İlahi!
Sarsıntılar sınağından
sağ-salamat çıxmışam,
Qarşıdakı dağa şükür,
düzə şükür, İlahi!

Mənim adım yaradılan,
sənin adın Yaradan,
Ulu sevgi hər gün təzə
körpü salır aradan.
Dolaşmadıq, vədəsində
ağı seçdik qaradan,
Həqiqəti doğru görən
gözə şükür, İlahi!

Göydə idik, özün oldun
bizi yerə göndərən,
Hərəkətə, bərəkətə,
xeyrə-şərə göndərən.
Eşqi oda, ruhu səsə,
sözü şeirə döndərən,
Sən bizimsən, biz də sənin,
bizə şükür, İlahi!

2011, 11 may
Almaniya, Hannover

GƏLƏR

Bir dünya sevginin ilki, mayası,
Bir sağlam toxumdan, bir dəndən gələr.
Arının vətəni güldü, çiçəkdi,
Bülbülün cəhcəhi çəməndən gələr.

Sevgi gah istidi, gah da ki, sərin,
Kimiyə dayazdı, kimiyə dərin.
Eşqin dastanına çevrilənlərin,
Sorağı Bağdaddan, Yəməndən gələr.

Ürək yarpaq kimi asılar dardan,
Düşərsən uzağa anadan, yardan.
Bəd xəbər həmişə qürbət diyardan,
Şad xəbər həmişə Vətəndən gələr.

2011, 13 may
Almaniya, Hannover

SUAL

Gələnin getməyi varmış,
Ölənin itməyi varmış.
İtənin torpaq altında
Yenidən bitməyi varmış.
Səndə nə var Allahındı,
Məndə nə var Allahındı.
Görəsən yazıq insanın,
Bəs dünyada nəyi varmış?

2011, 17 may
Almaniya, Hannover

DÖRDLÜK

Bir dağam bu dağlar silsiləsində,
Öz zirvəm, öz qarım, öz qartalım var.
Dərman tanımayan, haram bilməyən,
Qaya koğuşunda halal balım var.

***

Həyat şirinləşir ağrılarıyla,
Dünya gözəlləşir doğrularıyla.
Əyrilər dünyanı əyri göstərir,
Dünya çirkinləşir oğrularıyla.

***

Göy yaxasını açır Yerə,
Yer ürəyini açır göyə.
Sevgi, işıq, məhəbbət,
Əbədi olsun deyə!

***

Babam – "xeyrini-şərini
qan!" – dedi,
Atam – "yanandan
Kül olana qədər yan!" – dedi.
Anam – "vaxtında yat,
vaxtında oyan!" – dedi.
Qandım!
Yandım!
Yatmışdım – bu sözlərdən sonra
Yatanları da oyatdım,
özüm də oyandım!

VƏTƏN

İmandan su içəndə
əqidəsi, məsləki,
Min illik palıd kimi
yüksələn, bitən olur.
Ruh bədənin sirdaşı,
bədən ruhun qardaşı,
Onda insanın gücü
hər şeyə yetən olur.

Yaşamaq meydanı var
torpaqdan Aya kimi,
Həyat hər an qaynayır,
çalxanır dərya kimi.
Kim durmağı bacarmır
tufanda qaya kimi,
Toz kimi əl-ayaqda
dolaşıb itən olur.

Dövlət kimi azad ol,
millət kimi hürr yaşa,
Sənə verilən ömrü
adam kimi sür, yaşa.
Zəlimxan, yurd eşqinə
uca bir ömür yaşa,
Qürbətdə də şairin
dayağı Vətən olur.

2011, 19 may
Almaniya, Hannover

İMTAHAN

Ürək, böyrək, baş, bədən
səni sınağa çəkdi,
Bu gün qan sınağıdı,
qana da imtahan ver.
Ruh tələb edir – yaşa,
can tələb – edir gedək,
Ruhdan icazə istə,
cana da imtahan ver.

Əcəl çox hay-küy salıb
yaxasını cırmasın,
Dinən şair qəlbidi,
o telləri qırmasın.
Ölümün sualları
qoy səni çaşdırmasın,
İncik salma özündən,
ona da imtahan ver.

Şah damarı dağıdıb
axan qanda nə tapdı,
Dərd içində qovrulub
yanan canda nə tapdı.
Nə itirmişdi dünya,
Zəlimxanda nə tapdı,
Əvvələ də cavab ver,
sona da imtahan ver.

2011, 20 may
Almaniya, Hannover

BORÇALI

Sənin müqəddəs adın
başımın qızıl tacı,
Baş qoyub ayağına
gəlirəm, ay Borçalı.
Qürbət mənə heç nə yox,
acı göz yaşı verdi,
Mən onu dəftərimdən
silirəm, ay Borçalı.

Sənə sarı gələndə
haqq evinə varmışam,
Dünyanın hər yerinə
səndən eşq aparmışam.
Dağdan ağır dərdləri
parça-parça yarmışam,
Mən Fərhadam, dərd qaya
dəlirəm, ay Borçalı.

Bəxtin tükdən asıldı,
taleyin darda qaldı,
Dondu çox arzuların,
boranda, qarda qaldı.
Gedənlərin dalınca
gözün yollarda qaldı,
Başın gör nələr çəkib,
bilirəm, ay Borçalı.

Həyat eşqin sönməsin,
ocağı, piri qalsın,
Dodaqlarda saz-sözü,
ürəkdə yeri qalsın.
Təki sənin varlığın
əbədi diri qalsın,
Qəm yemə şair desə
ölürəm, ay Borçalı.

2011, 25 may
Almaniya, Hannover

AĞRIYA SÖZÜM

Heç nəyi görmək istəmirsən,
Gözündə bir korluq var.
Heç nəyi eşitmək istəmirsən,
Qulağında bir karlıq var.
Heç nəyi duymaq istəmirsən,
Qəlbində bir darlıq var.
Heç nəyi dərk etmirsən,
Unutma ki, səndən yuxarıda
Əbədi bir varlıq var.
Nəsə səndən şübhələnmişəm,
Sənin ruhunda
Allahın xəbəri olmayan
Bir saxtakarlıq var!

2011, 22 may
Almaniya, Hannover

VƏTƏNƏ DOĞRU

Ey vətənə din-imanım deyənlər,
İnsaf, iman, din vətənə doğrudur.
Üşüyürdüm dünən doğan günəşdən,
Bu gün doğan gün vətənə doğrudur.

Vaxtı saymaq çox ağırdı, çox çətin,
Qədrini bil yurd adlanan qismətin.
Caynağından çıxa bilsək həsrətin,
Hara dönsən, dön, Vətənə doğrudur.

Doğmalıqda nə güc varsa bil daha,
Yaxşı sarıl eşq adlanan silaha.
Ay Zəlimxan, minnətdar ol Allaha,
Bu gün doğan gün Vətənə doğrudur.

2011, 21 may
Almaniya, Hannover

DÜŞMƏN

Dilinə qan sözü gətirmə daha,
Sən ona düşmənsən, o sənə düşmən.
Əzilən əzənə ölüm arzular,
Kəsilən həmişə kəsənə düşmən.

Yaş gözə bağlandı, göz yaşın oldu,
Öz ağlın, öz əlin öz başın oldu.
Hamı dostun oldu, qardaşın oldu,
Kimdi qandan qeyri de, sənə düşmən.

2011, 22 may
Almaniya, Hannover

UMUT YERİ

Bahar buludu kimi
yağmağa him gəzirəm,
İçimdə çaxnaşmadı,
dolmuş bulut yeri var.
Şirin nəğmələrimin
ötən dili bağlanıb,
Səsə qənim kəsilən
lal bir sükut yeri var.

Hər insanın canında
ağrıların pası var,
Qurulu bir çadırı,
sərili bir yası var.
Lap son anında belə
ruhun bir xilası var,
Nə yaxşı yoxa çıxmır
sonuncu umut yeri.

Bir bədən min yerindən
parçalanıb, çapılıb,
Nə gedənlər qayıdıb,
nə itənlər tapılıb.
Fələyin hazırlığı
bizə çoxdan yapılıb,
Ağ kəfən, qara torpaq,
qara tabut yeri var.

2011, 26 may
Almaniya, Hannover

YOXDUR

Eşq olan yerdə Allah var,
Allahlıqda riya yoxdur.
Şeytanlıqda bircə damla,
Halallıqdan maya yoxdur.

Tanrı kimi çıx meydana,
Cansızları gətir cana.
Başını qoşma şeytana,
Onda abır-həya yoxdur.

Göyü uca, yeri dərin,
Ruhu sakit, qəlbi sərin.
Haqqa doğru gedənlərin
Dilində bəd dua yoxdur.

2011, 15 may
Almaniya, Hannover

AĞRILI MİSRALAR

Hər şey hesablanıb
bizdən xəbərsiz,
Hər bahar gələndə
yada yar düşər.
Hesablaş zamanla,
vaxtla, vədəylə,
Hər payız gələndə
dağa qar düşər.
Ey şair! Özünü
yığışdır daha,
Bəxtinə saralmış
şeir dəftəri,
Yadına ağrılı
misralar düşər.

2011, 17 may
Almaniya, Hannover

TƏMƏNNALI DÜNYA

Təmənnalar, təmənnalar,
Qəlbiniz boş, içiniz dar.
Dartın, yığın harda nə var,
Siz varsınız, mənasızdı
Bu qədər mənalı dünya,
Ah bu təmənnalı dünya.

Gülü yoxdu, dərən ola,
Xan taxtına sərən ola.
Çətin ona indən belə,
Gəlib üz göstərən ola.
Atırsan keçə yerinə,
Köhnələndə xalı dünya,
Ah bu təmənnalı dünya.

Demirsən qızıl yallıydı,
Demirsən ifçin nallıydı.
Yerlə, göylə əlləşərdi,
Göylər qədər xəyallıydı.
Köhlən at qocalan kimi,
Sökdürürsən nalı, dünya,
Ah bu təmənnalı dünya.

Ağrı nədir, azar nədir,
Ürək hardadı, bilmirdim.
Ciyər necə nəfəs alır,
Böyrək hardadı, bilmirdim.
Taleyimə, qismətimə,
Duzaq harda qurulacaq,
Kələk hardadı bilmirdim.
Məndən ötrü təbiətin
Zəhər oldu balı, dünya.
Ah bu təmənnasız ömrüm,
Ah bu təmənnalı dünya!

2011, 15 may
Almaniya, Hannover

SUAL-NİDA

Eşitmisənmi yetimin ağlamasını?
Görmüsənmi qəribin göynəməsini?
Duymusanmı ağrıların illətini?
Eşitməyəydim!
Görməyəydim!
Bilməyəydim!
Kaş bu ağır sınaqlarla
İmtahana çəkilməyəydim!

2011, 10 may
Almaniya, Hannover

VƏTƏN GÖZLƏYİR

Mən sənə asanca
can tapşırmaram,
Ey ölüm, ölümsüz
yeri ver mənə.
Əlimdən aldığın
sağlıqlarını,
Sana, bircə-bircə
geri ver mənə.

Susdurma qürbətdə
şair qəlbini,
Orda yuvası var
nəğmənin, səsin.
Həyat mələkləri
gəlsin içəri,
Ölüm mələkləri
yaxın gəlməsin.

Hara qaçasıyıq
Allahın altdan,
Qəlbi dar, hissi dar,
səbri dar olma.
Qürbətdə əlinə
fürsət keçsə də,
Şair ölümünə
həvəskar olma!

Qəbrim də hazırdı,
qəbiristanım da,
Torpaq ağız açıb
bədən gözləyir.
Məni bu tərəfdə
təngit bir azca,
Məni o tərəfdə
Vətən gözləyir.

2011, 13 may
Almaniya, Hannover

ƏYYUB SƏBRİ

Mənim də qəlbimə
Əyyub səbri ver,
Əyyub bədəninə
qurd verən Allah.
Mənim də yuvama
sağ gözünlə bax,
Qurda da, quşa da
yurd verən Allah.

Eşqin bağçasından
dərim barımı,
Öpüm dərgahımı,
tapım yarımı.
İki yox, dörd elə
qanadlarımı,
Müqəddəs kitabı
dörd verən Allah.

Qarşında dayanan
quldu, bəndədi,
Hələ can çıxmayıb,
ruh bədəndədi.
Bu gün Zəlimxanın
gözü səndədi,
Göndər dərmanını,
dərd verən Allah!

2011, 12 may
Almaniya, Hannover

YAZI YAZAN SAĞ OLSUN

Baharla vidalaşdıq,
payız gəlir qarşıdan,
Ömrümün bağçasına
düşən xəzan sağ olsun.
Dünya köç-köç olsa da
sahmanı dəyişməyən,
Tanrının yaratdığı
qurğu, mizan sağ olsun.

Hər evdən qəbiristana
nəmli bir cığır gedər,
Çox havalı gələnlər
dünyadan fağır gedər.
Giley çıxsa dilimdən
Allaha ağır gedər,
Qəbrimə zəhmət çəkən,
qəbirqazan sağ olsun.

Ölən canımız olsun,
təki cahan ölməsin,
Bətnində can gəzdirən
Azərbaycan ölməsin.
Ruhlar didərgin düşüb
din və iman ölməsin,
Hər səhər göy üzünə
qalxan əzan sağ olsun.

Sahibi mən deyiləm
haqqa verdiyim canın,
Qarşısını kim kəsər
damardan çıxan qanın.

Bir ozanı ölsə də
sazlı-sözlü dünyanın,
Məndən sonra mən deyən
min-min ozan sağ olsun.

Altmış illik ömrə
altmış dəfə şükür,
Peyğəmbər yaşındakı
uca şərəfə şükür.
Məni haqq cərgəsinə
qaytaran səfə şükür,
Qanun verən, hökm edən,
yazı yazan sağ olsun.

2011, 10 may
Almaniya, Hannover

ZOR İŞ

Bütün ağrıların adını bildim,
Bütün dərmanların dadını bildim,
Bütün insanları süzdüm, ələdim,
Doğmasını bildim, yadını bildim,
İnsanla danışmaq zor imiş, Allah!

Dərdin dənizində üzdüm, yaşadım,
Bütün bəlalara dözdüm, yaşadım,
Bütün ağrıları canıma çəkdim,
Ağrıya-ağrıya gəzdim, yaşadım,
Ağrıyla yaşamaq zor imiş, Allah!

Qovuşdum aylara, çatdım illərə,
Gəmitək yan aldım gen sahillərə,
Ağlım açar saldı bağlı dillərə,
Hamıyla dil tapdım, dindim, danışdım,
Sənlə dil tapa bilmədim, Allah!
Hamıyla dil tapıb danışmaq olar,
Sənlə danışmaq zor imiş, Allah!

2012
Almaniya, Hannover

MƏNİM DEDİKLƏRİM YERİNƏ YETSƏ

Sular vurğunuyam, sular vurğunu,
Su axa, mən baxam, könül nurlana.
Dalğalar öpüşə sevgililərtək,
Qəlbə işıq düşə, can qürurlana.

Sellər dəlisiyəm, göllər aşiqi,
Sel daşa, mən coşam, sinəm qabara.
Ellərlə sellərin öpüşməsindən
Sevənlər çöllərə xəbər apara.

Yellərin, sellərin, çöllərin ətri
İnsan gözündəki nuru saxlaya.
Ağlı, düşüncəni, hissi, ürəyi
Zirvə eşqi kimi duru saxlaya.

Mənim dediklərim yerinə yetsə,
Mən ollam dəniz də, bulaq da, çay da.
Günəş gündüzümə bəxtəvər deyər,
Gecələr ömrümü bəzəyər Ay da.

Mənim dediklərim yerinə yetsə,
Yer ollam, göy ollam, Kainat ollam.
İşığı kəsilməz, odu azalmaz,
Nur dolu, nur donlu bir həyat ollam.

2012
Almaniya, Hannover

YARAŞIQ

Yer də, göy də yaraşıqdı,
Duman dağın yaraşığı.
Mamır daşın, gül qayanın,
Su bulağın yaraşığı.

Köksüz ağlar acı-acı,
Ucalıqdı başın tacı.
Gövdəsi saxlar ağacı,
Kök budağın yaraşığı.

Bu dünya közdü, kömürdü,
Yolları daşdı, dəmirdi.
Kül – qurtarmış bir ömürdü,
Köz ocağın yaraşığı.

Yerə aşiq, göyə aşiq,
Oda aşiq, suya aşiq,
Sən də, mən də yaranmışıq
Bu torpağın yaraşığı.

2012
Almaniya, Hannover

SALAMAT QALAR

Cərrah bıçağından al-qan tökülər,
Xəstə gah can alar, gah da can verər.
Bir yer ağrısa da, min yer göynəyər,
Ağrı min tərəfə həyəcan verər.

Ağrılar canına odtək dolanda,
Dişini dişinə sıxar kişilər.
Öldürər ölümü öz qüdrətiylə,
Ölümün ağzından çıxar kişilər.

Mərdlərin önündə əsər dizləri,
Əzrayıl özü də donar, mat qalar.
Kişi xəstələnər, kişi ağrıyar,
Kişilik həmişə salamat qalar.

2012
Almaniya, Hannover

OLA BİLMƏZ

İnsan oğlu ucalardan
uca durar Vətənində,
Torpağında çiçək açar,
güllər vaxtsız sola bilməz.
Suları şırhaşır axa,
bülbülləri cəh-cəh vura,
Qürbət ölkə dönüb heç vaxt
doğma Vətən ola bilməz.

2012
Almaniya, Hannover

ƏN BÖYÜK VAR-DÖVLƏT

Bac verməz sultana, baş əyməz şaha,
Sevinci son qoyar amana, aha.
Qızıldan qiymətli, gövhərdən baha,
Ən böyük var-dövlət insan qəlbidir.

Dünya sevda dolu bir həyat olsa,
Eşqin ocaqları çataçat olsa,
Qurduğun imarət yetmiş qat olsa,
Ən böyük imarət insan qəlbidir.

Əl bir ziyarətdir, üz bir ziyarət,
Qaş bir ziyarətdir, göz bir ziyarət,
Dağ bir ziyarətdir, düz bir ziyarət,
Ən böyük ziyarət insan qəlbidir.

2012
Almaniya, Hannover

MÜNDƏRİCAT

Yol 5
Özünə qayıdır xalqa qayıdan 6
Yazılmaz o məktub 8
Varağa köçməmiş min yazı qaldı 10
Getmə 11
Dərman da çoxalır dərd çoxalanda 12
Üç şərt 14
Heç kəs demədi ki 19
Mənə bircə nəfər adam göstərin 20
Sabahın dilində danış 21
Yazmaq olmur, əzizim 22
Dədə barışdırar, gədə küsdürər 23
Çəkil öz içinə 24
Gətirər 26
Ömürdən bir mənzərə 27
Suallar... Suallar 28
Bir kitaba sığarmı? 30
Doğulan gedirsə 32
Məzar daşları 33
Mənə bu dərdləri sən çəkdirmisən 34
Çıxıb təbiətin əlindən xata 35
Hələ bu dünyanın axırı deyil 36
Aldı vaxtımızı dost məclisləri 37
Bütövlük 38
Dünya duruş gətirir 39
Axır zaman evimiz 40
Allahın verdiyi bir canınız var 41
Əgər inamın ölübsə 42
Başdaşında yazı 44
Sevgimi dəfn eylədim 45
Yarla yarın arasında 46
Dedim – dedi 47
Sənə qalmayacaq sənin olanlar 48
Nifrət – sevgi 49
Alın yazısı 50
Şair qələmiylə işin olmasın 51
Ürək 53
Yardıma çağırdım 54
Gözümü qorxutma 55

Həmişə həyatdayam 56
Qara daşı göyərdərəm 58
Gənc şairin gəlişi 59
Təbiətin muğamatı 60
Söz 61
Ərköyün övladlar 62
Yaşıllanım yarpaq-yarpaq 63
Dağ duruşu 64
Seyrə çıxıb Xan qızı 65
Ruhuma yad heç nə yoxdu 66
Hara qaçacaqsan? 67
Günəşin doğması 68
Çəmən olsan, çiçəyini dərərdim 69
Ağaca çiçək ver, çiçəyə bar ver 70
İlk andımız, son andımız Turandı 71
Bu ağacın bar gətirən vaxtıdı 73
Dünya başdan-başa çilçıraq oldu 74
Torpaq ətri 75
Mən ürəyi ürək kimi saxlamadım 76
Gəl şəklini çəkim, dünya 78
Hər gün sevənlərin qulağı səsdə 80
Göylərə varan mənəm 81
Haqqı dinləmək gözəl 82
Elə bil cənnət quşudu 83
Cenevrə düşüncələri 84
Gözəllik duyulan yerdə 85
Çiçəkli 86
Göylərə çağırış var 87
Xəbərim yox özümdən 88
Gözəllik dəlisi 89
Can deyir, can eşidir 90
Nə gözəldi yaşamaq 91
Aşıq Qərib sazının telindəki pas mənəm 92
Şairəm, siz məni qınamazsınız 93
Allahdan gəlir 94
Mən çəkəni qələm bilməz 95
Hünəri çatmaz 96
Gəlmişəm 97
Ya Rəbbim, ürəkdə nələr var imiş? 98
Bəslənir 102
Pir kimi baxdım 103
Yaxınlıq 104
Mən hardan bilərdim şairlik nədir? 105
Allahdan qorxmasaydım 106
Mən sözün anası 108

Mən zamanı zamanında yaşadım 109
Çöllər bəxtəvər olub 110
Könlüm 111
Axdı varaqlara söz sətir-sətir 112
Qanad bağışladı küləklər mənə 113
O şeir mənim deyil 114
Şeirimiz 115
Mələklər belə yaşayır 117
Ozan oldum, boylarını boyladım 118
Arzu, təvəqqe 119
Şair sözü 121
Şair arzusu 122
Gələcək 123
İlk qafiyələr 124
O, qeybətə düşmən idi 126
Gərək daş olasan ki 128
Mənim poeziyam 130
Düşmə sevgidən qaçaq 131
Şairlər eşidir 132
Qohumluq 133
Şahdan gəlib şaha gedən yoldayam 134
Şair ürəyi 135
Şeir Tanrı duasıdır 137
Nə ziyanı? 138
Məni sevənlər 139
Özünü şax tut! 140
Gözlərim qapananda 141
Dünyaya gərəyəm 142
Qumam – səhra içində 143
Külək, atəş, su, torpaq 144
Məndən uzaqlarda üşüyən ulduz 146
Salam olsun 147
Soruşma 149
Adəm və mən 150
Min şükür 151
Gənclik 152
Azadlıq 153
Görə bilirsənsə 154
Oğul böyükdürsə, yük də böyükdü 155
Qürbətdən vətən olmaz! 158
Kərkük 160
Dərbənddən gəlirəm 162
Boş qalan evlərə 163
Şəhidlik gərəkdir Azərbaycana 164
Döyüşdədir Azərbaycan 166

Vətən yaxşıdı 167
Köksüz ağac 168
Məmməd Aslana 169
Mənə oğul deyil, vətəndaş gərək 170
Mənim Borçalıda qalan illərim 171
Yetim evlər 173
Vətən 174
Uduzarsan, çox oynasan alovla 175
Torpaq yanğısı 176
Divar və çay 180
Yeldağı haqqı 181
Borçalı ilə deyişmə 183
Cavad heyət körpüsü 185
Qarabağ ən çətin sualdı, qardaş 187
Xırdalama, İlahi, həmişə böyüt bizi 188
Sevindir zamanı 190
Borc eyləmə 191
Torpaq üçün qeyrətini qılınc bil 192
Yollar mənə yolluğunu göstərə 193
Allah yaxşıları sevir 194
Gəl, ey səsimə səs verən 195
Tanrının adına yaradan dedik 196
Bütün ürəkləri sevindir, Allah 197
Qoşa qurbanım var 198
Gedənlərə rəhm eyləsin haqq bir az 199
Sözümə baxmasan, taleyimə bax 200
Aman ölüm, mən dediyim vaxtda gəl 201
Salavat çevir 202
Ölümlə tanışlıq 203
Gənc şairə 204
Özün yazdın hər qisməti 205
Vaxtsız ayrılmasın durna qatardan 206
Mənə dünya bağışla 207
Haqdan nemət istədim 208
Danışsın 209
Qız, səni Allah qorusun 210
Halallıq 211
Bu qədər lilində batma nifrətin 212
Yaraşıq kimi 213
Dünyanın qovşağı mənlik deyilmiş 214
Göylərə qısqanma məni 215
Ruzu 216
Tanrıya sözüm 217
Alın yazısı 219
Bir az xoşbəxt eylə məni 220

Ömür yolu 222
Sevgi 223
Susmaq əzabı 224
Tarix 225
Zəlimxan nə yazsa, saz dilindədi 226
Qulluğa nökər gələr 227
Bir mələk çıxa 228
Sevgi qanad verdi mənə 229
Zəlimxan, ruhun var güldə, çiçəkdə 230
Söz 231
Yaddaşım mənim yox, yaddaşlarındı 232
Fürsət verdi Allahımız 233
Halal sevgilərin uzundur ömrü 234
Böyük sevgilər 235
Quş və budaq 236
Sevənlər həmişə möhtərəm olur 237
Sevindi canlı-cansız 238
Yay gecəsi 239
Vermə qocalığa cavan ömrünü 240
Qızlar bulağından su içən gözəl 241
Su içməyə gələn qız 242
Allah seçib 243
Bəzədi 244
Aclıq 245
Subay qızın sualı 246
Allaha yaxınlıq 248
Gözləyirəm 249
Atatürk köşkündə keçən günlərim 250
Hamarkənd 253
Aşıq Ədalətə 254
Bayatı ömrü ver şeirlərimə 256
Dədəm Qorquda 258
Kökü tanıyan, bilənəm 259
Zəlimxan dilində 260
Yarı mizrab, yarı pərdə, yarı sim 261
Biz 262
Dilini öyrəndim bütün dillərin 263
Nahaq endik o dağların başından 265
Gəl gedək 266
Təki gələn mələk olsun 268
Səfərdən gözəl nə var 270
Mən öz dastanımı yazıb gəlmişəm 271
Axırda bir ovuc kül qalasıdı 272
Dəyməz 273
Nahaq yerə işıq gəzmə paxırda 274

Vəfalıymış 275
Yaranıb 276
Şairin 277
Çatdırar 279
Çəkilsin dünyanın qaranlıqları 280
İnsan – dünya 281
Borc-vəzifə 282
Gözümü öyrətdim gülə-çiçəyə 283
Ulduzların yanına 284
Böyüklər bilər 285
Allahın işinə qarışma 286
Halallar bilər 287
Gülümsədi 288
Bülbül coşub bağa sığmır 289
"Bir tüfəngin lüləsindən" 290
Eşit məni, İlahi 291
Hərənin öz haqqı-sayı 292
İstedad 293
Haqdan gəlib haqqa gedən yorulmaz 294
Bu dünya əbədi dirilərindi 295
Zəlimxan səs verir haqqın səsinə 296
Bizə dərk eyləmək qalır 297
Qiyamət gününün nişanəsiyəm 298
Tanrıdı 299
Aşıq Ədalət Dəlidağlıya 300
Qəbirdən gələn səs 301
Mənim şeir, sənət yolum 302
Söylə görüm yapdığını 303
Ölən dünya kimə gərək 304
Şükür Allaha 305
Şair dağlarındı, dağlar şairin 306
Gözümüz üstündə mehman əyləşib 307
Gəlirəm, Vətən, gəlirəm 308
Gözəlləşirəm 309
Şahları şair tanıyar 310
Ömrüm 311
Xatasız ötüşmür xatalı şöhrət 312
Təklik tənhalıq deyil 313
Özünü öldürmək istəyən adam 314
Ürəyin ömrünü uzatdım bir az 315
Səni mənə Allah özü göndərib 316
Gedəsidi 317
Heyif 318
Badalaqmış 319
Ucuz adamların nazını çəkdim 320

Ağrıya sözüm 321
Bu şirin qəmlərin əvəzi yoxdur 322
Oxu mənim şeirimi 323
Gəl 324
Dərdə deyin 325
Müşfiqə bir güllə dəydi 326
Ozan yoxdu, ozan yox 328
İlham 329
Yaratdı 330
Aparanda 331
Lövhə 332
Şair gözlərindən yuxu qaçanda 333
Şərəf 334
Ürək-palıd 335
Köçaköç 336
Söz 337
Mübarizə 338
Dost üçündü şeirim, sözüm, dastanım 339
Məndədi 340
Nəvəm Yusifə 341
Bu nəhəng ağacı kim kəsib görən 342
Xəyal-xatirə 343
Dirilik suyudur mənimçün həyat 345
Qurbanam, türkə qurban 346
Aşıq Hüseyn Saraçlı dastanı 348
Nəyi səpirsənsə, o verəcək dən 352
Ustad Şəhriyar oxuyur 353
Bu aləmdən gözəl bir aləmim yox 356
Yaz axşamı 357
Tanrının özüdü yaşadan məni 358
İldırım 359
Ürəkaçan yol gedəsən 360
Gəlləm 361
Allah kəssin qürbəti 362
Həmişə beşikdən gələcək səsi 363
Saflıq – gözəllik 364
Hazırlıq 365
Qoca dünya 366
Yoxdusa 367
Dəyişməz 368
Mənim sazım sındırılan saz deyil....369
Baş yastığa gələndə 371
Məndən qorxunuz olmasın 373
O quş mənim qəlbimi açmaq üçün oxuyur 375
Qəbiristanlıq düşüncələri 377

Saxta sevgi 379
Qabalda bir gecə 380
Götürdüm 381
Deyəndə 382
Gürcücə oxuyan aşıq 383
Getdi 385
Baxışlar 386
Bu da payız fəsli 387
Yuvası dağılan quş 388
Nəğmə deyib ötən quşlar 389
Allahın altı geniş, zamanın səbri böyük 390
Unutma, gəl 391
Sevgiyəm təpədən dırnağa kimi 392
Vaxt 393
Bizə şükür, İlahi 394
Gələr 395
Sual 396
Dördlük 398
Göy yaxasın açır yerə 398
Babam "xeyrini-şərini qan!" – dedi 398
Vətən 399
İmtahan 400
Borçalı 401
Ağrıya sözüm 402
Vətənə doğru 403
Düşmən 404
Ümid yeri 405
Yoxdu 406
Ağrılı misralar 407
Təmənnalı dünya 408
Sual – nida 409
Vətən gözləyir 410
Əyyub Səbri 411
Yazı yazan sağ olsun 412
Zor iş 414
Mənim dediklərim yerinə yetsə 415
Yaraşıq 416
Salamat qalar 417
Ola bilməz 418
Ən böyük var-dövlət 419

Şərq East
Qərb West
1986-cı ildən since 1986
"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul:	*Sevil İsmayılova*
Texniki redaktor:	*Pərinaz Səmədova*
Üz qabığının dizaynı:	*Elşən Qurbanov*
Kompüter səhifələnməsi:	*Xəqani Fərzalıyev*
Korrektorlar:	*Pərinaz Səmədova* *Elşad Çobanlı*
Nəşriyyat direktoru:	*Rasim Müzəffərli*

Çapa imzalanmışdır 30.05.2012
Formatı 60×90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26.75
Sifariş N224. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az